NAZİM MUSTAFA

# Qərbi Azərbaycan:
# faktlar, sənədlər, reallıqlar

BAKI – 2025

QƏRBİ AZƏRBAYCAN İCMASI

**Qərbi Azərbaycan İcmasının kitabxanası**

**İdeya müəllifi** **s.e.d. professor Ədalət Vəliyev**

**Elmi redaktoru** **f.ü.f.d. Əziz Ələkbərli**

**Qərbi Azərbaycan İcmasının maliyyə vəsaiti hesabına çap olunmuşdu.**

**Nazim Mustafa. Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar.** "Orxan" NPM, Bakı-2025, 108 səh.

ISBN 978-9952-8516-5-6

© Qərbi Azərbaycan İcması
© Nazim Mustafa

# TARİXİ XÜLASƏ

Bu gün Ermənistan Respublikası adlanan dövlətin ərazisi tarixin müxtəlif dövrlərində Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlcuqilər, Eldənizlər, İlxanilər, Teymurilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qa-carlar və çar Rusiyası dövlətlərinin ərazisinə daxil olmuşdur. Tarixdə ilk erməni dövləti yalnız 1918-ci ildə Cənubi Qafqazda tarixi Azərbaycan torpağında yaranmışdır.

Cənubi Qafqazda ən gec məskunlaşan etnos ermənilərdir. Qədim türklər olan saklar, kimmerlər, hunlar, barsillər, oğuzlar, qıpçaqlar Qafqazda at oyna-danda bu regionda ermənilərdən əsər-əlamət belə yox idi.

Erməni tarixçisi Karen Yüzbaşyan etiraf edir ki, türklər Qafqazda səlcuqların gəlişindən xeyli əvvəl mövcud olmuşlar. O, türklərin Kiçik Asiyada və Balkanlarda məskunlaşması tarixinin IV-VII əsrlərə təsadüf etdiyini, VIII-X əsrlərdə isə kütləvi xarakter daşıdığını yazır. K.Yüzbaşyan ərəb xilafəti dövründə sərhəd bölgələrinin əmirlərinin türk tayfa başçılarından seçildiyini qeyd edir[1].

Bu gün özlərini "hay" adlandıran, toplumun tarixi xristianlığın ən qədim kitabı hesab edilən İncilə və müxtəlif xalqların mifoloji qaynaqlarına uyğunlaşdırılmış, orada adları sadalanan şəxslərin prototipləri uydurulmuş və yer-yurd adları saxta tarixdə əks etdirilmişdir.

Hayların tarixinin atası hesab olunan və V əsr salnaməçisi kimi təqdim edilən yepiskop Movses Xorenasinin (Moisey Xorenski) yazdığı iddia edilən "Tarix"i bir çox ermənişünaslar kompilyativ xarakter daşıyan, başdan-ayağa anaxronizmlərdən ibarət olan cızma-qara hesab edirlər. M.Xorenasinin "Tarix"i Avropada ilk dəfə 1695-ci ildə tərcümə edilərək Amsterdamda

---

[1] Юзбашян Карен. Армянские государства эпохи Багратидов и Византия. Москва, 1998, с. 216-217.

çap edilmişdir. Bu kitabı tədqiq edən bir sıra Avropa alimləri La Kroza, A.Karriere, S.Marten, A.Qutşmid, erməni tarixçilərindən N.Emin, K.Patkanov, Qr.Xalatyans, A.Qaraqaşyan belə nəticəyə gəlmişlər ki, M.Xorenasinin "Tarix"ində Tövrat və İncildən, eləcə də yunan tarixçiləri Strabon, Herodot, Kteziya, Ksenofontun əsərlərində əks olunmuş urartululara, assuriyalılara, midiyalılara, sasanilərə aid hadisələrin üzü köçürülərək, bu xalqların sərkərdələri, tarixi şəxsiyyətləri haylar kimi, həmin ərazilər isə Hayastan kimi təqdim edilmişdir.

Erməni tarixçisi Leo (Arakel Babaxanyan) M.Xorenasinin "Tarix"ində Haykın (*uydururma Haykazyanlar dövrü-N.M.*) törəmələrinin 1800 illik tarixində 59 hakimin adlarının yazıldığını, həmin hakim-lərdən 32-nin yalnız quruca adlarının göს-tərildiyini, hakimlik dövrlərinin isə göstərilmədiyini qeyd etmişdir. Leo "erməni tarixinin atası" hesab edilən M.Xorenasini yazdığı kitabı süni surətdə İncilə uyğunlaşdırmaqla, xristianlığa süni xidmət göstərdiyini yazır. Leo M.Xorenasinin "Haykazyanlar" dövrünün isə heç də sədaqətli salnaməçisi olmadığını qeyd edərək, onun yazdıqlarının uydurulmuş tarix olması qənaətinə gəlmişdir[2].

Məhşur fransız erməniшünası Sen-Marten isə Moisey Xorenasinin əsəri kimi təqdim edilən "Coğ-rafiya" əsərinin müəllifinin Xorenasinin olmadığını sübut etmişdir. Bu əsər ilk dəfə 1683-cü ildə Marseldə çap olunmuş və 1736-cı ildə Londonda Viston qardaşları tərəfindən "Moisey Xorenasinin coğrafiyası" adı altında latın dilinə tərcümə edilmişdir. Fransız erməniшünası Sen-Marten bu əsərdə kifayət qədər anox-

---

[2] Լեո (Բաբախանյան Առաքել). Հայոց պատմություն. Երկերի ժողովածու, հ. I, Երևան, 1966, s. 5. [Leo (Babaxanyan Arakel). Seçilmiş əsərləri, 10 cilddə, I cild. Yerevan, 1966, s. 5.].

ronizmlərin olduğu, kompliyativ səciyyə daşıdığı və həmin əsərin yalnız X əsrdə qələmə alına biləcəyi qənaətinə gəlmişdir[3].

Rus tədqiqatçısı Aleksandr Anninski M.Xorenasinin tarixi mənbə kimi əsərlərinə istinad etdiyi müəlliflərin - Mar Abas Katina, Aqafangel, Zenob və Favst Buzandın yazdıqlarının Avropa ermənişünasları tərəfindən demək olar ki, tamamilə inkar edildiyini yazır[4].

Belə qənaət hasil olur ki, ya ümumiyyətlə V əsrdə Moisey Xorenasi adında hay tarixçisi olmayıb, ya da onun müəllifliyi ilə dünyaya təqdim edilən həmin əsərlər Ərəb xilafəti dövründə erməni kilsə xadimləri tərəfindən quraşdırılmışdır. Haylar ərəb xilafətinin bərqərar olmasından sonra islam dinini qəbul edən aborigen türk mənşəli boyların tərk etdikləri dini məbədlərə sahib çıxmış, həmin məbədləri kilsəyə çevirmişlər.

Başqa bir erməni tarixçisi Baxşi İşxanyan isə ermənilərin özlərinə həqiqi vətən hesab etdikləri "Böyük Ermənistan"ın Rusiyanın hüdudlarından kənarda – Kiçik Asiyada yerləşdiyini yazır[5].

Digər rus qafqazşünası İvan Şopen qədim müəl-liflərin əsərlərini araşdıraraq belə nəticəyə gəlmişdir ki, haylarla erməniləri eyni mənşəli hesab etmək olmaz[6]. Eramızdan əvvəl XII əsrdə Balkanlardan Kiçik Asiyaya köçüb gələn haylar, onlara qohum olan frako-frikiya tayfaları ilə birlikdə Dəclə və Fərat çayları arasında məskunlaşmışlar.

---

[3] Из нового списка географии, приписываемого Моисею Хоренско // *Журнал министерства народного просвещения,* № 3. 1883, с. 23..

[4] Аннинский Александр. Древние армянские историки, как исторические источники. Одесса, 1899, с. 15.

[5] Ишханян Б. Народности Кавказа. Состав населения, профессиональная группировка и общественное разслоение Кавказских народностей. Петроград, 1916, с. 18.

[6] Шопен И.И. Новые заметки на древней истории Кавказа и его обитателей. С. Петербург, 1866, с. 35.

1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahan şahın razılığı ilə erməni katolikosluğu Kilikiyadan İrəvan yaxınlığında Valarşabad kəndindəki Üçkilsəyə - Eçmiədzinə köçürülmüşdür[7]. Həmin vaxtdan etibarən ermənilər İrəvan ətrafında məskunlaşmağa başlamışlar.

1646-cı ildə ilk dəfə İrəvanda olan məşhur türk səyyah və coğrafiyaşünası Evliya Çələbi yazır ki, Üçkilsə mənzili (*yəni məntəqəsi*) İrəvan sərhədindədir və orada üç böyük kilsə vardır ki, onlardan birini Ənuşirəvan (*yəni Sasani hökmdarı Xosrov Ənuşirəvan (510-579) nəzərdə tutulur*), birini Rum qeysəri (*yəni Bizans imperatoru*), birini də Ermən Zenan (?) inşa etmişdir[8].

Avropa dövlətlərinin və Roma katolik kilsəsinin maliyyəsi hesabına erməni kilsələri ətrafındakı torpaqlar satın alınaraq ilk erməni yaşayış məskənləri meydana gəlmişdir. 1763-1782-ci illərdə Eçmiədzin katolikosu olmuş Simeon Erevansi "Cambr" əsərində və tarixçi A.Papazyanın Matenadaranda saxlanılan alqı-satqı sənədləri əsasında tərtib etdiyi kitabda[9] Eçmiədzin kilsəsinin azərbaycanlılara məxsus torpaqların kimdən, nə zaman və hansı qiymətə alınması barədə sənədlər əks olunmuşdur.

Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin himayəsindən sui-istifadə edən Üçkilsə katolikosları və onların Avropadakı havadarları Azərbaycanın bu olduqca münbit ərazisində ermənilərin məskunlaşmasına havadarlıq edirdilər. Xristian dövlətlərinin və missionerlərinin vəsaiti hesabına varlanan erməni kilsələri yerli müsəlman hakimlərdən yeni-yeni torpaqlar alırdılar.

Qaraqoyunluların hakimiyyəti dövründə Ağrı dağı ilə Alagöz (Ələyəz) dağları arasında qalan ərazi Çuxur Səəd adlanırdı. Çuxur-Səəd coğrafi istilahı türk Səədlı oymağının adı

---

[7] Ереванци Симеон. Джамбр. Москва, 1958, с. 87.

[8] Evliya Çələbi Səyahətnaməsində Azərbaycan. Bakı, 2012, s. 41.

[9] Персидские документы Матенадарана. II. Купчие. Выпуск I (XIV—XVI вв.). Сост. А. Д. Папазян. Ереван, 1968.

ilə bağlıdır. Səfəvilərin hakimiyyəti dövründə indiki Ermənistanın böyü bir hissəsi Çuxur-Səəd bəylərbəyliyi adlanırdı.

Matenadaranda saxlanan alqı-satqı sənədlərində Üçkilsənin yerləşdiyi ərazinin Azərbaycan ölkəsinin Çuxur-Səəd vilayətində yerləşdiyi qeyd edilir[10].

Matenadaranda saxlanan digər alqı-satqı sənədlərində qeyd edilir ki, hələ 1431-ci ildə iri torpaq mülkiyyətçisi Əmir Rüstəm xəzinə torpaqlarında yerləşən 7 kəndi - Eçmiədzin (Üçkilsə) monastırının yerləşdiyi Valarşabad kəndini, Əştərək, Batrinc, Noraqavit, Ağavnatun, Kirəşli və Muğni kəndlərini 90 min dinara katolikos Qriqor Makuluya satmış, o da öz növbəsində həmin kəndləri Üçkilsə monastırına bağışlamışdır[11]. Sonralar Üçkilsə monastırı daha 16 kəndi və digər torpaqları və mülkləri ələ keçirmişdir[12].

1747-ci ildə Nadir şahın ölümündən sonra 1827-ci ilin oktyabrınadək Çuxur-Səəd bəylərbəyliyinin ərazisində suveren dövlət kimi İrəvan xanlığı mövcud olmuşdur.

---

[10] Персидские документы Матенадарана. II. Купчие. Документ 5, с. 264.

[11] Ереванци Симеон, göstərilən əsəri, с. 173.

[12] Yenə orada, с. 21.

# ERMƏNİLƏR RUSLARIN HİMAYƏSİNDƏ

Ermənilərin Şimali Azərbaycan xanlıqlarının ərazilərinə kiçik dəstələrlə axını 1801-ci ildə rus qoşunlarının İrəvan xanlığına tabe olan Pəmbək əyalətinə daxil olmasından sonra azərbaycanlıların bölgəni tərk etmələri və Türkiyə ərazisindən gələn ermənilərin həmin bölgədə məskunlaşdırılması dövründən başlanmışdır.

1804-cü ilin iyulunda Pəmbək bəylərinin başçılığı altında baş qaldırmış üsyandan sonra yerli əhalinin bir hissəsi Osmanlı imperatorluğunun ərazilərinə sığınmışdı[13].

1805-ci il oktyabrın 20-də Gəncədə Gürcüstanın ali hakimi knyaz Sisianovun və Gəncənin qazısı Yaqubun iştirakı ilə Şörəyel sultanı Budaq sultan özünün və ailəsinin, habelə Şörəyel əyalətinin əbədi olaraq Rusiyanın tabeliyinə keçməsi və imperatora sədaqət göstərəcəyi haqda Qurana and içir. Bunun nəticəsi olaraq 7 maddədən ibarət qərar imzalanır. Qərarın altından Budaq sultan, molla Yaqub və knyaz Sisianov öz möhürlərini basmışlar[14].

1807-ci ildə rus qoşunlarının Qars paşalığına hü-cumundan sonra Rusiyanın təbəəliyini qəbul edən 500 erməni ailəsi Pəmbək distansiyasına, 170 ailə isə Şörəyel distansiyasına köçürülmüşdü[15]. 1810-cu ildə isə Şörəyel distansiyasına 40 katolik yunan ailəsi köçürülmüşdü[16].

1813-cü il oktyabrın 12-də Rusiya ilə Qacarlar dövləti arasında imzalanan Gülüstan müqaviləsinə əsasən Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla, bütün Şimali Azərbaycan xanlıqları Rusiyanın tərkibinə qatılmışdır.

---

[13] Акты, собранные Кавказскою археографическую комиссиею (budan sonra - АКАК). Архив главного управление наместника Кавказа., II cild, 1868, s. 911.
[14] АКАК, II cild, Tiflis, 1868, s. 576-577.
[15] АКАК, III cild, Tiflis, 1869, s. 979; s. 549.
[16] АКАК, IV cild, Tiflis, 1870, s. 24.

İkinci Rusiya-Qacarlar (1826-1828) müharibəsinədək ümu-milikdə Pəmbək-Şörəyel distansiyasına Türkiyədən 4675 erməni ailəsi köçürülmüşdür[17].

1827-ci il iyunun 26-da rus qoşunları Naxçıvan şəhərini, sentyabrın 20-də Sərdarabad qalasını, oktyabrın 1-də isə İrəvan qalasını ələ keçirdilər. 1828-ci il fevralın 10-da imzalanan Türkmənçay müqaviləsinə əsasən sonuncu şimali Azərbaycan xanlıqları – İrəvan və Naxçıvan xanlıqları Rusiyanın tərkibinə qatıldı. Müqaviləni Qacarlar dövləti tərəfindən vəliəhd şahzadə Abbas Mirzə və Fətəli şahın nümayəndəsi Allahyar xan Əsəf əl-Dövlə, Rusiya tərəfindən isə general İvan Paskeviç imzalamışdır. Müqavilənin bütün şərtləri Paskeviç tərəfindən diktə edilmişdi.

Martın 20-də I Nikolay bu müqaviləni təsdiq etmiş və ertəsi gün İrəvan və Naxçıvan xanlıqlarının ərazilərini əhatə edən "Erməni vilayəti" yaradılması haqqında fərmanı imza-lamışdır.

Müqaviləyə əsasən rus qoşunlarının Cənubi Azər-baycandan geri çəkilmə prosesi martın 8-dən etibarən Marağadan başlandığı üçün, ilk növbədə orada yaşayan erməniləri köçürmək nəzərdə tutulmuşdu. Köçürmə işlərinə rəhbərlik edən erməni əsilli polkovnik Lazaryevin (Yeğiazar Lazaryan) və ona təhkim edilən erməni zabitlərinin vəzifəsi köçürülənlərin sərhədə çatdırılması ilə bitmiş hesab edilirdi. Bundan sonra işlərə rəhbərlik İrəvan müvəqqəti idarəsi yanında yaradılan Komitəyə həvalə edilirdi. Komitə köçkün partiyalarını sərhəddə qarşılamaq üçün heyət göndərirdi. Həmin heyət onları yeni yaşayış məntəqəsinədək müşayiət edirdi[18].

Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən Cənubi Azərbaycanda yaşayan xristianlara sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verilirdi. Köçürülənlərin satlıq

---

[17] Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топогрфическом и финансовом отношениях, СПб, 1836, II hissə, s. 302-304.

[18] Yenə orada.

malına və ya əmlakına, əşyalarına hər hansı gömrük rüsumu və vergi qoyul-madan daşınan mülkləri aparmaq və satmaq üçün bir il, daşınmaz mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında verilən vəkalət üçün 5 illik müddət müəyyən edilmişdi [19].

[19] Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı, 1989, s. 283.

## İrandan köçürülən ermənilər

Rusiya hökuməti yeni işğal edilən ərazilərə əvvəlcə rusların köçürülməsini nəzərdə tuturdu. Lakin Rusiyanın İrandakı səfiri A.S.Qriboyedovun təşəbbüsü ilə işğal edilmiş yeni ərazilərə İran ermənilərinin köçürülməsi məsələsi meydana çıxdıqdan sonra, Rusiya hökumətinin İranla sərhəd boyu ərazilərə 80 min kazakın köçürülməsi layihəsi qüvvədən düşmüşdü[20].

Paskeviçin dəvəti ilə statist İvan Şopen 1829-1832-ci illərdə "Erməni vilayəti"ndə kameral siyahıyaalma keçirmişdi. Siyahıyaalmanın nəticələrinə görə, İrandan köçürülən ermənilər 1715 nəfər (366 ailə) İrəvan, 1110 nəfər (265 ailə) Naxçıvan və 182 nəfər (36 ailə) Ordubad şəhərlərində yerləşdirilmişdi. Ümumiyyətlə, İrəvan əyalətində 23568 nəfər (4599 ailə), Naxçıvan əyalətində 10652 nəfər (2137 ailə), Ordubad dairəsində 1340 nəfər (250 ailə) erməni yerləşdirilmişdi. Nəticədə yeni təşkil edilmiş "Erməni vilayətinə" 35560 nəfər (6949 ailə) köçürülmüşdü[21].

Əgər Türkmənçay müqaviləsinin imzalanmasınadək "Erməni vilayəti"ndə müsəlmanların sayı 81749 nəfər (16078 ailə) və ermənilərin sayı 25131 nəfər (4428 ailə) olmuşdusa, İrandan erməniləri köçürdükdən onların sayı 60691 nəfərə (11377 ailə) çatmışdı. Bununla da ermənilərin nisbəti 24 faizdən 43 faizə qalxmışdı. Nəzərə alsaq ki, ümumiyyətlə, İrandan köçürülən 8249 ailədən 6949-u "Erməni vilayəti"ndə yerləşdirilmişdir, onda belə qənaətə gəlmək olar ki, yerdə qalan 1300 ailə Qarabağa və Zəngəzura köçürülmüşdür.

Erməni tarixçisi V.Parsamyanın yazdığına görə, 1828-ci ilin yaz aylarında Təbriz, Maku, Xoy, Səlmas, Urmiya, və

---

[20] Ениколопов И. Грибоедов и Восток. Баку, 1998, с. 117.

[21] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, СПб 1852, с. 636-642.

Ərdəbildən təqribən 45-50 min ailə "Şərqi Ermənistana" (yəni indiki Ermənistan ərazisinə) köçürülmüşdür[22].

Lazaryevin 1828-ci il martın 30-da Urmiyadan xristianlara etdiyi müraciətdə deyilirdi: ***"Rusiyada siz Əlahəzrətin digər təbəələri kimi, bərabərhüquqlu olduğunuzu görəcək, bütün əziyyətləri unudacaqsınız, orada siz xristianların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz... Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək, o zaman sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz köçməyinizə cavabdeh olmayacağıq. Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik olaraq***[23]**.**

---

[22] Парсамян Вардан. История армянского народа. 1801-1900. Ереван, 1972, с.50.

[23] Qлинка Н.С. Описания переселения армян Азербайджанских в пределы России, Москва, 1831, с. 111.

## Türkiyədən köçürülən ermənilər

Rus ordusu 1828-ci il iyunun 14-də Paskeviçin komandanlığı altında Şərqi Anadoluya hücuma keçmiş və iyun-avqust aylarında Qars qalasını, Axılkələyi, Axıskanı, Ərdəhanı və Bəyazidi ələ keçirmişdi. 1829-cu ilin yazında isə Ərzurum, Muş, Oltu və Bayburd da işğal edilmişdi. 1829-cu il sentyabrın 14-də Rusiya ilə Türkiyə arasında imzalanan Ədirnə müqaviləsinə əsasən Axılkələk və Axıska bölgələri Rusiyanın tərkibinə keçmiş, işğal edilmiş digər ərazilərin Türkiyəyə qaytarılması qərara alınmışdı.

İ.Paskeviç hələ 5 yanvar 1829-cu ildə İmperatora yazdığı məruzəsində təklif etmişdi ki, 20 min kazak-malorosslar Araz çayı boyunca və Somxetiya (Axılkələk və Axıska) bölgəsində məskunlaşdırılsınlar[24]. Lakin onun bu təklifi həyata keçirilməmiş, nəticədə ermənilərin köçürülməsi variantı yenidən işə salınmışdı.

1830-cu il yanvarın 22-də Paskeviçin Çernışevə göndərdiyi məlumatda göstərilirdi ki, Qars və ətrafından köçən 2500 ailə onun sərəncamı ilə yaşadıqları yerin iqlim şəraitinə uyğun olaraq Alagöz (Ələyəz) yaxınlığında (Pəmbək distansiyasında) boşalmış kəndlərdə yer-ləşdirilmişlər[25].

Ərzurumdan 7298, Ərdahandan köçürülən 67 erməni ailəsindən 1305 ailə Pəmbək və Şörəyel distansiyalarında, qalanları isə Axıska paşalığının ərazisində, Borçalı distansiyasında və Zalqa (Barmaqsız) əyalətində məskunlaşdırılmışdı. Qars paşalığından köçürülən 2464 erməni ailəsi Pəmbək və Şörəyel distansiyalarında, habelə Talın mahalında yerləşdirilmişdi. Bəyazid paşalığının ərazisindən köçürülən 4215 erməni ailəsi isə Göyçə gölü hövzəsində və Baş Abaran nahiyəsində məskunlaşdırılmışdı[26].

---

[24] Парсамян Вардан, göstərilən əsəri. c. 65.
[25] AKAK, VII cild, Tiflis, 1878, s. 833.
[26] AKAK, VII cild, s. 847.

İ.Şopenin apardığı siyahıyaalınmanın nəticələrinə görə, vilayətin ərazisinə 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezdi kürdlərinin köçürüldüyü göstərilir. Köçürülən ermənilər İrəvan xanlığının Qırxbulaq, Sürməli, Talın, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahallarının 129 kəndində yerləş-dirilmişdilər[27].

1832-ci ilin sonu, 1833-cü ilin əvvəlində Türkiyədən Gürcüstanın Zalqa (Barmaqsız) bölgəsinə köçürülən ermənilərdən 182 ailə oradan Pəmbək-Şörəyel distansiyasına köçürülmüşdülər. Köçürülənlərin arasında 169 yunan və 963 nəfər katolik erməni var idi[28].

1834-cü ilin məlumatına görə, İrəvan əyalətində Bəyaziddən gəlmiş 1000 nəfər (təqribən 300 ailə) yezdi kürd məksunlaşmışdı[29]. Yezdi kürdlər 1839-cu ildə Alagöz (Ələyəz) dağının ətəyindəki Mirək, Quruboğaz, Carcarçı, Çobangərəkməz kəndlərində, sonralar isə Pəmbək, Qundaxsaz, Böyük Camışlı, Kiçik Camışlı və Korbulaq kəndlərində yerləşmişdilər. Nəhayət, yezdi kürdlər 1877-ci ildə Bağdad-Dolutaxt və Kiçik Cəngi kəndlərində gəlib yerləşmişdilər[30].

Rus tədqiqatçısı A. Parviskinin yazdığına görə, Novo-Bəyazid qəzasında ermənilərin sayca tatarları *(yəni azərbaycanlıları)* üstələməsinin səbəbi general Ter-Qukasovun 1877-

---

[27] Шопен И.И. Исторический памятник.., с. 636-642.

[28] Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топогрфическом и финансовом отношениях, СПб, 1836, II hissə, s. 302-304.

[29] Обозрение Российских владений за Кавказом, СПб, 1836, IV hissə, s. 270.

[30] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Tiflis, 1885, I cild, I buraxılış, s. 4.

ci ildə erməni ailələrini Türkiyədən gətirərək həmin ərazidə məskunlaşdırması olmuşdur[31].

Ümumiyyətlə, İ.Şopenin statistikasına görə, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə İran və Türkiyədən 57266 nəfər erməni (10631 ailə) köçürülmüşdür. Köçürülmələrdən əvvəl həmin ərazidə cəmisi 25131 nəfər (4428 ailə) erməni yaşamışdı ki, onların da əksəriyyəti 1801-ci ildə rus qoşunlarının Cənubi Qafqaza daxil olmasından sonra kənardan gələrək həmin ərazilərdə məskunlaşmışdılar. Müharibələrin nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən türklərin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81749 nəfər (17078 ailə) müsəlman qalmışdı. Köçürmələrdən sonra isə ermənilər 82397 nəfər (15059 ailə) təşkil etmiş, nəticədə müsəlmanları sayca üstələmişdilər[32].

İ.Şopenin statistik məlumatlarından aydın olur ki, İrandan köçürülən ermənilər İrəvan xanlığının 119 kəndində, Naxçıvan xanlığının 72 kəndində, Türkiyədən köçürülən ermənilər İrəvan xanlığının 128 kəndində, Naxçıvan xanlığının 4 kəndində yerləşdirilmişdilər. Köçürülmələr nəticəsində İrəvan xanlığının ərazisində azərbaycanlılarla ermənilərin qarışıq yaşadıqları 50, Naxçıvan xanlığının ərazisində isə 35 kənd meydana çıxmışdı.

Rus tədqiqatçısı N.Şavrov yazır: "1826-28-ci illər müharibəsinin qurtarmasından sonrakı iki il ərzində 1828-ci ildən 1830-cu ilədək Cənubi Qafqaza 40 min İran və 84 min Türkiyə erməniləri köçürmüş və onları Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik hansı ki, orada erməni əhalisi cüzi idi. Onları həmçinin Tiflis quberniyasının Borçalı, Axıska və Axılkələk qəzalarında yerləşdirdik. Onların yerləşdirilməsi üçün 200 min desyatindən

---

[31] Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Tiflis, 1885, I cild, III buraxılış, с. 387.

[32] Шопен И.И. Исторический памятник.., с. 642.

artıq dövlət torpağı ayrılmış, 2 milyon rubldan artıq məbləğdə müsəlmanlardan xüsusi mülkiyyət torpaqları satın alınmışdı. Yelizavetpol quberniyasının dağlıq hissəsi və Göyçə gölünün sahili həmin ermənilərlə məskunlaşdırılmışdı. Nəzərə almaq lazımdır ki, 124 min nəfər rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən xeyli artıqdır.” [33]

Göründüyü kimi, Rusiyanın İrəvan xanlığının ərazisindən azərbaycanlı əhalinin silah gücünə sıxışdırılıb çıxarılmasından və İran və Türkiyə ərazilərindən ermənilərin köçürülüb gətirilmələrindən əsas məqsədi İran və Türkiyə ilə sərhəd ərazilərdə xristian zolağı yaratmaq və gələcək ekspansionist planlarında ermənilərdən alət kimi istifadə etməkdən ibarət olmuşdur[34].

---

[33] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам, СПб, 1911, с. 63.

[34] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, Azərbaycan, 2010, s. 582.

# QƏRBİ AZƏRBAYCANDA TÖRƏDİLƏN REPRESSİYALAR, SOYQIRIMI VƏ DEPORTASİYALAR

## 1905-1906-cı illər qırğınları

XX əsrin əvvəllərində Cənubi Qafqazda, xüsusən də Qərbi Azərbaycan adlanan indiki Ermənistan ərazisində azərbaycanlılara qarşı törədilən qırğınların ssenarisi ermənilərin XIX əsrin sonunda Şərqi Anadoluda əldə etdikləri təcrübəyə əsaslanırdı. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra Avropa dövlətlərinin səyləri nəticəsində gündəliyə çıxarılan "Erməni məsələsi", sonralar Şərqi Anadoluda ermənilər üçün muxtariyyət əldə etmək və müstəqil Ermənistan dövləti qurmaq üçün bir vasitəyə çevrilmişdi. Bu muxtariyyətin əldə edilməsi üçün əvvəlcə Şərqi Anadolu vilayətlərində, yəni ermənilərin indi "Qərbi Ermənistan" adlandırdıqları vilayətlərdə say üstünlüyünə nail olmaq lazım gəlirdi. Lakin Şərqi Anadolu vilayətlərinin heç birində ermənilər say etibarı ilə üstünlük təşkil etmirdilər[35].

Həmin illərdə Rusiya, İngiltərə və Fransanın yardımı ilə Türkiyədə ermənilər üsyana təhrik edilirdilər. Bu işə rəhbərliyi "Armenakan", "Hnçak" və "Daşnaksutyun" partiyaları edirdilər.

Ermənilərin Türkiyədə 1894-1896-cı illərdə törətdikləri iğtişaşlar yatırıldıqdan sonra həmin iğtişaşların təşkilatçılarının və iştirakçılarının əksəriyyəti Cənubi Qafqaza axışmışdı[36]. Rus müəllifi N.Şavrovun yazdığına görə, 1896-cı ildə Cənubi Qafqazda 900.000, 1908-ci ildə 1.301.000 erməni yaşamışdır. Deməli, təkcə bu dövrdə 400.000 erməni gəlib Cənubi Qafqazda yerləşmişdi[37]. Həmin dövrdə Cənubi Qafqazda törədilən

---

[35] Величко В. Л. Кавказ. Русское дело и междуплеменные вопросы. С. Петербург: Типог. Печать дела, 1904, с. 96.

[36] «Армянский геноцид». Миф и реальность справочник фактов и документов. Пер. с английского. Баку: Азернешр, 1992, с. 204.

[37] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье, с. 64.

cinayətlərin 80 faizi Türkiyədən gəlmiş ermənilərin və muzdlu qatillərin payına düşürdü[38].

XX əsrin əvvəllərində Qafqazda mövcud olan 54 qəzadan yalnız 5-də ermənilər çoxluq təşkil edirdilər. İrəvan quberniyasındakı 7 qəzadan 3-də, Yelizavetpol (Gəncə) quberniyasındakı 8 qəzadan yalnız 1-də ermənilər çoxluq təşkil edirdilər.

Erməni müəlliflərindən əsl adı Hovannes Ter-Martirosyan olan, lakin əsərlərini "A-Do" imzası ilə çap etdirən müəllifin "Qafqazda erməni-türk toqquşmaları"[39] əsərində 1905-1906-cı illərdə Cənubi Qafqazın 12 qəzasında və 7 şəhərində baş verən qırğınlar barəsində xronoloji ardıcıllıqla məlumat verilir.

1905-1906-cı illər qırğınları ərəfəsində İrəvan quberniyasında mövcud olan 1301 yaşayış məntəqəsindən 959-da azərbaycanlılar, 342-də ermənilər məskunlaşmışdılar[40]. Yelizavetpol quberniyasında isə 1613 kənddən yalnız 390-da ermənilər yaşayırdılar[41].

XX əsrin əvvəllərində erməni şovinizminin, millətçi erməni partiyalarının maddi və mənəvi qida mənbəyi rolunu əsasən erməni kilsələri oynayırdı. 12 iyun 1903-cü ildə erməni kilsələrinə məxsus torpaqların və mülkiyyətin Rusiya Torpaq və Əmlak Nazirliyinin sərəncamına keçirilməsi haqqında çıxarılan qanun kilsənin maliyyələşdirdiyi siyasi partiyaların və onların terrorçu dəstələrinin maddi vəziyyətinə zərbə vurmuşdu. Həmin qanunun icrasının qarşısını almaq məqsədilə erməni siyasi partiyalarının terrorçu dəstələri hakimiyyət mənsublarına qarşı terror aktları həyata

---

38 Величко В. Л. Кавказ, с. 137.

39 Ա–Դո. Հայ-թուրքական ընդհարումը Կովկասում (1905–1906 թթ., Երևան, 1907. [A-Do. Hay-turkakan ındharumı Kovkasum. (1905-1906. (Bundan sonra A-Do. Qafqazda erməni-türk toqquşmaları (1905-1906-cı illər). Sənədli, statistik, topoqrafik izahlarla). İrəvan, 1907].

40 A-Do, göstərilən əsəri, s. 43.

41 Yenə orada, s.143.

keçirməyə başlamışdılar. Eyni zamanda, erməni siyasi partiyaları Cənubi Qafqazda anti-türk, anti-müsəlman kampaniyasını genişləndirirdilər.

1905-ci ildə Rusiyada hakimiyyət əleyhinə üsyanların və iğtişaşların baş verməsi, çarizmə qarşı narazılıq dalğasının güclənməsi Cənubi Qafqazda da güclü əks-səda doğurmuşdu. Bu qarışıqlıqdan ermənilər məharətlə istifadə etmişdilər. Qafqaz Canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst məmurları vasitəsilə silahlandırılan erməni dəstələri 1905-ci ildə Cənubi Qafqazda azərbaycanlıların kompakt yaşadıqları ərazilərə silahlı hücumlar edib etnik təmizləmə həyata keçirməklə, həmin ərazilərdə Türkiyədən qaçıb gələn erməni ailələrini məkunlaşdırmaqla özlərinin say üstünlüyünə nail olmaq, sonra isə yeni yaranan erməni anklavlarını birləşdirməklə, erməni dövlətinin əsasını qoymaq istəyirdilər. "Hnçak" partiyası Türkiyənin Şərqi Anadolu vilayətlərində kök atmaqla yanaşı, XIX əsrin 90-cı illərin ortalarından Cənubi Qafqazda da özəklərini yaratmışdı. Bu partiyanın proqramında maksimum vəzifə kimi, Türkiyə *(Şərqi Anadolu)*, İran *(Cənubi Azərbaycan)* və Rusiyada *(Cənubi Qafqaz)* yaşayan ermənilərin məskun olduqları ərazidə "demokratik respublika" yaradılması nəzərdə tutulurdu[42].

1905-ci il fevralın 6-da Sabunçu qəsəbəsinin sakini Ağarza Babayevin Bakının mərkəzindəki erməni kilsəsinin qarşısında ermənilər tərəfindən öldürülməsi ilə şəhərdə və ətraf qəsəbələrdə ilk qırğınlar başlamışdır.

Ermənilər fevralın 20-də İrəvan şəhərində ilk qırğınlar törətmişdilər.

Həmin dövrdə İrəvan qəzasında mövcud olan 221 kəndin 151-də azərbaycanlılar, 55-də ermənilər, 15 kənddə isə hər iki millətin nümayəndələri qarışıq şəkildə yaşayırdılar[43].

---

[42] Nalbandian Louise. The Armenian Revolutionary Movement The Development of Armenian Political Parties through the Nineteenth Century. University of California Press, 1975, p. 104.

[43] A-Do, göstərilən əsəri, s. 122.

1905-ci ilə olan vəziyyətə görə, İrəvan şəhərində yaşayan 27.533 nəfər əhalinin 12.393 nəfərini azərbaycanlılar, 12.912 nəfərini ermənilər, 1.576 nəfərini ruslar, 32 nəfərini kürdlər, 261 nəfərini yəhudilər, 201 nəfərini gürcülər, 19 nəfərini Qafqaz dağlıları, 139 nəfərini isə Avropa xalqlarının nümayəndələri təşkil edirdi[44].

Həmin ərəfədə Eçmiədzin qəzasının 219 kəndindən 131-də azərbaycanlılar, 88-də ermənilər məskunlaşmışdı[45]

Aleksandropol qəzasında mövcud olan 164 kənddən 120-də ermənilər, qalan 44 kənddə isə azərbaycanlılar və kürdlər yaşayırdılar.

Həmin dövrdə Şərur-Dərələyəz qəzasında 163 kənd mövcud idi ki, onlardan 109-u Dərələyəz, 54-ü isə Şərur nahiyəsində idi. Şərur nahiyəsində cəmisi 6 erməni kəndi və 2 qarışıq kənd, Dərələyəz nahiyəsində isə cəmisi 23 erməni kəndi və 2 qarışıq kənd mövcud idi[46].

Naxçıvan qəzasında mövcud olan 170 kənddən 110-da azərbaycanlılar, 40-da ermənilər, 20 kənddə isə azərbaycanlılarla ermənilər qarışıq şəkildə yaşayırdılar[47].

Zəngəzur qəzasında mövcud olan 406 kənddən 314-də müsəlmanlar, yerdə qalan 92 kənddə ermənilər yaşayırdılar[48].

1905-1906-cı illərdə erməni quldurları təkcə İrəvan şəhərində 5 dəfə qırğınlar törətmişdilər. Ermənilər İrəvan şəhərində ilk dəfə 20-22 fevral 1905-ci ildə qırğınlar törətmişlər. Daha sonra ermənilər İrəvanda 23-26 may tarixində, 18 sentyabr 1905-ci ildə, 27 may və 8-9 iyun 1906-cı il tarixlərində qırğınlar törətmişlər.

Erməni siyasi partiyalarının əsas məqsədi kütləvi qırğınlar törətmək yolu ilə əvvəlcə İrəvan quberniyasına yiyələnmək, sona

---

[44] Кавказский календарь на 1906 год. Тифлис, 1906, с. 328.
[45] A-Do, göstərilən əsəri, s. 130.
[46] Yenə orada, s. 106.
[47] Yenə orada, s. 64.
[48] Yenə orada, s. 244.

isə iki istiqamətdə Naxçıvan-Zəngəzur-Qarabağ və Qazax-Tovuz istiqamətlərində hücum edərək, Araz və Kür çayları arasında qalan azərbaycanlı kəndlərini ələ keçirərək Gəncədə birləşməkdən ibarət idi.

İrəvan qubernatoru qraf V.Tizenhauzenin 1905-ci ilə dair hesabatında quberniya ərazisində baş vermiş iğtişaşlar zamanı təkcə həmin ildə quberniya ərazisində 125 kəndin dağıntılara məruz qaldığı qeyd edilmişdir[49].

Erməni müəllifi Stepan Zavaryanın verdiyi məlumata görə, 1905-1906-cı illərdə Zəngəzur qəzasında 43 müsəlman kəndi dağıdılmışdır[50].

Yalnız 1906-cı ildə azərbaycanlıların təşkilatlanması, özünümüdafiə zərurətindən doğan "Difai" və "Müdafiə" kimi təşkilatların formalaşması, onların erməni siyasi partiyalarının terror taktikalarına eyni üsulla cavab verməbləri erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlara son qoymalarına və müəyyən müddət ictimai-siyasi sabitliyin bərqərar olmasına gətirib çıxarmışdı.

"Daşnaksutyun" partiyasının Cənubi Qafqazda törətdiyi terror və kütləvi qırğınlar uzun müddət cəzasız qalmışdır. Rusiya mətbuatında "Əsrin məhkəməsi" yaxud "Daşnaksutyunun işi" adlanan cinayət işinə nəhayət, 1912-ci il yanvarın 17-də Peterburq məhkəməsində baxılmışdır. Məhkəmədə partiyanın 159 üzvünə ittiham irəli sürülmüş, 350 şahid dindirilmişdir[51]. 72 gün davam edən məhkəmə prosesindən sonra "Daşnaksutyun"un üzvlərinə hökm oxundu. 21 nəfərə 4-6 il müddətində iş kəsilmiş, 4 nəfər katorqa işlərinə cəlb edilmiş, 26 nəfər sürgün edilmiş, 95 nəfərə

---

[49] Российский Государственный Исторический Архив. ф. 396, оп. 5, д. 116, л. 3.
[50] Заварян С. Экономические условия Карабаха и голод 1906-1907 г.. Перевод с армянского. С.Петербург, 1907, с. 61.
[51] [51] Российский Государственный Исторический Архив/ ф. 396, оп. 5, д. 116, л. 17.

bəraət verilmişdi[52]. Məşhur erməni yazıçıları Hovanes Tumanyan və Avetik İsahakyan da bəraət alanlar içərisində idilər.

Ümumiyyətlə, ermənilər 1905-1906-cı illərdə Cənubi Qafqazın 15 qəzasında (İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Eçmiədzin, Aleksandropol, Novo-Bəyazid, Sürməli, Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur, Gəncə, Qazax, Ərəş, Borçalı) və 8 şəhərində (Bakı, İrəvan, Naxçıvan, Gümrü, Şuşa, Gəncə, Qazax, Tiflis) kütləvi qırğınlar törətmişlər. 1905-1906-cı illər qırğınları zamanı Cənubi Qafqazda 286 kənd viran edilmişdi[53]. Hesablamalarımıza görə, dağıdılan kənd və şəhərlərin təqribən 200-ü azərbaycanlı yaşayış məntəqələrinin payına düşür. Həmin illərdə ermənilərin yeni ərazilər əldə etmək niyyətlərini silahlı müdaxilə yolu ilə həyata keçirmələri nəticəsində Cənubi Qafqazın qəzalarında 1,3 milyon nəfər bir-birinə düşmən kəsilərək iki cəbhəyə bölünmüşdü. 15 mindən artıq ailə (təqribən 100 min nəfər) ev-eşiyindən didərgin düşmüşdür. İnsan tələfatı 10 min nəfərə yaxın olmuşdur. Dağıntılara məruz qoyulan azərbaycanlı yaşayış məntəqələrinin bir qismi həmin vaxtdan etibarən xarabalığa çevrilmişdir.

1905-1906-cı illərdə "Daşnaksutyun" və "Hnçak" partiyalarının silahlı dəstələri Cənubi Qafqazda ermənilərlə müsəlmanların yaşadıqları ərazilərin qismən bir-birindən ayrılmasına və nəticədə erməni anklavlarının yaranmasına nail oldular. Türkiyədən və qismən də İrandan köçüb gələn ermənilərin məskunlaşdırılması üçün torpaqlar boşaldıldı. Yelizavetpol və İrəvan quberniyalarından minlərlə müsəlman ailələri qırğınlardan qaçaraq canlarını qurtardılar. Bununla da erməni siyasi təşkilatları tarixi Azərbaycan torpaqlarında gələcək erməni dövlətinin yaranması üçün bir növ zəmin hazırladılar.

---

[52] Yenə orada, л. 44

[53] Swietochowski Tadeusz. Russia and Azerbaijan: A Borderland in Transition. Columbia University Press, 1995, p. 42.

Ermənilərin 1905-1906-cı illərdə törətdikləri kütləvi qırğınlar planlı şəkildə, azərbaycanlıların milli və dini mənsubiyyətlərinə görə, etnik təmizləmə məqsədilə həyata keçirildiyi üçün soyqırımı mahiyyəti daşıyır. Lakin 1905-1906-cı illərdə müstəqil erməni dövləti olmadığı üçün ermənilərin törətdikləri həmin qanlı hadisələr "soyqırımı" kimi deyil, "kütləvi qırğınlar" kimi tövsif olunur.

Ermənilərin 1905-1906-cı illərdə törətdikləri kütləvi qırğınlar XX əsrdə soydaşlarımızın məruz qoyulduqları soyqırımı və deportasiyalar silsiləsinin ilk mərhələsi və ən qanlı səhifəsidir.

## 1918-1920-ci illər soyqırımı

1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar müstəqil Ermənistan dövlətinin yeritdiyi işğalçılıq və etnik təmizləmə siyasətinin nəticəsi idi.

Hələ 1917-ci ilin mayında erməni burjuaziyasının liderləri milli hərbi hissələrin yaradılmasına başlamışdılar. Bu məqsədlə Petroqrada xüsusi nü-mayəndələr göndərilmişdi ki, erməni əsgərlərinin digər cəbhələrdən geri çağırılıb, Qafqaz cəbhəsinə göndərilməsi üçün Müvəqqəti Hökumətdən razılıq alsınlar. 6 ay ərzində Qafqaza 35 min erməni əsgəri gəlmişdi və onlara çoxlu könüllülər də qoşulmuşdu. Onların əsasında Qafqaz diviziyasının sabiq komandanı Tovmas Nazarbekyanın komandanlığında erməni korpusu formalaşdırılmışdı.

1917-ci ilin noyabrında Rusiyada hakimiyyət çevrilişi nəticəsində rus qoşunlarının silah-sursatı erməni komandirlərinə təhvil verərək Şərqi Anadoludan geri çəkilməsindən sonra ermənilər türk-müsəlman əhaliyə qarşı törətdikləri qırğınların miqyasını daha da genişləndirmişdilər. 1918-ci ilin fevralından etibarən türk qoşunları əks hücuma keçərək erməni qoşunlarını Şərqi Anadoludan təmizləmişdi.

Ermənilərin "Qərbi Ermənistan" adlandırdıqları Şərqi Anadolu ərazilərindən həmin dövrdə 260 minə yaxın erməni qaçqınları Cənubi Qafqaza gəlmiş, əsasən İrəvan quberniyasında özlərinə sığınacaq tapmışdı[54].

Hələ 1917-ci ilin noyabrında Erməni Milli Şurası Qafqaz cəbhəsi komandanlığından erməni korpusunun yaradılmasına xüsusi icazə almışdı. Dekabrın 18-də Aram Manukyan və Dro (Drastamat Kanayan) Tiflisdən İrəvana gəlmişdilər. Aram Manukyan İrəvan Erməni Milli Şurasının sədri seçilmişdi. Dro isə hərbi komissar vəzifəsini tuturdu. İrəvan quberniyasının komissarı S. Torosyan, quberniyasındakı erməni qoşunlarının

---

[54] История армянского народа, Ереван. 1980, с. 285.

komandanı Silikov idi. Aram Manukyanın sədrliyi ilə İrəvanda tərkibi yalnız ermənilərdən ibarət olan Xüsusi Komitə yaradılmışdı. Xüsusi Komitə 28 yaşınadək ermənilər arasında səfərbərlik həyata keçirmiş, yerlərdə silahlı dəstələr yaradılmışdı[55].

İrəvan quberniyasında baş verən erməni vəhşiliklərinin qarşısını almaq məqsədilə İrəvan Müsəlman Milli Şurası ciddi fəaliyyət göstərirdi. Milli Şuranın sədri Əli xan Makinski, katibi isə Cabbar Məmmədzadə idi.

Vəziyyətin gündən-günə gərginləşdiyini nəzərə alan Zaqafaqaziya (Cınubi Qafqaz) Komissarlığının göstərişi ilə 1918-ci il yanvarın 4-də Tiflisdə Erməni və Müsəlman milli şuralarını birgə müşavirəsi keçirilmiş, hər ki tərəfdən 4 nəfər olmaqla daimi fəaliyyətdə olan büro yaradılmışdı. Yanvarın 14-də İrəvan şəhəri erməni və müsəlman milli şuralarının təmsılçilərinin birgə iclası keçirilmiş, sabitliyin bərqərar edilməsi üçün bütün əyalətlərə teleqramlar göndərilmiş, həmçinin tezliklə millətlərarası qurultayın çağırılması qərara alınmışdı[56].

5-8 fevral 1918-ci il tarixində İrəvan şəhər Dumasının binasında erməni-müsəlman qurultayı keçirilmişdi. Qurultaya rusların və kürdlərin təmsilçiləri də dəvət edilmişdilər. Ümumiyyətlə, qurultayın 7 iclası keçirilmişdi. Qurultayın sonunda Millətlərarası Şura yaradılmışdı.

Fevralın 12-də Cənubi Qafqaz Komissarlığından Məmmədyusif Cəfərov, Xaçatur Karçikyan və Şalva Alekseyev-Mesxievin iştirakı ilə nümayəndə heyəti İrəvana gəlmiş, Millətlərarası Şuranın bir neçə iclaslarında iştirak etmişdilər. Müsəlman təmsilçilər ərzaqla təminat məsələsində ciddi

---

55 Վրացյան Ս. Հայաստանի Հանրապետություն, Բեյրութ, Մշակ, 1958, s. 121. [Vrasyan S. Ermənistan Respublikası, Beyrut, 1958, ermənicə].

56 Зограбян Э. Шарур-Нахичеван в 1918-1919 гг. Ереван, 2012, с 34.

problemlər yaradıldığını bildirmişlər. İrəvan quberniyasının ərzaq komitəsinin sədri Zülfüqar xan Makinskiyə bu problemin aradan qaldırılması üçün müəyyən səlahiyyətlər verilmişdi.

İrəvanda ermənilər arasında səfərbərlik həyata keçirildikdən sonra İrəvan müsəlmanlarının nümayəndəsi Xəlil bəy Qasımbəyov quberniya komissarına müraciət edərək bildirmişdi ki, ətraf kəndlərdən çoxlu müsəlmanlar gələrək onlara da silah verilməsini tələb edirlər, lakin onların bu tələbi yerinə yetirilməmişdi. Fevralın 20-də günorta İrəvan şəhərində başlayan atışma çoxsaylı ölüm və yaralanma ilə nəticələnərək axşam saat 7-dək davam etmişdi[57].

1918-ci ilin mart ayınadək erməni silahlı dəstələri təkcə İrəvan quberniyasının İrəvan qəzasında 32, Eçimədzin qəzasında 84, Novo-Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 kəndi – üst-üstə 198 kəndi darmadağın etmiş, həmin qəzalarda təqribən 135 min nəfər azərbaycanlını soyqırımına məruz qoymuşdu[58].

İrəvan quberniyasından olan qaçqınların problemi ilə məşğul olmaq üçün hələ 1918-ci ilin martında Zaqafqaziya Seymi nəzdindəki Müsəlman fraksiyasının qaçqınlar şöbəsi yaradılmışdı. Müsəlman fraksiyası Seym hökuməti qarşısında məsələ qaldırmış, nəticədə İrəvan quberniyasında müsəlmanlara qarşı törədilən qırğınlara son qoyulması məqsədilə nümayəndə heyəti göndərilmiş, araşdırmaların nəticələri Seymin iclasında müzakirə edilmiş, qaçqınların vəziyyətinin müəyyən dərəcədə yüngülləşməsinə nail olunmuşdusa da, qırğınları dayandırmaq mümkün olmamışdı.

1918-ci il aprelin 22-də mərkəzi Tiflis şəhəri olmaqla Cənubi Qafqazın müstəqilliyi elan edildi. Mayın 11-də Osmanlı dövləti ilə Cənubi Qafqaz Federasiyası arasında sərhədlərin

---

[57]Yenə orada, c. 45-46.

[58] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), fond 894, siyahı 10, iş 80, vərəq 49-56.

müəyyənləşdirilməsi məqsədilə Batum konfransı öz işinə başladı. Konfransın gedişində Cənubi Qafqaz Federasiyasının özünü doğrultmadığı və Seymdə təmsil olunan xalqların hər birinin öz aralarında və Osmanlı dövləti ilə danışıqlar aparması zərurəti meydana çıxmışdı. Sonralar Ermənistan Respublikasının baş naziri olmuş Aleksandr Xatisyan yazırdı ki, mayın 20-də Azərbaycan Milli Şurası ilə Erməni Milli Şurası arasında aparılan danışıqlarda Azərbaycan nümayəndə heyətinin üzvləri Usubbəyov və Xoyski israr edirdilər ki, Ermənistan respublikası yarandığı təqdirdə, onun paytaxtı Vağarşabad (Üçkilsə) olmalıdır. Onlar hesab edirdilər ki, İrəvan müsəlmanların şəhəridir və onun ermənilərə güzəştə gedilməsini irəvanlılar onlara bağışlamazlar[59].

1918-ci il mayın 26-da Cənubi Qafqaz Seymi özünü buraxdı və Gürcüstan müstəqilliyini elan etdi. Mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildi. Mayın 29-da Müsəlman Milli Şurasının iclasında İrəvanın siyasi mərkəz kimi ermənilərə güzəşt edilməsi haqqında qərar qəbul edildi. Qərar iclasda iştirak edən Milli Şuranın 20 üzvündən 16-nın razılığı, üç nəfərin bitərəf qalması və bir nəfərin etiraz səsi ilə qəbul edildi[60].

Xatisyan "Ermənistan Respublikasının meydana gəlməsi və inkişafı" əsərində yazır ki, Azərbaycanın da müstəqilliyini elan etməsi erməniləri çıxılmaz vəziyyətə salıb. Erməni Milli Şurası qərara alır ki, mayın 29-da saat 10-a kimi müstəqilliyin elan edilməsi barədə yekun qərar hazırlasın. Gecə saat 12-də Erməni milli Şurası aşağıdakı məzmunda "Elan" hazırlayır: "Cənubi Qafqazın tamamilə siyasi süqutu, Gürcüstanın və Azərbaycanın öz müstəqilliklərini elan etmələrindən sonra yeni

---

[59] Խատիսյան Ա. Հայաստանի Հանրապետութեան ծագումն ու զարգացումը, Երևան, 1968, s. 75. [Xatisyan A. Ermənistan Respublikasının yaranması və inkişafı, İrəvan, 1968, ermənicə].

[60] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. Bakı, 2006, s. 82.

vəziyyətin yaranması ilə əlaqədar Erməni Milli Şurası özünü erməni qəzalarının ali və yeganə hakimiyyəti elan edir. Bir sıra ciddi məqamların Erməni Milli Şurası hökumətini formalaşdırmağa mane olması ilə əlaqədar yaxın günlədə Erməni Milli Şurası erməni qəzalarının bütün inzibati və dövlət funksiyalarını müvəqqəti olaraq öz üzərinə götürəcəkdir”[61].

Həmin elan mayın 30-da Tiflisdə ermənicə dərc edilən qəzetlərdə çap edilir. “Elan”dan Göründüyü kimi, mətndə Ermənistanın müstəqilliyinin elan edilməsindən deyil, yalnız erməni əhalisinin çoxluq təşkil etdiyi qəzaların inzibati və dövlət idarəçiliyinin Erməni Milli Şurası tərəfindən həyata keçiriləcəyindən söhbət gedirdi. Mayın 28-də isə Xatisovun başçılığı altında erməni nümayəndə heyəti Osmanlı dövləti ilə danışıqlar aparmaq üçün Batuma yola düşmüşdür. Daşnak Ermənistanının sonuncu baş naziri olmuş Simon Vrasyan yazır ki, faktiki olaraq Ermənistanın müstəqilliyi mayın 30-da elan edilmişdir[62]. Yalnız 1918-ci il iyunun 13-də baş nazir A.Kaçaznuni Ermənistanın müstəqilliyinin elan edildiyi barədə dünya dövlətlərinə müraciət etmişdi.

Azərbaycan Milli Şurasının iyunun 1-də keçirilən iclasında Şuranın İrəvandan olan üzvləri Mir Hidayət Seyidov, Bağır Rzayev və Nəriman bəy Nərimanbəyov İrəvanın Ermənistana güzəşt edilməsi haqqında qərara yazılı şəkildə etirazlarını bildirsələr də nəticəsi olmamışdı[63].

İyunun 4-də Batumda Türkiyə ilə Ermənistan arasında imzalanan sülh və dostluq haqqında müqaviləyə əsasən Ermənistan Respublikasının ərazisi təqribən 10 min kv.km, əhalisi isə 321 min nəfər (o cümlədən, 230 min erməni, 80 min müsəlman, 5 min yezdi kürd, 6 min digər millətlər) təşkil edirdi. Bu respublikanın ərazisinə Novo-Bəyazid qəzası, İrəvan

---

[61] Xatisyan A. göstərilən əsəri, s. 84.
[62] Vrasyan S. göstərilən əsəri, s 154.
[63] Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. s.83.

qəzasının beşdə üçü, Eçmiədzin qəzasının dörddə biri, Aleksandropol qəzasının dörddə biri daxil idi[64].

Azərbaycan Milli Şurasının iyunun 13-də keçirilən iclasında ermənilərin müsəlmanlara qarşı törətdikləri qırğınlar barədə İrəvandan gələn xəbərlər müzakirə edilir. İclasda İrəvan quberniyası ərazisində ev-eşiyindən didərgin salınan və ac-yalavac dolanan qaçqınların sayının 150 min nəfərə çatdığı, ermənilərin 206 kəndi dağıtdığı bildirilir. Milli Şura İrəvan quberniyasındakı qaçqınlara maddi yardım göstərilməsi üçün nümayəndə göndərməyi qərara alır. Həmçinin İrəvan quberniyası ərazisində mövcud olan türk qoşunlarının komandanlığından xahiş edilmişdi ki, qaçqınlara ərzaq yardımı etsin və onların öz yer-yurdlarına qayıtmaları üçün Ermənistan hökumətinə təsir göstərsin[65].

1918-ci il oktyabrın 30-da imzalanan Mudros sazişinə əsasən türk qoşunlarının Cənubi Qafqazdan geri çəkilməsindən sonra ermənilərin İrəvan quberniyası ərazisində azərbaycanlılara qarşı kütləvi qarət-qırğınlarının ikinci mərhələsi başlanmışdır. Azərbaycan hökuməti dekabrın sonlarında Məhəmməd xan Təkinskini Ermənistanda diplomatik nümayəndə təyin etmişdi.

İrəvan quberniyası müsəlmanlarının nümayəndələri adından 1919-cu ilin yanvar ayında Mir Hidayət Seyidovun Azərbaycan hökumətinin başçısına ünvanlanmış müraciətində qeyd edilirdi ki, Ermənistan hökuməti erməni qaçqınlarını silah gücünə qovulmuş müsəlmanların məskun olduqları ərazilərdə məskunlaşdırır. Məqsəd ondan ibarətdir ki, mümkün olan qədər müsəlmanları məhv edərək bütün qəzalardan onları təmiz-

---

64 Киракосян Дж. Младотурки перед судом истории, Ереван, 1986, с. 239.

65 Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. s. 86.

ləsinlər ki, Paris konfransında həmin ərazilərin ermənilərə məxsusluğunu sübut edə bilsinlər[66].

Müttəfiqlərin Cənubi Qafqazdakı qoşunlarının komandanı general A.Tomsonun ermənipərəst mövqeyi erməniləri yeni-yeni əraziləri ələ keçirməyə iştahlandırırdı. 1919-cu il mayın 28-də Ermənistan Parlamenti Türkiyənin 6 vilayətinin Ermənistana ilhaq edilməklə, "Birləşmiş Ermənistan" dövlətinin qurulması haqqında akt qəbul etmişdir. "Birləşmiş Ermənistan"a həmçinin Ermənistan hökumətinin Azərbaycana və Gürcüstana qarşı iddia etdiyi ərazilər də daxil edilmişdi.

Azərbaycan hökuməti İrəvan quberniyası ərazi-sində azərbaycanlılara qarşı qırğınların dayandırılması üçün intensiv surətdə Ermənistanın müvafiq qurumları ilə əlaqə saxlayırdı. Ermənistan hökuməti isə diplomatik yazışmalarla baş qataraq işğalçılıq siyasətini davam etdirirdi.

Azərbaycan Parlamenti 17 iyul 1919-cu il tarixli iclasında Zəngəzur qəzasından və İrəvan quber-niyasından olan qaçqınların vəziyyəti ilə bağlı məsələ müzakirə etmişdir. Bağır bəy Rzayev bir il əvvəl İrəvanda 22 min müsəlman yaşadığını və onların çoxunun şəhəri tərk etdiklərini, son vaxtlar isə tək-tək qayıdanların evlərini və əşyalarını dağıdılmış gördüklərini bildirir[67].

Xatisyanın Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinski barəsində Azərbaycan hökumətinə göndərdiyi etiraz məktublarında onun Ermənistanın daxili işlərinə müdaxilə etdiyi bildirilir və geri çağırılması xahiş olunurdu. Azərbaycan hökuməti Təkinskinin gördüyü işləri yüksək qiymətləndirir və onun fəaliyyətini davam etdirməsini istəyirdi. Təkinski Ermənistan hökumətinin daxili işlərinə

---

66 История Азербайджана по документам и публикациям. Баку, 1990, с. 291.

67 Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. I cild, Bakı, 1998, s. 855-559.

müdaxilə bəhanəsilə Ermənistan hökuməti tərəfindən “persona non grata” elan edilmişdi[68].

Təkinskidən sonra görkəmli Azərbaycan yazıçısı və siyasi xadimi Əbdürrəhim bəy Haqverdiyev 1919-cu il avqustun 24-də Azərbaycan Respublikasının Ermənistanda diplomatik nümayəndəsi təyin edilmişdi. Ə.Haqverdiyev İrəvan quberniyasında və Qars vilayətində türk-müsəlman əhaliyə qarşı ermənilər tərəfindən törədilən soyqırımı faktlarının Birləşmiş Dövlətlərin Ali Komissarlığına, xarici ölkələrin Qafqazdakı nümayəndəliklərinə çatdırılmasında, qaçqınların vəziyyətinin yüngülləşdirilməsində xeyli iş görmüşdür.

Himayədarlıq Nazirliyinin Ermənistandakı müvəkkili Teymur xan Makinskinin 11 noyabr 1919-cu ildə nazirliyə göndərdiyi məruzəsində 1918-ci ilin fevralından davam edən qırğınlar nəticəsində yarım milyon əhalinin dilənçi vəziyyətinə düşdüyünü, ölənlərin sayının 100-120 min nəfər olduğunu, 50 min nəfərin Azərbaycana qaçqın kimi gəldiyini, təqribən bir o qədərinin də İrəvanda, Zəngibasar rayonunda, Sürməli qəzasının iki məntəqəsində və Eçmiədzin qəzasında yaşadıqlarını, qalan qaçqınların Naxçıvan qəzasına, Şərur məntəqəsinə, Sürməli qəzasının 3-cü sahəsinə və Qars vilayətinin Qağızman dairəsinə sığındıqlarını, bəzilərinin isə Maku xanlığına və Türkiyə ərazisinə köçdüklərini yazırdı. Makinski İrəvan şəhərində aclıq keçirən əhalinin sayının 8 min nəfər olduğunu qeyd edirdi.

---

68 Վիրաբյան Վ. Հայաստանի Հանրապետության պետական անվտանգության համակարգի ստեղծումը և գործունեությունը 1918-1920 թթ. [Հետախուզություն, բանակ, ՆԳՆ), Երևան, ԵՊՀ հրատար, 2015, s. 167.[ Virabyan V. 1918-1920-ci illərdə Ermənistan Respublikasının dövlət təhlükəsizliyi sisteminin yaradılması və fəaliyyəti. (Kəş-fiyyat, ordu, DİN), İrəvan, 2015, ermənicə].

Azərbaycan Parlamentinin 5 yanvar 1920-ci ildə keçirilən iclasında qaçqınların məsələsi yenidən müzakirə edilmiş, Ermənistandan 300 min qaçqının gəldiyi qeyd olunmuşdur[69].

1920-ci il martın 8-də Bakıdan İrəvana gedərkən erməni quldurları Əbdürrəhim bəy Haqverdiyevi qarət etmişdilər. Erməni kəşfiyyatı əvvəlcədən xəbər tutmuşdu ki, Haqverdiyev İrəvandakı diplomatik missiya üçün hökumətin ayırdığı vəsaiti qatarla Bakıdan İrəvana aparacaq. Erməni quldurları Gürcüstanla Ermənistan arasındakı neytral zonada qatarı saxladaraq Haqverdiyevi silahla hədələmiş, diplomatik missiya üçün apardığı 2 milyon Cənubi Qafqaz bonunu və 3,4 milyon Azərbaycan bonunu, 40 min manatlıq şəxsi vəsaitini əlindən alıb aparmışdılar[70]. Bu hadisədən bir müddət sonra Ə.Haqverdiyev daimi nümayəndə vəzifəsindən istefa verərək Bakıya qayıtmışdı.

1920-ci il martın 16-da Teymur xan Makinski İrəvanda diplomatik nümayəndə təyin edilmişdi. Onun aqibəti də sələflərinin aqibəti kimi olmuşdu. Həmin ilin mayında Ermənistan Daxili İşlər Nazirliyi tərəfindən Zəngibasarda azərbaycanlı əhalinin silahlı üsyanına yardım göstərilməsi ittihamı ilə T.Makinski başda olmaqla, diplomatik nümayəndəliyin əməkdaşlarına qarşı cinayət işi açılmışdı. T.Makinski təcili Tiflisə gedərək həbsdən canını qurtara bilsə də, digər əməkdaşlar tutulmuşdular. Azərbaycan hökuməti bunun qarşılığında Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəliyinin əməkdaşlarını həbs etmiş, bundan sonra İrəvanda nəzarətdə olan azərbaycanlı əməkdaşlar azad edilmişdilər.

1920-ci ilin aprelində Azərbaycanda bolşeviklərin hakimiyyəti ələ almasından sonra yaranmış fürsətdən istifadə edən daşnak hökumətinin azərbaycanlılara qarşı törətdikləri

---

[69] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. II cild, Bakı, 1998, s. 695.
[70] ARDA, f. 897. siy 1, iş. 91, v. 24-25.

qırğınlar yeni mərhələyə qədəm qoyaraq daha kütləvi və kəskin xarakter almışdı. Ermənistan ordusu iyunun 11-12-də isə Vedibasarı, 19-21-də Zəngibasarı ələ keçirə bilmişdi. Bu rayonların əhalisinin bir qismi İrana, bir qismi də Türkiyəyə sığınmışdı.

Tarixçi A.Lalayan daşnakların hakimiyyəti dövründə İrəvan quberniyasında türk-müsəlman əhaliyə qarşı törədilən soy-qırımının miqyası, daşnak hökumətinin yeritdiyi silah gücünə etnik təmizləmə siyasətinin əks olunduğu "Daşnak-sutyun partiyasının əksinqilabi rolu" məqaləsində yazır ki, "Daşnaksutyun" partiyasının Ermənistanı "erməniləşdirmə" siyasəti azərbaycanlı və kürd əhalisini məhvetmə, yerdə qalan milli azlıqları təqibetmə və ölkədə milli ədavəti qızışdırmaq yolu ilə həyata keçirilmişdir. Məqalə müəllifi daşnakların hakimiyyətdə olduqları 2,5 il ərzində Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı müharibə apardıqlarını, heç bir fərq qoymadan dinc əhalini öldürüməklə və talan etməklə, azərbaycanlı kəndlərini məhv etməklə məşğul olduqlarını yazır[71].

Ümumiyyətlə, 1905-1920-ci illərdə təkcə indiki Ermənistan ərazisində 500-dən artıq azərbaycanlı kəndi dağıdılmış, onların əksəriyyəti erməni yaşayış mən-təqəsinə çevrilmişdi. 1918-1920-ci illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 130 kənd erməni silahlı dəstələri tərəfindən dağıdıldıqdan sonra həmişəlik olaraq xaraba qalmışdır[72]. 1916-cı ildə İrəvan quberniyasında 373.582 nəfər azərbaycanlının yaşadığı təsbit edildiyi halda, 1920-ci ilin noyabrında Sovet Ermənistanında cəmisi 10 min nəfər

---

[71] Бадалян А. Население Армении со времени присоединения ее к России и до наших дней. *Известия Академии Наук Армянской ССР, Общественные науки.* № 5, 1953, с. 100.
[72] Mustafa Nazim. İrəvan quberniyasında azərbaycanlıların soyqırımı (1918-1920), Bakı, 2017, s. 128-134.

azərbaycanlı qeydə alınmışdı[73]. Faktiki olaraq indiki Ermənistan ərazisində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilmişdi. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlıların az bir qismi öz evlərinə qayıda bilmişdi.

---

[73] Կորկոտյան Զ. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931). Երևան, 1932, s. 184. [Korkodyan Z. Sovet Ermənistanının əhalisi son yüz ildə. (1831-1931), İrəvan, 1932, ermənicə].

## Qərbi Zəngəzurun və digər ərazilərin Sovet Ermənistanına verilməsi

Yuxarıda qeyd etdiyimiz kimi, 1918-ci ildə İrəvan quberniyasının ərazisinin bir hissəsində Ermənistan (Ararat) Respublikası qurulanda onun ərazisi təqribən 10 min kv. km-ə bərabər idi[74]. Həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin mübahisəsiz ərazisi 97.297,67 kv.km olmuşdur[75]. Birinci Dünya müharibəsinin sonunda imzalanan Mudros sazişinə (30.10.1918) əsasən türk qoşunlarının Cənubi Qafqazı tərk etməsi yenidən Andranikin əl-qolunu açmışdı. Noyabrın birinci yarısında Andranik özünü Zəngəzurdakı bütün silahlı dəstələrin baş komandanı elan etmişdi.

Andranikin Zəngəzurda törətdiyi qırğınların qarşısını almaq üçün Azərbaycan hökuməti həmin bölgədə səfərbərlik həyata keçirmişdi. 1919-cu ilin yanvar ayında Azərbaycan hökuməti Xosrov bəy Sultanovun başçılığı ilə Qarabağ və Zəngəzur ərazisini əhatə edən müvəqqəti general-qubernatorluq yaratmışdı.

Azərbaycan hökumətinin Andranikin Zəngəzurdan uzaqlaşdırılması barədə təkidli çağırışlarının nəticəsi olaraq Cənubi Qafqazdakı ingilis qoşunlarının komandanı general Vilyam Tomson 1919-cu il fevralın 24-də bildirmişdi ki, mayor Monk Mezon Andranikin dəstəsinin Şuşadan keçib Ermənistana getməsini təşkil edəcək.

2 aprel 1919-cu ildə Gorusda "Sisyan və Zəngəzurun qurultayı" adı altında ermənilərin toplantısı keçirilmişdi. Toplantıda qəbul edilən qərara əsasən Ermənistan hökumətinin Zəngəzura təyin etdiyi komissar Arsen Şahmazyana göndərilmişdi. Bundan sonra Andranik öz dəstəsi ilə birlikdə Gorus-

---

[74] История армянского народа: Ереван. 1980, с. 283.

[75] Адрес-календарь Азербайджанской Республики на 1920 г. Bakı. 1920, 1-ci hissə, s. 50.

Sisyan-Dərələyəz-Vedibasar yolu ilə Üçkilsəyə (Eçməzdinə) gəlmiş və tərksilah olunaraq oradan Tiflisə yollanmışdı[76].

Andranikin dəstəsi Zəngəzurdan çəkildikdən sonra əvvəlcə Dronun (Drastamat Kanayan), daha sonra isə Njdehın (Qaregin Ter-Harutyunyan) qoşunu qırğınları davam etdirmişdi.

5 iyul 1919-cu ildə ABŞ-dan olan polkovnik V.Haskel Müttəfiq dövlətlər adından Ermənistana ali komissar təyin edilmişdi. V.Haskelin qərargahı İrəvanda yerləşsə də o, harada yaşamalarından (Türkiyə, Azərbaycan, Gürcüstan) asılı olmayaraq erməniləri qorumaq vəzifəsini daşıdığını bildirmişdi. Ermənilər V.Haskelin mövqeyindən istifadə edərək yenidən qonşu dövlətlərə qarşı əsassız ərazi iddiaları ilə çıxış etməyə başlamışdılar. Avqustun ortalarında Ermənistan parlamentində çıxış edən V.Haskel ermənilərin ərazi iddialarını müdafiə edəcəyini bildirmişdi.

28 avqust 1919-cu ildə polkovnik V.Haskel Bakıda baş nazir Nəsib bəy Yusifbəyov və xarici işlər naziri Məmməd Yusif Cəfərovla görüşmüşdü. V.Haskel Qarabağ və Zəngəzuru Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab etdiyini bildirmişdi. O, həmçinin Naxçıvan və Şərur-Dərələyəzdə Amerikanın idarəçiliyində neytral zona yaradılacağını bəyan etmişdi.

1919-cu il oktyabrın əvvəllərində evləri yandırılan, özləri qaçqın düşən Zəngəzurun türk-müsəlman əhalisinin sayı 60 min nəfərə çatmışdı[77].

Ermənistan dövlətinin ərazisini silah gücünə genişləndirmək planını mərhələ-mərhələ həyata keçirən hakim "Daşnaksutyun" partiyası 1919-cu il dekabrın 7-də keçirilən yığıncağında Zəngəzuru Ermənistanın ayrılmaz tərkib hissəsi hesab etdiyini bəyan etmiş və ermənilərin nəzarət etdiyi

---

[76] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), fond 276, siyahı 9, iş 1, v. 10.
[77] ARRİİSSA, f. 277, siy.2, iş 40, v. 79.

ərazilərin əldə saxlanması üçün bütün tədbirlərə əl atmağa hazır olduğu barədə qətnamə qəbul etmişdi[78].

1920-ci il yanvarın 6-da Azərbaycan Dövlət Müdafiə Komitəsi qərara alır ki, Ali Komissar V.Haskel qarşısında məsələ qaldırılsın ki, Zəngəzurda ermənilərin dinc müsəlman əhalini məhv etməsinə qarşı tədbirlər görsün və son hadisələri araşdırmaq üçün xüsusi komissiya yaratsın[79]. Lakin heç bir tədbir görülməmişdi.

1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hakimiyyəti qurulduğu zaman Zəngəzur qəzasının ərazisinin xeyli hissəsi erməni silahlı dəstələrinin nəzarəti altında idi. Rusiyadan Azərbaycana daxil olan bolşevik ordusunun hissələri Bakını işğal etdikdən sonra Qarabağa və Zəngəzura doğru istiqamət götürmüşdü. Bolşevik qoşunlarının bu istiqamətdə hərəkəti daşnak Ermənistanını ciddi narahat edirdi.

Aprelin 30-da Azərbaycan sovet hökuməti Ermənistanın daşnak hökumətinə nota verərək ondan Qarabağ və Zəngəzur ərazilərini erməni silahlı dəstələrindən təmizləməyi, Ermənistan qoşunlarının öz sərhədlərinə çəkilməsini təmin etməyi, millətlərarası qırğını dayandırmağı tələb etmişdi.

Mayın 1-də Rusiyanın Gürcüstandakı səlahiyyətli nümayəndəsi Sergey Kirovun, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun rəhbəri Sergey Orconogidzenin və 11-ci Qırmızı ordunun komandanı Mixail Levandovskinin imzası ilə Ermənistan hökumətinə göndərilən teleqramda tələb edilmişdi ki, Ermənistan hökuməti 24 saat ərzində öz qoşunlarını Azərbaycandan çıxarsın[80].

Ermənistan hökuməti həmin dövrdə Rusiyanın xalq xarici işlər komissarı Georgi Çiçerinin Türkiyəyə və Azərbaycana qarşı qərəzli mövqeyindən xəbərdar idi. Bu mövqeyin

---

[78] ARPİİSSA, f. 276, siy. 9, iş 1, v. 50-51.
[79] ARDA, f. 897, siy.1, iş 112, v. 48.
[80] ARPİİSSA, f. 276, siy. 9, iş 28,v. 53.

formalaşmasında G.Çiçerinin milliyyətcə erməni olan müavini Qaraxan (Lev Mixailoviç Qaraxanyan) mühüm rol oynayırdı.

Azərbaycan İnqilab Komitəsinin 18 may 1920-ci il tarixli dekreti ilə Qarabağ və Zəngəzur qəzalarında fövqəladə komissar vəzifəsi təsis edilmişdi. Sonradan Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Siyasi Bürosunun 1920-ci il 26 avqust tarixli qərarı ilə isə Əliheydər Şirvani (Mustafabəyov) fövqəladə komissar, erməni Armenak Qaragözov isə onun müavini təyin edilmişdi.

Hadisələrin inkişafı göstərdi ki, G.Çiçerin Azərbaycan rəhbərliyinin mövqeyi ilə razılaşmamışdır. G.Çiçerin iddia edirdi ki, N.Nərimanov Rusiyanın silahlı qüvvələrinin Qarabağı, Zəngəzuru və Naxçıvanı tutub Azərbaycana hədiyyə etməsini istəyir və buna əsla yol vermək olmaz[81].

1920-ci il iyulun 14-də S.Orconogidze B.Leqranla birlikdə Bakıdan G.Çiçerinə aşağıdakı məzmunda teleqram göndərmişdilər: "Məsələni Azərbaycanı qismən təmin edə biləcək belə bir qaydada həll etməyi zəruri sayırıq: Qarabağ tamamilə və danışıqsız Azərbaycana birləşdirilir. Zəngəzur mübahisəli ərazi hesab olunur. Qalan vilayətlər Ermənistanda qalır"[82].

İyulun 17-də Qırmızı ordu korpusunun komandiri Aleksandr Todorski bütün Zəngəzurun daşnak zülmündən azad edilməsi və orada Sovet hakimiyyətinin qurulması haqqında N.Nərimanova teleqram göndərmişdi[83].

Avqustun 3-də Dronun dəstəsi bolşevik qoşunlarının 32-ci diviziyasına hücum edərək Gorusu ələ keçirmişdi. Avqustun 5-7-də 11-ci ordunun hissələri ciddi hazırlıqdan sonra Dro və Njdehin hərbi qüvvələrini qovaraq Sisyan və Qafanı, avqustun 9-da isə Gorusu azad etmişdilər. Dronun dəstələrinin qalıqları

---

[81] Köçərli Tofiq. Qarabağ. Bakı, 2002, s. 360.
[82] Yenə orada, s. 355-356.
[83] Yenə orada, s. 367.

yenidən Dərələyəzə çəkilmişdi. Njdehin qoşunu isə Meğri rayonu ərazisində özünə mövqe tutmuşdu[84].

Avqustun 10-da İrəvanda sovet Rusiyası ilə daşnak Ermənistanı arasında sülh sazişi imzalanır. Sazişin 3-cü bəndində qeyd edilirdi ki, sovet qoşunlarının mübahisəli əraziləri tutması həmin ərazilərin hüquqi cəhətdən Azərbaycana və yaxud Ermənistana aid olması məsələsini həll etmir[85]. Yəni bu sazişlə sovet Rusiyası Zəngəzurun Sovet Azərbaycanının tərkib hissəsi olmasını qəbul etmədiyini göstərirdi və bu addımı ilə Antanta ilə əməkdaşlıq edən Ermənistanı öz tərəfinə çəkmək istəyirdi.

Ermənistanla Sovet Rusiyası arasında bağlanan saziş Antanta ölkələrinin bəzi dairələrində narahatlıq yaratmışdı. Ermənistan hökuməti bu sazişin formal səciyyə daşıdığını və Ermənistanın yenə də Antantaya meyl etdiyini bəyan etmişdi[86].

Qərb dövlətlərindən və Sovet Rusiyasına qarşı vuruşan çar ordusunun komandanı general Vrangeldən xeyli miqdarda silah-sursat aldıqdan sonra Ermənistan silahlı qüvvələri general Dronun komandanlığında yenidən Dərələyəzdən Zəngəzura hücum edib, Gorusu bir daha ələ keçirmişdi. 1920-ci il sentyabrın əvvəllərində Njdeh özünü Zəngəzurdakı bütün erməni silahlı dəstələrinin baş komandanı elan etmişdi.

Noyabrın 29-da Ermənistanda daşnak hökuməti devrilmiş və sovet hakimiyyəti qurulmuşdu. Noyabrın 30-da Azərbaycan K(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasında "Ermənistan İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında" teleqramı müzakirə edilmiş və Azərbaycanın mənafeyinin ziddinə qərar qəbul edilmişdi. Həmin qərarda qeyd

---

[84] Musayev İsmayıl. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1997, s. 255-256.

[85] Нагорный Карабах в 1918-1923 гг. Сборник документов и материалов. Ереван, 1992, с. 574.

[86] Musayev İsmayıl. Göstərilən əsəri, s.362.

edilirdi ki, Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir. Zəngəzur və Naxçıvan Sovet Ermənistanına keçir, Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir[87].

Dekabrın 1-də Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyətinin qurulması münasibətilə keçirilən təntənəli iclasında Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov bəyanatla çıxış etmişdi. Bəyanatın mətni ertəsi gün Bakıda nəşr edilən "Kommunist" (rusca) qəzetində dərc edilmişdi. Həmin bəyanatda yazılmışdı ki, "Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz ərazisidir, Dağlıq Qarabağın əməkçi kəndlilərinə öz müqəddəratını təyin etmək hüququ verilir"[88].

S.Orconogidze N.Nərimanovun bəyanatını saxtalaşdıraraq dekabrın 2-də Bakıdan Leninə və Stalinə göndərdiyi teleqramda bildirirdi: "Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini bəyan etmişdir"[89]. Halbuki, dekabrın 1-də Bakı Sovetinin Ermənistanda Sovet hakimiyyətinin qurulması münasibətilə keçirilən təntənəli iclasında qəbul edilən qərarda Dağlıq Qarabağın Ermənistana verilməsi qərara alınmamışdı. Nəriman Nərimanovun yuxarıda qeyd edilən 1 dekabr 1920-ci il tarixli bəyanatı təhrif edilmişdi. İrəvanda çıxan "Kommunist" qəzetinin 7 dekabr sayında dərc olunmuş həmin bəyanatın mətnində Yuxarı Qarabağın Ermənistan Sosialist Respublikasının tərkib hissəsi kimi tanındığı yazılmışdı. N.Nərimanov həmin Bəyanatın məzmununun saxtalaşdırılmasına qarşı ciddi etirazını bildirmişdi.

1920-ci il dekabrın 2-də İrəvanda Sovet Rusiyası ilə Sovet Ermənistanı arasında hərbi-siyasi saziş imzalanmışdı. Sazişi

---

87 Musayev İsmayıl. Azərbaycanın Zəngəzur qəzasının bir hissəsinin Ermənistana ilhaqı. "Elm" qəzeti, 7.08.2004.

88 "Yenə orada.

89 "Правда" qəzeti, Moskva, 4 dekabr 1920-ci il.

Rusiya tərəfindən Ermənistandakı diplomatik nümayəndə Boris Leqran, Ermənistan tərəfindən isə dərhal bolşeviklərin tərəfinə keçən general Dro və A.Terteryan imzalamışdılar. Ermənistanın sovetləşməsinin müqabilində Rusiya, bütün keçmiş İrəvan quberniyasının, Zəngəzur qəzasının, Qazax qəzasının dağlıq hissəsinin Sovet Ermənistanına daxil olmasını mübahisəsiz tanıdığını bəyan etmişdi[90].

Həmin vaxt Zəngəzur qəzasında mövcud olan 6 sahədən 4-ü sovet qoşunları, 2-si isə (1-ci və 5-ci sahələr) Njdehin qoşunu tərəfindən tutulmuşdu.

1920-ci il dekabrın 25-də öz dəstəsi ilə Tatev monastırında qərar tutan polkovnik Njdeh Zəngəzurun öz nəzarəti altında saxladığı hissəsində "Sünik Muxtar Respublikası" yaratdığını bəyan etmişdi. 1921-ci il yanvarın 21-də isə daşnak Ermənistanı dövründə bir həftə baş nazir olmuş Simon Vrasyanın başçılığı ilə Zəngəzurda "Dağlıq Ermənistan Respublikası" yaradılmışdı. Həmin oyuncaq respublikanın silahlı qüvvələrinə yenə də polkovnik Njdeh başçılıq edirdi.

1921-ci ilin fevralın 18-də Ermənistanda daşnaklar qiyam qaldırmış və Sovet hakimiyyətini devirmişdilər. Daşnaklar "Vətənin Xilası Komitəsi"ni yaratmışdılar. Martın 18-də İrəvanda bərpa edilən daşnak hökumətinin başçısı S.Vrasyan hərbi yardım göstərilməsi xahişi ilə Türkiyə hökumətinə müraciət etmişdi. Aprelin 2-də İrəvan Sovet qoşunlarının əli ilə daşnaklardan təmizləndi. Daşnakların silahlı dəstələri yenidən Zəngəzura çəkildilər.

Sovet Ermənistanı hökuməti və 11-ci ordunun komandanlığı Yuxarı Zəngəzurun Ermənistana birləşdirilməsini başa çatdırmaq üçün Zəngəzurdakı oyuncaq "Dağlıq Ermənistan Respublikası" ilə danışıqlar aparırdı. Sovet Ermənistanı Zəngəzurda Njedehin nəzarət altında saxladığı ərazini İrəvanla Qarabağ arasında baryer hesab edirdi və həmin baryeri aradan

---

[90] Musayev İsmayıl. Göstərilən məqaləsi.

qaldırmaq məqsədilə Zəngəzur üzərinə hücuma hazırlaşırdı. 21 aprel 1921-ci ildə Tatev monastrında keçirilən Zəngəzur ermənilərinin 2-ci qurultayında Njdeh "Dağlıq Ermənistan Respublikası"nın baş naziri, hərbi naziri və xarici işlər naziri elan edilmişdi. Bir sözlə, cəllad Njdeh Yuxarı Zəngəzurda küll-ixtiyar sahibi olmuşdu. Mayın 12-də Qalancıq kəndində Sovet Ermənistanının nümayəndələri ilə "Dağlıq Ermənistan Respublikası" arasında Yuxarı Zəngəzurun Sovet Ermənistanına birləşdirilməsi məqsədilə danışıqlar aparılmışdı.

Njdehin Zəngəzurda özünü küll-ixtiyar sahibi kimi aparmasının başqa bir səbəbi də onun xaricdən yardım alması ilə bağlı idi. Daşnak Ermənistanının baş naziri olmuş S.Vrasyan Təbrizə mühacirət etmişdi və o, İrandakı ingilis hərbçiləri ilə sıx əlaqə saxlayırdı. Bolşeviklərin 11-ci ordusunun Qarabağ-Zəngəzur qrupunun qoşunlarına verdiyi əmrdə yazılırdı: "Njdeh İran vasitəsilə Antanta ilə əlaqəyə malikdir və öz hakimiyyətini onun vasitəsi ilə saxlayır"[91].

Sovet qoşunlarının 11-ci ordusunun komandanlığı 1921-ci il mayın 25-dən etibarən yeni hərbi əməliyyatlar hazırladığı zaman Njdehin silahlı dəstələri Gorusdan çəkilərək, Bazarçay və Qafan rayonlarında qərar tutmuşdu. Bolşevik qoşunları iki istiqamətdən - həm Qarabağ, həm də İrəvan istiqamətindən Zəngəzura hücuma keçmişdi. Əlahiddə Qafqaz Ordusu adlandırılan 11-ci ordunun İrəvan qruplaşması üç tərəfdən - Vedidən Keşişkəndə (Dərələyəz), Naxçıvandan Əngələvidə (Sisyan) və Ordubaddan Meğriyə hücuma keçmişdi. Həmin qruplaşma iyunun 26-da Dərələyəzi, 28-də Biçənək aşırımını, 30-da isə bütün Sisyan rayonunu daşnak qoşunlarından azad etmişdi. İyulun 2-də bolşeviklərin Şuşa tərəfdən irəliləyən Qarabağ-Zəngəzur qruplaşması isə İrəvan qruplaşması ilə birlikdə Gorusa daxil olmuşdu. Njdehin dəstəsi iyulun 4-də

---

[91] Вартанян С. Победа Советской власти в Армении. Ереван, 1959. с. 453.

Tatev monastırından, iyulun 7-də isə Qafan mis mədənləri rayonundan çəkilmişdi[92]. İyulun 9-da Njdeh öz dəstəsi ilə birlikdə Meğridən Arazı adlayaraq İrana qaçmışdı[93].

Ermənistan Xalq Komissarları Soveti 20 iyul 1921-ci ildə Ermənistanın 8 qəza 33 nahiyədən ibarət inzibati-ərazi bölgüsünü təsdiq etmişdi. Avqustun 31-də isə yeni 9-cu qəza – mərkəzi Gorus şəhəri olmaqla Zəngəzur qəzası yaradılmışdı[94]. Azərbaycan isə öz növbəsində Zəngəzurun qərb hissəsini öz inzibati-ərazi bölgüsündən çıxarmışdı. Bununla da Zəngəzur iki hissəyə bölündü və onun qərb hissəsi Ermənistana birləşdirildi. Daha sonra Qərbi Zəngəzur ərazisində Meğri, Qafan, Sisyan və Gorus rayonları yaradıldı.

18 fevral 1929-cu ildə Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti Azərbaycan SSR-in Cəbrayıl qəzasının Nüvədi, Ernəzir və Tuğut kəndlərinin Ermənistan SSR-ə verilməsi haqqında qərar qəbul etdi[95]. Nəticədə uzunluğu 42 km olan və hazırda "Meğri dəhlizi" adlanan dəhliz yarandı ki, həmin dəhliz də Naxçıvanla Azərbaycanın qalan əraziləri arasında əlaqəni kəsməklə yanaşı, Ermənistanın İran üzərindən ərazilərə çıxışını da təmin etdi. Beləliklə, Sovet hakimiyyəti Azərbaycanın tarixi torpaqlarını Ermənistan SSR-ə bağışlamaq siyasətini davam etdirdi. Burada məqsəd təkcə Ermənistanı gücləndirmək deyil, eyni zamanda, türk dünyası ilə Azərbaycanın bütün quru yol əlaqələrini kəsmək idi. Ermənilər Qərbi Zəngəzuru ələ keçirməklə, Azərbaycanla Naxçıvan, eyni zamanda Azərbaycanla Türkiyə arasında süni baryer yaradılmasına nail oldular.

---

[92] Yenə orada, 460.

[93] Սիմոնյան Արամ. Զանգեզուրի գոյամարտը 1920–1921 թթ, Երևան ,, 2000. [Simonyan Aram. 1920-1921-ci illərdə Zəngəzurun varlıq mücadiləsi. Yerevan, 2000, s. 602, ermənicə].

[94] Yenə orada, s. 623.

[95] ARDA, f. 379, siy.1, iş 2176.

1929-cu ildə Cənubi Qafqaz Mərkəzi İcraiyyə Komitəsinin başqa bir qərarı ilə Naxçıvanın 657 kv km. ərazisi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan dairəsinin Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad dairəsinin Qorçevan kəndi və Kilid kəndinin torpaqlarının bir hissəsi Ermənistana verilmişdir[96]. 1938-ci ildə Şədərək və Kərki kəndlərinin torpaqlarının bir hissəsi Ermənistana verilmiş, nəticədə Kərki kəndi anklav vəziyyətinə düşmüş və 1990-cı ildə ermənilər tərəfindən işğal edilmişdir.

1984-cü ildə Qazax rayonunun Kəmərli kəndinə məxsus 2105 hektar sahə Ermənistana verilmişdir.

Erməni tədqiqatçısı A.Badalyan Ermənistanın əhalisi haqqında yazdığı məqaləsində qeyd edir ki, Naxçıvan qəzasının ərazisinin 5,4%-i, Zəngəzur qəzasının ərazisinin 59,6%-i, Qazax qəzasının ərazisinin 44,5%-i, Borçalı qəzasının ərazisinin 35,3 %-i və Qars qəzasının ərazisinin 14,7%-i Sovet Ermənistanına birləşdirilmişdir[97].

Həmin məlumatlar əsasında hesablama apardıqda belə nəticə hasil olur ki, **Naxçıvan** qəzasının 4998 kv km. ərazisinin 5,4%-i – 270 kv km, **Zəngəzur** qəzasının 7673 kv km. ərazisinin 59,6%-i – 4573 kv. km, **Qazax** qəzasının 6855 kv km. ərazisinin 44,5%-i – 3.051 kv km, **Borçalı** qəzasının 6165 kv.km. ərazisinin 35%-i – 2176 kv km., **Qars** qəzasının 5905 kv km. ərazisinin 14%-i – (buraya Ağbaba nahiyəsinin 36 kəndi və Şörəyel nahiyəsinin 8 kəndi daxildir) 868 kv km. təşkil edir. Bu rəqəmləri topladıqda və son vaxtlarda Ermənistana qatılan əraziləri topladıqda 1920-ci ildən sonra Moskvanın birbaşa köməyi ilə Ermənistanın ərazisinin təqribən **11 min kv km.** artdığı məlum olur.

---

96 Naxçıvan ensiklopediyası: II cild. Naxçıvan, 2005, s. 121.

97 Бадалян А. Население Армении со времени присоединения ее к России и до наших дней. *Известия Академии Наук Армянской ССР, Общественные науки.* № 5, 1953, с. 30-31.

Tarixi Azərbaycan ərazisində mövcud olan Ermənistan Respublikasının ərazisi hazırda 29.743 kv.km-ə bərabərdir.

## 1930-cu illər repressiyası

1920-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra daşnak hakimiyyəti dövründə qədim ata-baba yurdlarından didərgin salınaraq Azərbaycana, İrana, Türkiyəyə və Gürcüstana sığınmış azərbaycanlı qaçqınlarının bir qismi öz tarixi torpaqlarına qayıtmağa müvəffəq olmuşdular.

Ermənistan rəhbərləri qaçqınların geri qayıtmasının qarşısını almaq məqsədilə müxtəlif bəhanələr gətirir, onları Ermənistan ərazisinə buraxmaq istəmirdi. 1922-ci ilin yayında Ermənistan hökuməti yolxucu xəstəliklərin yayılmasını bəhanə edərək, İran ərazisində sığınacaq tapmış qaçqınların Culfa və Şahtaxtı keçid məntəqəsindən keçərək Ermənistana qayıtmalarının qarşısını almaq üçün dəfələrlə Azərbaycan hökumətinə müraciət etmişdi. Vedibasar və Zəngibasar qaçqınlarına o şərtlə qayıtmağa icazə vermişdilər ki, onların 1918-1920-ci illərdə ermənilərə qarşı vuruşmalarda iştirak etməmələri sübuta yetirilmiş olsun[98].

Lakin Ermənistan hökumətinin müqavimətinə və orada hökm sürən aclıq və səfalətə baxmayaraq, artıq 1922-ci ildə təqribən 100 min azərbaycanlı doğma yurdlarına qayıtmışdı. Rəsmi statistikaya görə, İrəvan qəzasına 26 min, Novo-Bəyazid qəzasına 14 min, Eçmiədzin qəzasına 9 min, Aleksandropol qəzasına 10 min, Zəngəzura 15 min, Dərələyəzə 5,5 min, Loru-Pəmbək və İcevan nahiyələrinə 17 min azərbaycanlı qaçqın qayıtmışdı[99].

1918-1920-ci illərdə azərbaycanlıların tərk etdikləri kəndlərin çoxunda Türkiyədən gəlmiş erməni ailələri yerləşdirildiklərindən, geri qayıdan qaçqınların bir qismi ermənilərlə birgə yaşamağa məcbur olmuş, bir qismi də yenidən Ermənistanı

---

[98] ARDA, f. 28., siy.1, iş 210, v. 125.

[99] Хармандарян С. Армянская ССР в первый год новой экономической политики: (1921-1922). Erevan, 1955, c. 146.

tərk etmək məcburiyyətində qalmışdı. Sonralar Ermənistanda 80-dən artıq ermənilərlə qarışıq yaşayış məskənləri beləcə yaranmışdı.

Əgər daşnakların hakimiyyəti dövründə Ermənistanda yaşayan azərbaycanlılar soyqırımına məruz qoyularaq onların yaşayış məskənlərində Türkiyədən gələn erməni qaçqınları yerləşdirilmişdisə, Sovet Ermənistanı qurulandan sonra, Ermənistan Xalq Xarici İşlər Komissarlığı 1921-ci ilin payızında əvvəlcə Rusiyanın, sonra isə İngiltərənin xarici işlər nazirliklərinə müraciət edərək, Mesopotamiyadakı erməni qaçqınlarının Ermənistana köçürülməsinə yardımçı olmalarını istəmişdi. 1922-ci ilin martında Mesopotamiyadan 9 min erməni qaçqını Batuma, oradan da Ermənistana gətirilərək, Qəmərli (indiki Artaşat) və Arazdəyənin (Vedi rayonu) şimal-qərbində məskunlaşdırılmışdı. 20-ci illərdə xaricdən gətirilən ermənilər əsasən İrəvan ətrafında, Əştərək, Qəmərli, Vedibasar, Eçmiədzin, Zəngibasar, Ellər rayonlarında yerləş-dirilmişdilər. Məqsəd həmin rayonlarda erməni əhalisinin xüsusi çəkisini artırmaqdan ibarət idi. Digər tərəfdən, həm 1918-20-ci illər daşnakların hakimiyyəti dövründə, həm də 1921-ci ilin yazında Sovet hakimiyyəti dövründə Vedibasarda Abbasqulu bəy Şadlinskinin rəhbərliyi altında könüllü silahlı dəstələr daşnaklara ağır zərbə endirmişdi. Ona görə də Ermənistan hökuməti İrəvan ətrafında, xüsusən də Zəngibasar, Vedibasar və Dərələyəzdə ermənilərin sayca üstünlüyünü təmin etmək üçün azərbaycanlıları müxtəlif üsullarla sıxışdırırdı.

Ermənistanda azərbaycanlıların repressiyalara məruz qalmalarını Mərkəzi Komitənin nəzdində fəaliyyət göstərən Azlıqda qalan millətlərlə iş şöbəsinin türk bölməsinin 1922-1925-ci illərə aid hesabatlarından aydın görmək olar. Bölmənin müdiri Bala Əfəndiyevin Ermənistan KP MK-ya təqdim etdiyi hesabatında göstərilir ki, daşnakların hakimiyyəti dövründə, yəni 1920-ci ilin iyulunda əvvəllər mövcud olmuş 300-dən artıq türk kəndindən yalnız biri - Uluxanlı kəndi salamat qalmışdı.

Daşnak Ermənistanında müsəlman "koloniyasını" bircə kənd və İrəvanda qalan bir neçə ailə təmsil edirdi. Hesabatın təqdim edildiyi vaxt - yəni 1925-ci ilin payızında Ermənistanda azərbaycanlıların əvvəllər yaşadıqları əksər kəndlər xaraba qoyulduğundan və salamat qalan kəndlərdə erməni "qaxtağanları" (yəni köçkünləri) yerləşdiklərindən ciddi problemlər yaranmışdı. Hesabatda həmçinin göstərilir ki, əhali arasında şayiə yayılmışdır ki, guya Naxçıvan Ermənistana birləşdiriləcək və Ermənistanın azərbaycanlı əhalisi Azərbaycana köçürüləcək. Başqa bir şayiə ondan ibarət idi ki, guya Qars vilayətində Ermənistandan gedən azərbaycanlılara külli miqdarda torpaq sahəsi və Türkiyəni tərk edən ermənilərin əmlaklarını və evlərini paylayırlar. Məqsəd Ermənistanda yaşayan azərbaycanlıları Türkiyəyə qaçmağa sövq etməkdən ibarət idi.

Həmçinin hesabatda respublikada torpaq fondu yaradılması bəhanəsi ilə azərbaycanlıların yaşadıqları kəndlərdən zorla çıxarılaraq, başqa azərbaycanlı kəndlərinə köçürülmələri, boşalmış kəndlərdə isə digər rayonlarda yaşayan ermənilərin yerləşdirilmələri qeyd olunmuş, Ermənistan KP MK qarşısında bu cür hallara son qoyulması məsələsi qaldırılmışdı[100].

Ermənistanda zorakılıq halları o həddə çatmışdı ki, Dərələyəz qəzasında yaşayan azərbaycanlılar 1925-ci ilin əvvəlində SSRİ Xalq Komissarları Sovetinin sədri A. Rıkova və Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Mir Cəfər Bağırova şikayət ərizəsi göndərmişdilər. Dərələyəzlilərin şikayətini yoxlamaq məqsədilə həmin ilin mayında Bala Əfəndiyevin iştirakı ilə üç nəfərlik komissiya yaradılmışdı. Komissiya Dərələyəzin Qurbankəsilən, Cığatay, Daşaltı, Göyərçin, Qayalı, Çarxılı, Gümüşxana, İstisu, Kotanlı, Qabaxlı, Zeytə,

[100] Ermənistan KP MK-nın nəzdində Partarxiv, fond.1, iş 309, v. 12-31.

Çatma, Qurdqulaq, Göykənd, Çaykənd, Cul, Tarp, Terp, Ceyranlı, Gendərə, Qaçiqut, Güneyvəng, Ələyəz, Alxan Pəyəsi, Hostun kəndlərində vəziyyəti yoxlamışdır. Komissiyanın gəldiyi nəticə ondan ibarət olmuşdur ki, azərbaycanlıların başqa kəndlərə köçürürlməsinə elə bir əsas olmamışdır və çox zaman bu tədbir zorakılıqla həyata keçirilmişdir. Komissiyanın hesabatında göstərilir ki, köçmək istəməyən adamları həbs etmiş, hətta qonşu erməni kəndlərinin əhalisini azərbaycanlı kəndlərinin üzərinə basqın etdirmişdilər[101].

1925-26-cı illərdə Ermənistana İrandan, Türkiyədən, Yunanıstandan, Fransadan, Suriyadan 20 min erməni köçürülmüşdü, 1926-29-cu illərdə Ermənistana xaricdən daha 6 min erməni gəlmişdi. Ümumiyyətlə, 1921-ci ildən 1936-cı ilədək Ermənistanda xaricdən 42 min erməni gətirilib yerləşdirilmiş, onlara torpaq ayrılmış və işlə təmin edilmişdilər[102].

1922-ci ilin mayında Ermənistana təxminən 100 min azərbaycanlı qayıtdığı halda, 1926-cı ildə keçirilən ümumi Zaqafqaziya siyahıyaalınmasının nəticələrinə görə, Ermənistanda 84717 türk (azərbaycanlı) qeydə alınmışdı. Göründüyü kimi, 1922-1926-cı illər arasında (əhalinin təbii artımını da nəzərə almaqla) indiki Ermənistan ərazisini ən azı 25 min azərbaycanlı tərk etmişdir[103].

1926-cı ildə Ermənistanda 743.573 erməni, 84.717 azərbaycanlı, 1939-cu ildə isə 1.062.000 erməni, 130.800 azərbaycanlı qeydə alınmışdı. Müqayisədə ermənilər 42,7%, azərbaycanlılar isə 56,8% artmışdı. Azərbaycanlıların yüksək artımı erməniləri ciddi narahat edirdi.

1930-cu il yanvarın 3-də Cənubi Qafqaz Ölkə Komitəsi ”antisovet elementlərin” tərksilah olunması barədə sank-

---

[101] Yenə orada, v. 10-12.

[102] История армянского народа, Ереван, 1980, с. 336.

[103] Население Закавказья. Тифлись, 1926, с. 8.

siyalaşdırılmış kütləvi əməliyyatlar keçirilməsi barədə qərar qəbul etmişdi. Bu qərar ilk növbədə Ermənistanda yaşayan azərbaycanlılara tətbiq edilmişdi.

1930-cu illərdə indiki Ermənistan ərazisində daha çox kütləvi repressiyalara məruz qalan bölgələr Ağbaba, Zəngibasar, Vedibasar və Meğri bölgələri olmuşdu. Bunun iki əsas səbəbi var idi. Birincisi, bu bölgələr Türkiyə və İranla ilə həmsərhəd idi. Ermənistanın hüquq-mühafizə orqanları vaxtaşırı olaraq məlumatlar yayırdılar ki, guya sərhəd rayonlarında yaşayan azərbaycanlılar Türkiyə və İranın kəşfiyyat orqanları ilə gizli əlaqə saxlayır, Ermənistanda antisovet təbliğatı aparırlar. İkincisi, 1918-20-ci illərdə Ermənistanda daşnak hökumətinin hakimiyyətini tanımayan, erməni qoşunlarına daha güclü silahlı müqavimət göstərən bölgələr də məhz Vedibasar, Zəngibasar və Ağbaba mahalları olmuşdu.

1930-cu illərin əvvəllərində bütün Sovet İttifaqında həyata keçirilən kollektivləşmənin ən sərt tədbirləri Ermənistanda yaşayan azərbaycanlılara qarşı tətbiq edilirdi. İlk növbədə ata-babadan varlı olanların mal-qarasını əllərindən alıb kolxoz təsərrüfatına qatır, özlərini isə "qolçomaq" damğası ilə Qazaxıstana və Sibirə sürgün edirdilər. Bir azdan bu cür tədbirlərin ortabab kəndlilərə də şamil edilməsi, mal-qaradan əlavə əkin sahələrin də onların əllərindən alınması Vedibasarda, Zəngibasarda, Qəmərlidə, Göyçədə və Zəngəzurda kəndli üsyanlarının baş verməsinə səbəb olmuşdu.

1930-cu ildə Türkiyədə çıxan "Odlu Yurt" məcmuəsi "Vedibasar və Naxçıvan üsyanları davam edir" başlıqlı məqaləsində yazırdı: "Üsyan bir tərəfdən İrəvana və Göyçə gölünə, digər tərəfdən Ordubad və Zəngəzura sirayət eyləmişdir. Böyük Vedibasar partizanlarının miqdarı 600 nəfərdir..." [104].

"Odlu Yurt" məcmuəsi Vedibasar üsyanının yatırılması zamanı qətlə yetirilən Abbasqulu bəy Şadlinskinin daşnaklar

[104] " Odlu Yurt", İstanbul, 1930, № 17 (5), s. 193.

tərəfindən qətlə yetirilməsi haqqında məlumat vermişdi. "Abbasqulu ağa neçin öldürüldü" sualına məcmuədə belə cavab verilir: "Abbasqulu ağa rus inqilabından sonra əksəriyyəti türk olan İrəvan vilayətində "süni bir erməni əksəriyyəti" yaratmaq üçün türk köylərini yerlə yeksan etməyə başlayan daşnaklara, onların qəhrəmanı andraniklərə iki il müqavimət göstərmiş, bu yerlərdə türkün mövcudiyyətini mühafizə etməyə müvəffəq olmuşdu.Daşnaklar indi Abbasqulu ağanın ruslara qarşı mübarizə etməsindən istifadə edərək "intiqam" almışlar"[105].

1930-cu illərdə Vedibasarın, Zəngibasarın, Qəmərlinin, Dərələyəzin, Ağbabanın, Loru-Pəmbəyin, Qərbi Zəngəzurun və digər bölgələrin əlli minə yaxın azərbaycanlı əhalisi ya repressiyaya məruz qoyularaq həbs edilmiş və ya güllələnmiş, yaxud da ailəliklə Qazaxstan çöllərinə sürgün edilmişdilər. Hazırda Qazaxıstanda yaşayan azərbaycanlıların əksəriyyətini 30-cu illərdə Qərbi Azərbaycandan sürgün edilmiş ailələrin övladları təşkil edirlər. Sərt iqlim və bərbad mənzil şəraitinə uyğunlaşa bilməyən əhalinin xeyli hissəsi sürgündə tələf olmuşdu.

Sürgün müddəti qurtardıqdan sonra öz evlərinə qayıtmaq istəyən ailələrin əksəriyyətini yaşadıqları rayonun Türkiyə ilə sərhəd olmasını bəhanə edərək Ermənistana burax-madıqlarından, onlar ya geri qayıtmış, ya da Azərbaycan və Gür-cüstanda sığınacaq tapmışdılar.

1936-cı ilin noyabr ayında SSRİ Mərkəzi İcraiyyə Komitəsi Millətlər Şurasının Rəyasət Heyəti "Ermənistanda milli azlıqlar arasında aparılan işlərin vəziyyəti" haqqında məsələ müzakirə etmiş, bu sahədə ciddi nöqsanlara yol verildiyi qeyd edilmişdi[106].

1937-ci ilin payızında Ermənistanda güclənən rep-ressiyaların dalğasının fonunda azərbaycanlılar daha ağır zərbə

---

[105] Yenə orada, s. 230.
[106] "Заря Востока" qəzeti, Tiflis, 1936, № 259.

almış oldular. Xalq düşmənlərini, trotskiçi-buxarinçi casusları ifşa etmək məqsədilə A.Mikoyan, N.Yejov və L.Beriya Ermənistana gəlmişdilər. Mikoyanın rejissorluğu ilə keçirilən "təmizlənmə" prosesində Moskvaya belə məlumat vermişdilər ki, Ermənistanda Araz və yuxarı Arpaçay boylarında yaşayan azərbaycanlıların guya hamısı Türkiyəyə keçmək fikrindədir. 22 sentyabr 1937-ci ildə A.Mikoyan, G.Malenkov və M.Litvinin imzası ilə İ.Stalin və N.Yejovun adına göndərilən şifrəli teleqramda xahiş edilirdi ki, Ermənistanı daşnaklardan və digər antisovet elementlərdən təmizləmək üçün əlavə olaraq 700 nəfərin güllələnməsinə icazə verilsin[107]. Həmin ilin payızında və 1938-ci ilin yazında Vedibasar, Zəngibasar, Qəmərli, Eçmiədzin, Hoktemberyan və Amasiya rayonlarının Türkiyə ilə həmsərhəd kəndlərində yaşayan on minlərlə azərbaycanlı kütləvi surətdə repressiyaya məruz qalmış, minlərlə ailə sürgün edilmişdi.

[107] Трагедия советской деревни. Коллективизация и раскулачивание. 1927-1939: Документы и материалы. Том 5, Книга 1. Москва, 2004, с. 367.

## Qərbi azərbaycanlılar İkinci Dünya müharibəsində

1939-cu ildə Ermənistan SSR-də keçirilən siyahıyaalmanın nəticəsinə görə azərbaycanlıların sayı 131 min nəfər olmuşdur ki, bu da ümumi əhalinin 10,2 faizini təşkil etmişdir. Erməni tarixçiləri Sovet Ermənistanı əhalisinin 20-23 faizinin İkinci Dünya müharibəsi zamanı səfərbər edilidiyini yazırlar[108]. Həmin nisbət azərbaycanlı əhali üçün nəzərə aldıqda, aydın olur ki, 30 mindən artıq azərbaycanlı müharibəyə göndərilmişdir. Əslində bu rəqəm daha yüksək olmuşdur.

1941-1942-ci illərdə Ermənistanda yaşayan azərbaycanlılar əsasən Gümrüdə və İrəvanda formalaşdırılan 61-ci, 89-cu, 320-ci, 408-ci, 409-cu atıcı diviziyaların, 76-cı dağatıcı diviziyanın tərkibinə cəlb edilirdilər. Leninakanda formalaşdırılan 320-ci atıcı divi-ziyasının tərkibi haqqında 16 sentyabr 1942-ci ilə aid məlumata görə, 9124 nəfər şəxsi heyətin 7972 nəfəri erməni olmuşdur. Deməli, qalan 1152 nəfər Gümrü ətrafında yaşayan azər-baycanlılardan ibarət olmuşdur. 1941-ci ilin dekabrında İrəvanda formalaşdırılıan 61-ci atıcı diviziyanın tərkibinin 70 faizi ermənilərdən ibarət olduğunu nəzərə alsaq, deməli, yerdə qalan kontingent əsasən İrəvanın özündə və ətrafında yaşayan azərbaycanlılardan təşkil edilmişdir. 76-cı dağatıcı diviziyanın 16 min nəfər döyüşçüsündən 14 mini erməni olmuşdusa[109], deməli qalanı əsasən azərbaycanlılardan ibarət olmuşdur.

Müharibəyə aparılan azərbaycanlıların təqribən yarısı geri qayıtmamışdır. Məsələn, müharibə ərəfəsində Göyçə gölü hövzəsində (Basarkeçər, Çəmbərək, Qaranlıq, Nor-Bayazet rayonları) təqribən 31 min azərbaycanlı yaşamışdır. Onlardan 6

---

[108] Арутюнян К. Участие армянского народа в Великой Отечественной войне (1941-1945) гг., *Постсоветские исследования. Том 3, № 5 (2020),* с. 393-402 https://www.elibrary.ru/item.asp?id=43131747

[109] Yenə orada, с. 396.

min nəfərə yaxını müharibəyə aparılmış, 2368 nəfəri geri qayıtmamışdır[110]. Amasiya rayonunda 10140 nəfər azərbaycanlı yaşamışdır ki, onlardan təqribən 2500 nəfəri müharibəyə getmiş, 892 nəfəri geri qayıtmamışdır[111].

Ümumiyyətlə, İkinci Dünya müharibəsi zamanı Qərbi Azərbaycandan səfərbər edilən azərbaycanlıların təqribən yarısı ya həlak olmuş, ya da itkin düşmüşdür.

Qərbi azərbaycanlılar Şimali Qafqazdan başlamış, Berlinə qədər döyüş yolu keçmişlər. Qərbi Azərbaycanın Hamamlı rayonunun Gözəldərə kəndində anadan olan, Sovet İttifaqı Qəhrəmanı Xıdır Mustafayevin, Qarakilsə nahiyəsinin Ərikli kəndində anadan olan general-mayor Akim Abbasovun, Barana rayonunun Ləmbəli kəndində anadan olan, əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin komandiri olmuş Cavad Həkimli, 1945-ci il aprelin 30-da sovet qoşunlarının Berlinə daxil olan döyüşçüləri arasında Reyxstaqa ilk bayraq sancan vedibasarlı Mirzə Hüseynovun[112] adları Azərbaycan hərb tarixinə qızıl hərflərlə yazılmışdır.

---

[110] Nəsibov Lütfiyar. Göyçə mahalı II Dünya savaşında: həlak olanlar və itkin düşənlər, Bakı, 2021, s. 8.

[111] Nəsibov Lütfoyar. Ağbaba-Şörəyel II Dünya savaşında: həlak olanlar və itkin düşənlər, Bakı, 2023, s. 13.

[112] Mədətov Qaraş. Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində. Bakı, 2018, s. 450.

## 1948-1953-cü illər deportasiyası

Tarixə azərbaycanlıların 1948-1953-cü illər deportasiyası kimi yazılsa da, əslində, bu, hüquq nöqteyi-nəzərindən sürgün demək idi.

Sovet Ermənistanında 30-cu illərdə on minlərlə azərbaycanlı Türkiyə və İranla qohumluq əlaqələrinin olması bəhanə edilərək repressiyaya məruz qoyulmuş, onların xeyli hissəsi Qazaxıstana və Orta Asiyaya sürgün edilmişdi. Bu aksiya icra edilən zaman heç bir müqavimətə rast gəlməyən Ermənistan rəhbərləri 40-cı illərin sonu, 50-ci illərin əvvəllərində daha bir aksiyanın – azərbaycanlıların deportasiyası aksiyasının həyata keçirilməsinə nail oldular.

İkinci Dünya müharibəsinin sonlarında SSRİ Türkiyəyə qarşı ərazi iddiası irəli sürmüşdü.

Ermənilərin Türkiyəyə qarşı ərazi iddiası ilə SSRİ-nin hücum etmək planları üst-üstə düşürdü. İ.Stalin Rusiya ilə Türkiyənin 1914-cü il sərhədlərini bərpa etmək, yəni Qars və Ərdahan vilayətlərini yenidən Türkiyədən qoparmaq istəyirdi. Lakin SSRİ-nin Türkiyədən qoparmaq istədiyi əraziləri məskunlaşdırmaq problemi qarşıya çıxmışdı. Bu məsələni xaricdən Ermənistan ərazisinə ermənilərin köçürülüb gətirilməsi yolu ilə həll etmək istəyirdilər.

Ermənistan hökumətinin qaldırdığı vəsatəti əsas götürərək, SSRİ Xalq Komissarları Soveti 21 noyabr 1945-ci ildə "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul etmişdir[113].

Artıq 1946-cı ilin əvvəlində 130 min erməni xaricdən Ermənistana köçmək arzusunda olduğunu bildirmişdi. 1945-ci ilin sonu, 1946-cı ilin əvvəlində Ermənistan KP MK-nın birinci katibi Q.Arutinov xaricdən ermənilərin kütləvi repatriasiyasını əsas götürərək, Dağlıq Qarabağın və Naxçıvanın Ermənistana

---

[113] История армянского народа, Ереван, 1980, с. 364

birləşdirilməsi məsələsini Moskva qarşısında qaldırmışdı. Mir Cəfər Bağırov ermənilərin bu iddiasına cavab olaraq Moskvaya bildirmişdi ki, o, Şuşa istisna olmaqla, Arutinovun tələbi ilə o şərtlə razıdır ki, Ermənistanın Əzizbəyov, Vedi, Qarabağlar rayonları Azərbaycana birləşdirilsin[114]. Bundan sonra həmin məsələ qapadılmış, əvəzində azərbaycanlıların Ermənistandan deportasiyası məsələsi ciddiləşmişdi. Təkcə 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min nəfər, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İran və Livandan 35,4 min nəfər erməni qəbul edilib Ermənistanda yerləşdirilmişdi[115]. Ümumiyyətlə, təkcə 1946-1948-ci illərdə xaricdən Ermənistana təqribən 100 min erməni köçürülmüşdü.

1947-ci il dekabrın əvvəlində Azərbaycan və Ermənistan K(b)P MK-larının birinci katiblərinin adından İ. Stalinin adına məktub göndərilir. Birgə məktubda Ermənistanda yaşayan 130 min nəfər azərbaycanlının köçürülməsi məsələsini həll etmək xahiş olunurdu. Surəti Azərbaycan Respublikası Siyasi Sənədlər Arxivində saxlanılan həmin məktubun altında imza, imzalanma tarixi və göndərilmə nömrəsi qeyd olunmamışdır[116].

Təxmini hesablamalara görə, deportasiya ərəfəsində Ermənistanda 170 mindən artıq azərbaycanlı yaşayırdı. Ermənistan SSR üzrə 24 rayonun 220 kolxozunda ancaq azərbaycanlılar, 63 kolxozunda isə azərbaycanlılar digər xalqların nümayəndələri ilə qarışıq şəkildə yaşayırdılar[117].

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul etmişdir. Həmin qərarla Ermənistanın 22

---

[114] ARPİİSSA, f. 1, siy. 169, iş, 249, v. 8-12.

[115] История армянского народа, Ереван, 1980, с. 366.

[116] ARPİİSSA, f. 1, siy. 222, iş 48, v. 1-2.

[117] Qurbanlı Əsəd. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası tarixindən (1947-1953-cü illər). Bakı, 2018, s. 80.

rayonundan 100 min azərbaycanlının köçürülməsi nəzərdə tutulmuşdu. Qərarın 1-ci bəndində 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu[118].

Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn ermənilərin yerləşdirilməsi üçün istifadə etsinlər[119]. “Digər azərbaycanlı əhali” kateqoriyasına açıqlıq gətirilməsə də, aydın olurdu ki, bu kateqoriya altında Ermənistanın şəhərlərində yaşayan fəhlələr və kolxozçu olmayan azərbaycanlıların köçürülməsi nəzərdə tutulurdu.

2 fevral 1948-ci ildə Azərbaycan SSR Nazirlər Soveti “Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsiinə hazırlıq tədbirləri haqqında” məxfi qərar qəbul edir, 1948-ci ildə köçürülənlərin Azərbaycan SSR-in kolxozlarına bölüşdürülməsi planını təsdiq edir[120].

10 mart 1948-ci il tarixdə SSRİ Nazirlər Soveti 23 dekabr 1947-ci il tarixli qərarına əlavə olaraq “Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında” ikinci qərar qəbul etmişdir. 14 maddədən ibarət olan bu qərarda köçürmə ilə əlaqədar olaraq SSRİ hökumətinin, habelə Azərbaycan və Ermənistan Nazirlər Sovetlərinin qarşısında konkret tədbirlərin həyata keçirilməsi vəzifəsi qoyulmuşdu[121].

Azərbaycanda köçürmə işlərinə bilavasitə Nazirlər Sovetinin milliyyətcə erməni şöbə müdirləri Nerses Brutens (*N.Brutens uzun müddət Sov.İKP MK-nın beynəlxalq əlaqələr şöbəsi müdirinin*

[118] ARPİİSSA, f. 1, siy. 222, iş 48, v. 14-17.
[119] ARDA, f. 1894, siy. 1, iş 13, v. 13-16.
[120] ARDA, f. 411, siy 33, iş 112, v 55-59.
[121] ARDA, f. 411, siy. 9, iş 580, v. 191.

*birinci müavini olmuş Karen Brutensin atasıdır*) və Ruben Sevumyan (*R.Sevumyan təqribən 25 il Nazirlər Sovetində kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsində işləmişdir*) rəhbərlik etmişdilər.

Ermənistan SSR- dən Gəncə şəhərinə və rayonlarına icazəsiz köçmüş ailələrin vəziyyəti və Gəncə zonasının rayonlarında onların yerləşdirilməsi və qeydiyyatlarının aparılması üçün işlənmiş tədbirlər planı haqqında Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə şöbəsinin müdiri N.Brutensin Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevə 15 mart 1948-ci il tarixli məxfi məlumatında qeyd edilirdi ki, 1947-ci ilin sonu və 1948-ci ilin yanvar-fevral aylarında Kirovabad (Gəncə) şəhərinin Yeni İrəvan qəsəbəsində təqribən 50 ailə İrəvan şəhərindən gələrək məskunlaşmışlar. İrəvan şəhərindən gələnlərin əksəriyyətinin Ermənistan Ticarət və İctimai İaşə Nazirliyi sisteminin işçiləri olduqları və əsasən işsiz olduqları həmin məlumatda qeyd edilir [122].

18 mart 1948-ci il tarixində Azərbaycan KP (b) MK Bürosunun iclasında Azərbaycan SSR Nazirlər Sovetinin yanında Köçürmə İdarəsinin rəisi vəzifəsinə Məmməd Cəfərov, Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-də müvəkkili vəzifəsinə isə Mürsəl Məmmədov təsdiq edilmişdir. Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-də 5 ştat vahidi ilə Nümayəndəliyi yaradılmışdı.

Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-dəki nümayəndəsi M.Məmmədovun Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevə və AK(b)P MK-in katibi M.C.Bağırova göndərilən 12 aprel 1948-ci il tarixli məlumatında qeyd edilirdi ki, 1948-ci ildə Ermənistanın əsasən azərbaycanlıarla ermənilərin qrışıq yaşadıqları 53 yaşayış məntəqəsindən 2378 ailənin (11244 nəfər) köçürülməsi nəzərdə tutulur. Həmçinin qeyd edilirdi ki, İrəvan şəhərinin azərbaycanlıları xahiş edirlər ki, onları Azərbaycan SSR-in iri şəhərlərinə - Bakıya və Gəncəyə

[122] ARDA, f. 411, siy. 26, iş 34, v. 8-14.

köçürsünlər və mənzillərinin Azərbaycanın şəhərlərindəki mənzillərlə dəyişdirilməsi üçün mətbuatda elan verilməsinə icazə verilsin. İrəvanlı azərbaycanlıların arasında çoxlu sayda bağçılıq və tərəvəzçiliklə məşğul şəxslər olduğu üçün onlar Abşeron rayonunda məskunlaşdırılmalarını istəyirdilər ki, Bakı şəhərini müəyyən qədər tərəvəzlə və göy-göyərti ilə təmin edə bilsinlər [123]. Bununla əlaqədar İrəvan şəhərindən köçürülən kolxozçuların Abşeron kolxozlarında yerləşdiriləcəkləri evlərin cari vəziyyəti və onların əsaslı surətdə yenidən qurulması məqsədilə yaradılmış komissiyanın Azərbaycan SSR Nazirlər Sovetinin sədrinin adına göndərdiyi arayışda qeyd edilirdi ki, Abşeron rayonunun Şüvəlan, Qala, Mastağa, Binə, Zirə, Mərdəkan, Türkan, Keşlə, Buzovna və Nardaran qəsəbə və kəndlərində kapital təmirdən sonra 295 ailənin yerləşdirilməsi mümkündür [124].

Bakı şəhər Sovetinin əməkdaşı Allahverdiyevin, Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin əməkdaşı N.Brutensin, İrəvan şəhərinin təmsilçiləri Şirinov və İsmayılovun imzaları ilə "İrəvan şəhərindən köçürülən kolxozçuların Abşeron kolxozlarında yerləşdiriləcəkləri evlərin cari vəziyyəti və onların əsaslı surətdə yenidən qurulması haqqında komissiyanın Azərbaycan SSR Nazirlər Sovetinin sədrinin adına hazırlanan arayış"da qeyd edilirdi ki, 1948-ci il aprelin 17-18-də İrəvan şəhərindən köçürülənlərin təmsilçiləri Şirinov və İsmayılovun iştirakları ilə Maştağa və Əzizbəyov rayonlarını gəzmiş, boş evlərdə məskunlaşma üçün onların yararlılıq vəziyyətini yoxlamışlar. Müəyyən edilmişdir ki, kapital bərpa-təmir işlərindən sonra 295 ailəni həmin rayonların ərazisində məskunlaşdırmaq olar. Şirinov və İsmayılov bildirmişlər ki, Türkan, Zirə, Nardaran və Şüvəlanın təbii şəraiti köçürülmə üçün münasib deyilvə xahiş etmişlər ki, köçürülən əsas kütlə Maştağa, Buzovna, Mərdəkan və

[123] Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Sənədlər toplusu. Bakı, 2013, s. 133-135.
[124] ARDA, f. 1984, siy. 1, iş 85, v. 56-57.

Şüvəlanda yerləşdirilsinlər, hansı ki həmin kəndlərdə zəruri torpaq sahələri var ki, orada yeni evlər tikmək mümkündür[125].

13 aprel 1948-ci ildə Azərbaycan K(b)P MK-nın Bürosu "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsi ilə əlaqədar kütləvi təbliğat tədbirləri haqqında" qərar qəbul etmişdir. Həmin qərarın preambula hissəsində SSRİ Nazirlər Sovetinin məlum 23 dekabr 1947-ci il tarixli qərarı Stalinin Azərbaycan SSR-ə və Azərbaycan xalqına göstərdiyi qayğının təzahürü kimi qiymətləndirilirdi. Ermənistanda yaşayan azərbaycanlı əhalini köçməyə təşviq etmək üçün "Sovet Ermənistanı" qəzetində Sovet Azərbaycanının sosializm quruculuğundakı nailiyyətləri haqqında dərc edilməsi üçün məqalələr hazırlamaq, Mingəçevir sisteminin inşası nəticəsində Kür-Araz ovalığında yeni yaranacaq suvarılan ərazilərin perspektivi haqqında kütləvi tirajla broşürlərin çap edilməsi tapşırılırdı. Həmçinin mədəni-maarif müəssisələrinin rəhbərlərinə tapşırılırdı ki, Ermənistanda yaşayan azərbaycanlı əhali arasında təbliğat aparmaq üçün mühazirəçilər, yazıçılar, şairlər, artistlər səfərbər etsinlər[126].

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 13 may tarixli qərarına əsasən həmin ilin yaz mövsümündə Ermənistan SSR-in kənd rayonlarının kolxozçuları ilə bərabər, İrəvan şəhərindən 105 azərbaycanlı ailəsinin (400 nəfər) köçürülməsi nəzərdə tutulurdu[127].

Lakin İrəvan şəhərindən köçürülərək Bakı ətrafında yerləşdirilməsi nəzərdə tutulan evlər yaşamaq üçün yarasız vəziyyətdə olan idarə-müəssisələrin uçuq-sökük inzibati tikililərdən ibarət idi. İrəvan şəhərində yüz illər boyu yaşayan, özlərinə imarətlər inşa edən azərbaycanlı əhalinin Bakının ətrafında yararsız vəziyyətdə olan tikililərdə yerləşdirilməsi sözün

---

[125] ARDA, f. 411, siy. 9, iş 601, v. 273-274.
[126] ARPİİSSA, f. 1, siy. 33, iş 27, v. 19-20.
[127] ARDA, f. 411, siy. 28, iş 678, v. 241.

həqiqi mənasında cinayət idi. Bu cinayətə həmin dövrün Ermənistan və Azərbaycan rəhbərləri birlikdə imza atırdılar.

SSRİ hökumətinin azərbaycanlıların köçürülməsi haqqında verdiyi qərarlar Ermənistan hökumətinə şans vermişdi ki, İrəvan ətrafında və Ermənistanın sərhədləri boyunca mövcud olan azərbaycanlı yaşayış məntəqələrini köçürmək yolu ilə birdəfəlik xəritədən silə bilsin. Ermənistan hökumətinin nümayəndələri azərbaycanlı əhalinin psixoloji cəhətdən köçürülməyə hazırlanması üçün müxtəlif şayiələr yayırdılar. Ermənistan SSR-in daxili işlər naziri general-mayor Xoren Qriqoryanın imzası ilə 3 may 1948-ci ildə Mir Cəfər Bağırova ünvanlanmış "Azərbaycan SSR-ə qarşıdakı köçürülmə ilə əlaqədar Ermənistanın azərbaycanlı əhalisi arasındakı əhval-ruhiyyə haqqında arayış"da təkcə köçürülməsi nəzərdə tutulan rayonların azərbaycanlı əhalinin deyil, bu işdə marağı olan, Dağlıq Qarabağın və Naxçıvanın Ermənistana birləşdirilməsini arzulayan ermənilərin söylədikləri də öz əksini tapmışdır. Azərbaycanlı əhalinin dədə-baba yer-yurdlarından köçmək istəmədiklərini söyləmələri təbii idi. Ermənilərin Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiası ilə bağlı söylədikələrinə arayışda xüsusi yer verilməsi isə dolayısı ilə rəsmi İrəvanın mövqeyini ifadə edirdi. Məsələn, İrəvanda Sosial Təminat Nazirliyi sistemində işləyən bir erməninin söylədiyi aşağıdakı fikirlər arayışda öz əksini tapmışdır: "Azərbaycanlıların Ermənistandan köçürülməsi şübhə doğurmur. İlk növbədə, Araz və Axuryan (Arpaçay) çaylarının sahilləri boyu yaşayan azərbaycanlılar köçürüləcək, sonra Yerevandakı azərbaycanlıların köçürülməsinə başlanacaq. Sərhəd rayonlarının kəndləri də azərbaycanlılardan təmizlənəcək..." Başqa bir erməni isə öz arzularını belə ifadə edirdi: "Azərbaycanlıları təkcə Ermənistandan deyil, eləcə də Naxçıvan MSSR-dən köçürmək və Naxçıvanı Ermənistan ərazisinə birləşdirmək lazımdır"[128].

---

[128]. ARDA, f. 411, siy. 26, iş 34, v. 65-75.

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 13 may tarixli qərarına əsasən həmin il Ermənistan SSR-in kənd rayonlarının kolxozçuları ilə bərabər, İrəvan şəhərinin Stalin və Spandaryan rayonlarından azərbaycanlıların köçürülməsi nəzərdə tutulurdu.

Ermənistanda azərbaycanlı əhalini başsız qoymaq, ali təhsilli kadrların çoxalmasına imkan verməmək məqsədilə ilk növbədə X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunda 1937-ci ildən təhsil Azərbaycan dilində olan bölmələri – dil-ədəbiyyat, tarix-coğrafiya, fizika-riyaziyyat fakültələri və Ermənistan Dövlət Qiyabi Pedaqoji İnstitutunda mövcud olan eyniadlı fakültələri bağlanaraq 1948-ci ildə Azərbaycandakı müvafiq institutlara köçürüldülər.

"Pedoqoji İnstitutun Azərbaycanlı bölməsinin və Azərbaycanlı pedoqoji texnikumunun Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsi haqqında" Azərbaycan SSR Nazirlər Soveti l iyul 1948-ci ildə qərar qəbul etmişdir. Həmin qərarla Azərbaycan SSR Maarif Nazirliyinə tapşırılmışdır ki, İrəvan Pedaqoji İnstitutunun azərbaycanlı sektorunun ədəbiyyat, coğrafiya və fizika-riyaziyyat fakültələrində təhsil alan 149 tələbə Azərbaycan Pedaqoji İnstitutunun müvafiq fakültələrinə köçürülsünlər. İrəvan Qiyabi Pedaqoji İnstitutunun azərbaycanlı sektorunun ədəbiyyat, tarix və fizika-riyaziyyat fakültələrində qiyabi təhsil alan 257 müəllim təhsillərini davam etdirmək üçün Azərbaycanlı Qiyabi Pedaqoji İnstitutunun müvafiq fakültələrinə qəbul edilsinlər. Ermənistandan köçürülən İrəvan Azərbaycan Pedaqoji Məktəbi müstəqil təhsil müəssisəsi kimi əyani şöbəsinin 232 şagirdi və qiyabi şöbəsinin 108 şagirdi pedaqoji kontingentlə birlikdə Xanlar (indiki Göygöl) şəhərinə köçürülsün və pedaqoji məktəb Xanlar şəhərindəki uşaq evində yerləşdirilsin [129].

---

[129] ARDA, f. 1984, siy. 1, iş21, v. 22-23.

Ermənistanın kənd rayonlarından köçürülən azərbaycanlı əhalinin Xanlar rayonunda məskunlaşmalarına hər cür maneçilik törədildiyi halda, 1924-cü ildə açılan və Azərbaycan elminə görkəmli xadimlər bəxş edən İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu bağlanaraq onun fakültələri kənd rayonu hesab edilən Xanlar rayon mərkəzinə köçürüldü.

İrəvan Azərbaycan Pedaqoji Məktəbində işləyən 18 müəllimin ailəsi (83 nəfər) Xanlar şəhərinə deportasiya edilmişdi.

Təbii ki, azərbaycanlı ali məktəb və texnikum müəllimləri də kütləvi surətdə öz ailələri ilə birlikdə İrəvan şəhərini tərk etmək məcburiyyətində qaldılar. 1948-ci ilin sonunda Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyev SSRİ Nazirlər Soveti sədrinin müavini V.Malenkova ünvanlandığı 27 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli yuxarıda sadalanan qərarlarının yerinə yetirilməsinin vəziyyəti haqqında hesabat xarakterli məktubunda Kür-Araz ovalığına köçürülən əhali üçün bütün zəruri şəraitin olmadığı - yaşayış üçün mənzillərin olmaması, torpağın yararlı hala salınmaması, su təchizatının həll edilməməsi, sanitar-profilaktik müəssisələrinin olunmaması vurğulanırdı. Bütün bunları nəzərə alaraq, Ermənistan SSR-dən azərbaycanlıların köçürülmə planında dəyişiklik edilərək bu rəqəmin 1949-cu ildə 15000-dən artıq nəzərdə tutulmaması, Ermənistanın dağlıq rayonlarından köçürülənlərin Azərbaycanın dağlıq rayonlarında yerləşdirilməsinə icazə verilməsi SSRİ Nazirlər Sovetindən xahiş edilir və həmin şəxslərə də SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli güzəştlərin şamil edilməsinin məqsədəmüvafiq olması qeyd edilirdi [130].

Lakin SSRİ Nazirlər Soveti dəfələrlə edilən bu cür müraciətlərə bir qayda olaraq cavab verirdi ki, təsdiq edilmiş köçürmə qrafikindən kənara çıxmaq olmaz.

---

[130] ARDA, f. 411, siy. 9, iş 734, v. 71-74.

Arxiv sənədlərinə nəzər saldıqda məlum olur ki, 1948-ci ildə İrəvan şəhərinin Stalin, Kirov, Molotov və Spandaryan rayonlarında yaşayan 437 ailə (1886 nəfər) Azərbaycana köçürülmüşdü. 1949-cu ildə isə İrəvan şəhərinin Beriya rayonundan 8 ailə (39 nəfər) Azərbaycana köçürülmüşdü. 1950-ci ildə İrəvan şəhərinin Stalin, Kirov, Spandaryan,və Mikoyan rayonlarından 43 ailə (181 nəfər) Azərbaycana köçürülmüşdü. 1951-ci ildə isə İrəvan şəhərindən daha 9 ailə (42 nəfər) Azərbaycana deportasiya edilmişdi. 1952-ci ildə İrəvan şəhərindən 22 ailə (73 nəfər) deportasiya edilmişdi. 1953-ci ildə də İrəvan şəhərindən 22 ailə (73 nəfər) deportasiya edilmişdi. Ümumiyyətlə, 1948-1953-cü illərdə İrəvan şəhərindən 541 ailə (2294 nəfər) Azərbaycana deportasiya edilmişdi [131].

İrəvan şəhərindən deportasiya edilən azərbaycanlılar Bakının əsasən Maştağa və Əzizbəyov rayonlarında, Kirovabad (Gəncə) şəhərində, Sabirabad, Xanlar (Göygöl), Şamxor (Şəmkir), Quba, Jdanov (Beyləqan), Dəstəfur (Daşkəsən), Yevlax, Sabirabad, Saatlı və Salyan rayonlarında məskunlaşdırılmışdı.

Köçürülənlər əsasən onların Ermənistanda yaşadıqları rayonların iqlim şəraitinə uyğun olmayan Zərdab, Əli-Bayramlı, Kürdəmir, Göyçay, Mirbəşir (Tərtər), Salyan, İmişli, Sabirabad, Jdanov (Beyləqan), Yevlax, Ucar, Saatlı rayonlarında yerləşdirilmişdilər ki, onların da bir qismi yoluxucu xəstəliklərə düçar olaraq tələf olmuşdular.

Köçürülənlər üçün yeni mənzillər tikilib istifadəyə verilmədiyindən onlar əsasən ictimai binalarda, yararsız tikililərdə, anbarlarda, tövlələrdə, yerli əhalini sıxışdırmaq yolu ilə onların mənzillərində yerləşdirilmişdi. 1948-1950-ci illərdə Ermənistandan köçürülmüş 8110 ailədən yalnız 3232-si yaşayış evləri ilə təmin olunmuşdu.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri T. Quliyev SSRİ Nazirlər Soveti qarşısında vəsatət qaldırmışdı ki, sonrakı illərdə

---

[131] Mustafa Nazim. İrəvan şəhəri. Bakı, 2020, s.99.

köçürmə planı aşağıdakı kimi müəyyən edilsin: 1951-ci ildə 10.000 nəfər, 1952-ci ildə 20.000 nəfər, 1953-cü ildə 20.000 nəfər, 1954-cü ildə 15.000 nəfər[132]. Lakin 1951-ci ildə 911 təsərrüfat (3714 nəfər), 1952-ci ildə 1257 təsərrüfat (5512 nəfər), 1953-cü ildə 1898 təsərrüfat (8254 nəfər) köçürülmüşdü[133].

Ermənistandan azərbaycanlıların deportasiyası başa çatdırıldıqdan sonra digər bir prosesə start verildi. Ermənistanda yaşayan əhalinin azalmasını bəhanə edərək rayon və respublika miqyasında müəyyən vəzifələr tutan azərbaycanlı kadrların ermənilərlə əvəz edilməsi aksiyası həyata keçirildi. İlk növbədə bu proses paytaxt İrəvandan başlandı. Ermənistan KP MK-nın sənaye və nəqliyyat məsələləri üzrə katibi (sonralar şöbə müdiri) Məmməd İsgəndərov, kənd təsərrüfatı şöbəsi müdirinin müavini Rəhim Allahverdiyev, Mərkəzi Komitənin məsul işçisi Cümşüd Sultanov, kənd təsərrüfatı nazirinin müavini Hüseyn Məmmədov vəzifələrindən azad edildilər. Ermənistan SSR Ali Soveti sədrinin müavini Mirzə Bəşirov Ali Sovetin 9 aprel 1949-cu il tarixli sessiyasının qərarı ilə tutduğu vəzifədən azad edildi. Onların bəzilərini ali partiya təhsili almaq üçün Bakıya göndərdilər ki, bir daha geri qayıtmaq şansları olmasın.

Qarabağlar, Vedi, Zəngibasar, Krasnoselsk rayonlarının partiya komitələrinin azərbaycanlı birinci katibləri, digər 10 rayonda isə ikinci və üçüncü katibləri vəzifədən azad edərək yerlərinə erməniləri təyin etdilər. Amasiya, Basarkeçər və Krasnoselsk rayonlarından başqa yerdə qalan rayonlarda Azərbaycan dilində çıxan qəzetlər bağlandı.

1953-cü ildə İ.Stalinin ölümündən sonra Ermənistandan azərbaycanlıların köçürülməsinin sürəti azalmışdır. Köçürül-dükləri rayonlarda lazımi şəraitin yaradılmaması, ailələrin mənzillə və işlə təmin edilməsindəki problemlər əhalinin bir qisminin geriyə qayıtmasına səbəb olmuşdur.

---

132 ARDA, f. 411, siy.28, iş. 78, v. 51-52.
133 Nəcəfov Bəxtiyar. Deportasiya. Bakı, 2006, s. 230-231.

İrəvan şəhərindən köçürülən azərbaycanlıların evlərində xaricdən gələn ermənilər məskunlaşdığı üçün onların heç biri geri qayıda bilməmişdi.

1948-53-cü illər deportasiyası nəticəsində İrəvan şəhərinin azərbaycanlı əhalisi yarıbayarı azalmışdı. Bunu 1939-cu ildə keçirilən siyahıyaalma zamanı İrəvan şəhərində 6569 nəfər azərbaycanlının qeydə alınması müqabilində, 1959-cu ildə 3413 nəfər azərbaycanlının qeydə alınması əyani göstərir[134] (1949-cu ildə siyahıyaalma keçirilməməşdir).

Cəfər Cabbarlının adını daşıyan İrəvan Dövlət Azərbaycan Dram Teatrı da azərbaycanlıların deportasiyası haqqında qərarların neqativ təsirlərinə məruz qalmışdı. Lakin deportasiya illərinin hər cür təzyiq və sıxıntılarına baxmayaraq, teatr 1948-1949-cu illərdə "Məşədi İbad", "Leyli və Məcnun", "Eşq və İntiqam", "Şah İsmayıl" kimi əsərləri tamaşaya qoymuşdu. Bütün bunlara baxmayaraq, 1949-cu ildə teatr azərbaycanlıların yaşamadığı Basarkeçər rayonunun mərkəzinə köçürülmüş, 1952-ci ildə isə maliyyələşdirilməməsi səbəbindən bağlanmışdı. Teatrın istedadlı kollektivinin üzvləri Bakı və Gəncə teatrlarında özlərinə yeni iş yerləri tapmaq məcburiyyətində qalmışdılar. İrəvan teatrı düz 15 ildən sonra - yəni 1967-ci ildə yenidən İrəvanda fəaliyyətini bərpa etmişdi[135].

1954-cü ilin sentyabrına olan məlumata görə, Ermənistandan Kür-Araz ovalığına köçürülən 1000-dən artıq ailə mənzillə təmin edilməmişdir, 3734 ailə köçürüldükləri rayonları özbaşına tərk etmiş, onlardan 2141 ailə Ermənistana geri qayıtmışdır[136].

Bununla yanaşı azərbaycanlıların Ermənistandan deportasiyası davam etdirilmişdir. Azərbaycan SSR Nazirlər Sovetinin yanında Köçürülmə üzrə Baş İdarənin məlumatına görə, 1954-cü

---

[134] Nazim Mustafa. İrəvan şəhəri. 2020, s.101.

[135] Mustafa Nazim, Qurbanov Araz, Əlili Elşad. Erməni saxtakarlığı. Yalan üzərində qurulan tarix. Bakı, 2018, s.167.

[136] ARDA, f. 411, siy. 36, iş 277, v. 125-150.

ildə 749 təsərrüfat (3368 nəfər), 1955-ci ildə 207 təsərrüfat (965 nəfər), 1956-cı ildə 360 təsərrüfat (1543 nəfər) köçürülmüşdür [137].

1948-1953-cü illərdə Ermənistandan SSR-dən Azərbaycana köçürülmüş azərbaycanlı əhalinin dəqiq qeydiyyatı aparılmadığından, köçürülən əhalinin sayı haqqında müxtəlif rəqəmlər ifadə edilir. Ermənistandan icazəsiz və kortəbii köçənlərin də dəqiq statistikası aparılmamışdır. Azərbaycan SSR Nazirlər Sovetinin yanında Köçürmə İdarəsi Azərbaycan SSR-ə köçürülən və özbaşına köçənlərin ümumi sayını deyil, yalnız Kür-Araz ovalığına köçənlərin uçotunu aparmışdır [138].

Araşdırmalar göstərir ki, azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından köçürülməsi (deportasiyası) haqqında SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarı artıqlaması ilə yerinə yetirilmişdir. Həmin qərarla Ermənistanın 22 rayonundan 100 min azərbaycanlının köçürülməsi nəzərdə tutulmuşdusa, əslində, adi insan hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları zorakı üsullarla həyata keçirilmiş, 24 rayondan 200-dən artıq yaşayış məntəqəsindən azərbaycanlılar öz tarixi-etnik torpaqlarından deportasiya edilmişdir.

Deportasiya nəticəsində Ermənistan rəhbərləri Əştərək, Martuni (Qaranlıq), Qarabağlar, Abovyan (Ellər), Eçmiədzin rayonlarından azərbaycanlıların izinin silinməsinə nail oldular. Sonra isə Qarabağlar rayonu ləğv edildi və hazırda bu rayonun kəndlərinin əksəriyyəti xaraba qalmışdır.

Ermənistandan azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar o dövr Ermənistan mətbuatı, o cümlədən "Sovet Ermənistanı" qəzeti heç bir yazı dərc etməmişdir. 1948-1953-cü illərdə "Sovet Ermənistanı" qəzetinin səhifələrində yalnız onu

---

[137] Nəcəfov Bəxtiyar, göstərilən əsəri, s.231.

[138] Paşayev Ataxan. Köçürülmə. Bakı, 1995, s. 21.

müşahidə etmək olur ki, kəndlərdə əhalinin milli tərkibi tədricən dəyişir, müsəlman kəndləri erməni kəndlərinə çevrilir.

Ümumiyyətlə, azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistandan deportasiyası nəticəsində bir çox yaşayış məntəqələri ləğv edilmiş, 60-dan artıq yaşayış məntəqəsinin adı "erməniçələşdirilmişdir[139].

SSRİ hökumətinin azərbaycanlıların köçürülməsi haqqında verdiyi qərarlar Ermənistan hökumətinə fürsət verdi ki, İrəvan şəhəri ətrafında və Ermənistanın İran və Türkiyə ilə sərhədləri boyunca mövcud olan azərbaycanlı yaşayış məntəqələrinin əksəriyyətini yer-yurdlarından deportasiya etmək yolu ilə birdəfəlik xəritədən silə bilsin.

SSRİ Ali Soveti 14 noyabr 1989-cu ildə “Zorla köçürülmüş xalqlara qarşı repressiya tədbirlərinin qanunsuz və cinayətkar tədbirlər hesab edilməsi və onların hüquqlarının təmin olunması haqqında” bəyannamə və SSRİ Nazirlər Soveti buna müvafiq olaraq xüsusi qərar qəbul etmişdir. Həmin bəyannamədə bütöv xalqları zorla köçürmək praktikasını beynəlxalq hüququn əsaslarına, sosializm quruluşunun humanist təbiətinə zidd olan ən ağır cinayət kimi qətiyyətlə pisləmiş, repressiyaya məruz qalmış bütün Sovet xalqlarının hüquqlarının bərpası üçün müvafiq qanunvericilik tədbirlərinin görülməsi zəruri hesab edilmişdi. SSRİ Ali Sovetinin 14 mart 1991-ci il tarixli qərarı ilə repressiya olunmuş xalqların qanuni hüquqlarının bərpa edilməsi haqqında qərar qəbul etmişdir. Lakin adları çəkilən sənədlərdə deportasiya olunmuş xalqların sırasında Ermənistandan deportasiya olunan azərbaycanlıların adı çəkilməmişdir. Ona görə də indiki Ermənistan ərazisindən deportasiya edilmiş soydaşlarımızın öz tarixi vətənlərinə qayıtmaq hüququ tanınmadı və xalqımıza qarşı edilən tarixi ədalətsizlik bərpa olunmadı. Bu, keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı qərəzli münasibətindən irəli gəlirdi.

---

[139] Vandalizm: tarixi adlara qarşı soyqırımı. Tərtib edəni Nazim Mustafa, Bakı, 2014, s. 13.

Azərbaycan xalqına qarşı tarixi cinayət kimi qiymətləndirilən bu aksiyaya hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 18 dekabr 1997-ci ildə "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzalamışdır. Həmin fərmanla SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli və 1948-ci il 10 mart tarixli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı kimi xarakterizə edilmişdir. Fərmanda qeyd edilir ki, 1948–1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün ounmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmədiyi, minlərlə insanın, o cümlədən qocaların və körpələrin ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olduqları qeyd edilmişdir. Erməni şovinist dairələri və SSRİ rəhbərliyi ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin də həmin cinayətlərin həyata keçirilməsində oynadıqları rol pislənilmişdir.

## 1987-1991-ci illər etnik təmizləmə mərhələsi

Bu mərhələ Ermənistandan azərbaycanlıların **etnik təmizlənməsinin** başa çatdırılması mərhələsi kimi xarakterizə edilir.

Ermənistanda antitürk, antimüsəlman təbliğatı 1960-cı illərin ortalarında yenidən var gücü ilə işə salınmışdı. Uydurma "erməni soyqırımı"nın 50 illiyinin qeyd edilməsi haqqında qərarın qəbul edilməsi erməni şovinizmini daha da qızışdırmışdı. 1965-ci ildən etibarən hər il aprelin 24-ü rəsmi olaraq "genosid" günü kimi qeyd edilir. Həmin günlər Ermənistanda yaşayan azərbaycanlılar üçün qorxulu gün hesab edilirdi. Ermənilər şəhərin küçə və bazarlarında azərbaycanlıları döyür, təhqir edirdilər.

"Ermənistan partiya təşkilatında Sov.İKP MK-nın 1983-cü il iyun plenumunun qərarının yerinə yetirilməsi haqqında" Sov.İKP MK-nın 17 oktyabr 1984-cü il tarixli qərarında deyilirdi ki, son vaxtlarda Ermənistanda millətçilik əhval-ruhiyyəsini qızışdıran əsərlər yazılır, tarixi həqiqətlər təhrif edilir, azlıqda qalan millətlərin dilinin və mədəniyyətinin inkişafına imkan yaradılmır, partiya, sovet və təsərrüfat strukturlarında onların nümayəndələri təmsil olunmurlar və s.

Azərbaycan xalqının qəddar düşməni Zori Balayanın 1984-cü ildə "Ocaq" kitabının dərc edilməsi Ermənistanda azərbaycanlılara qarşı düşmənçilik hisslərinin açıq-aşkar qızışmasına səbəb oldu.

Mixail Qorbaçovun 1985-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi seçiləndən sonra Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin öz müqəddəratını təyin etməsi pərdəsi altında Azərbaycana qarşı anneksiya planı işlənib hazırlanmışdı. Ermənistanın Azərbaycana qarşı anneksiya planının həyata keçirilməsinə maneçilik törədə biləcək yeganə şəxs – Heydər Əliyev 1987-ci ilin oktyabrında erməni lobbisinin təzyiqi ilə keçmiş Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin 1-ci müavini vəzifəsindən uzaqlaşdırıldı. Noyabrın 18-də Sov.İKP MK-nın baş katibi

M. Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik Abel Aqanbekyan Parisdə "L'Humanite" qəzetinə verdiyi müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan etdi[140]. Beləliklə, münaqişənin və etnik təmizləmənin sonuncu mərhələsinə ermənilər tərəfindən start verildi.

Ermənilərin azərbaycanlı yaşayış məntəqələrinə basqınları nəticəsində 1987-ci ilin dekabr, 1988-ci ilin yanvar ayında Ermənistan SSR-in Qafan və Meğri rayonlarından ilk azərbaycanlı qaçqınlar qatarla Azərbaycana gəlmiş, onlar Abşeron rayonunda yerləşdirilmişdilər. Lakin bu, ictimaiyyətdən gizli saxlanılmışdı.

1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin yalnız erməni deputatların iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın inzibati-ərazi böl-güsünə daxil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti DQMV Xalq Deputatları Sovetinin konstitusiyaya zidd qərarını rədd etdikdən sonra, Ermənistanın millətçi rəhbərləri "Daşnaksutyun" partiyasının "Türksüz Ermənistan" proqramını həyata keçirməyə başladılar. 1988-ci il fevralın 27-28-də Dağlıq Qarabağda və Ermənistanda azərbaycanlılara qarşı edilən zorakılıqlara etiraz əlaməti olaraq keçirilən mitinqdən sonra DTK-nın ssenarisi və erməni ekstremistlərinin bilavasitə iştirakı ilə Sumqayıtda kütləvi iğtişaşlar törədildi. Bundan sonra Ermənistandan azərbaycanlıların yeni qaçqınlıq dalğası başladı.

Ermənistandan azərbaycanlıların deportasiyasının qarşısını almağın mümkünsüzlüyünü görən Azərbaycan KP MK qaçqınlarla iş aparmaq məqsədilə martın 1-də Mərkəzi

---

[140] де Ваал Томас. Черный сад. Армения и Азербайджан между миром и войной. Москва, 2005, с. 42.

Komitənin katibi Həsən Həsənovun sədrliyi ilə respublika komissiyası yaratmışdı[141].

Ermənistanda yaşayan azərbaycanlıların vəziyyətini öyrənmək, onların problemlərini həll etmək məqsədilə Azərbaycan KP MK-nın katibi Ramiz Mehdiyevin başçılığı ilə İrəvana nümayəndə heyəti göndərilmişdi. 13-15 aprel 1988-ci il tarixində Ermənistanda olmuş nümayəndə heyəti iki dəfə Ermənistan KP MK-nın birinci katibi Karen Demirçyanla görüşmüşdü. Lakin verilən vədlərə baxmayaraq, azərbaycanlılara qarşı edilən zorakılıqlara və onların deportasiyasına son qoyulmamışdı.

Ermənistandan qovulan azərbaycanlılar Azərbaycan KP MK-ya gələrək, onların Dağlıq Qarabağda məskunlaşdırılmalarını xahiş edirdilər. Azərbaycan rəhbərləri isə nəinki onlara bu şəraiti yaradır, əksinə, onları DQMV-nin ərazisinə buraxmamaq haqqında hüquq-mühafizə orqanlarına tapşırıqlar verirdilər[142].

11 may 1988-ci ildə ermənilər Ararat (Vedi) rayonunun Şirazlı kəndinə hücum etmiş, iki nəfər qətlə yetirilmiş, onlarla şəxs yaralanmış, evlər yandırılmışdı. Əhali Sovet-Türkiyə sərhədinə çəkilərək uzun müddət çadırlarda yaşamaq məcburiyyətində qalmışdı[143].

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək SSRİ Ali Sovetinə müraciət etdi ki, buna razılıq versin. Azərbaycan SSR Ali Soveti iyunun 17-də bu qanunsuz tələbi rədd etdikdən sonra Ermənistandakı azərbaycanlıların vəziyyəti daha da ağırlaşdı. İyunun 17-20-də İrəvanda teatr

---

141 Багиров Маис, Вердиева Хаджар. В поисках истины : лицо армянства: Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики: документы свидетельствуют... Баку, 2011, с. 466.

142 Yenə orada, c. 481.

143 İsmayıl Eldar. Ermənistan türklərinin 1988-ci il soyqırımı. Bakı, 2014, s. 62-63..

meydanında mitinqə toplaşan qeyzlənmiş erməni dəstələri avtobuslarla azərbaycanlılar yaşayan Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçilər, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər. Müdafiəsiz on mindən çox azərbaycanlı Sovet-Türkiyə sərhədinə toplaşmış, günlərlə orada gecələməyə məcbur olmuşdu. Həmin günlər 20-dən çox azərbaycanlı yaralanmışdı. Rayon mərkəzi Uluxanlı qəsəbəsindən 3 mindən çox azərbaycanlı evlərindən çıxarıldı. Bütün bu iğtişaşlar zamanı SSRİ Daxili İşlər Nazirliyinin rayonda olan qüvvələri yalnız müşahidəçi rolunu oynayırdılar.

1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət heyətinin iclası DQMV haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi haqqında qərar qəbul etdikdən sonra erməni millətçiləri azərbaycanlıların Ermənistan ərazisindən çıxarılması üçün hər yerdə mitinqlər təşkil etməyə başladılar.

Rusiya tarixçisi Yuri Pompeev 1988-ci ilin payızında azərbaycanlıların Ermənistandan deportasiyasını belə təsvir edir: "Müdafiəsiz, silahsız azərbaycanlıları, adətən, çılpaq və əliyalın evlərindən qovaraq deyirdilər: "Lənətə gəlmiş türklər, rədd olun Er-mənistandan!"" [144].

Noyabrın 22-də Ermənistan SSR Ali Sovetinin azərbaycanlı deputatların iştirakı olmadan keçirilən növbədənkənar sessiyası zamanı rayon rəhbərlərinə tapşırıq verilmişdi ki, bir həftə ərzində, yəni noyabrın 28-dək Ermənistanı azərbaycanlılardan təmizləmək aksiyasını başa çatdırsınlar. Deportasiyanı müəyyən olunmuş müddətdə başa çatdırmaq üçün Kalinino, Spitak, Quqark, Noyemberyan, Krasnoselsk, Vardenis, Yağeqnadzor, Əzizbəyov, Ararat, Masis, Qafan, Sisian və Meğri rayonlarının rəhbərləri xüsusilə canfəşanlıq göstərmişdilər.

---

[144] Помпеев Ю.А. Кровавый омут Карабаха. Баку, 1992, с. 82.

Ermənistan SSR Ali Sovetinin, Nazirlər Sovetinin və KP MK-nın orqanı olan "Kommunist" qəzeti "Fəlakət anı, məsuliyyət anı" məqaləsində həmin dövrü belə səciyyələndirirdi: "Qarabağ" komitəsi avantüristlərinin çağırışına millətçilik azarına tutulmuş bir sıra partiya-sovet işçiləri də qoşulmuşlar. Ayrı-ayrı rayonlarda millətlərarası qırğına sürükləyən coşmuş ehtirasları cilovlamaq, vətəndaşları müdafiə etmək, təxribatçıları ifşa etmək əvəzinə, onlar adamların (*yəni azərbaycanlıların*) kütləvi surətdə çıxarılmasına fitva verdilər. Bu cür "missiya" ilə bəzi "xadimlər" Kirovakanda, Stepanavanda, Artaşatda evləri bir-bir gəzirdilər" [145].

Ermənistan EA-nın müxbir üzvü, "Qarabağ hərəkatı"nın liderlərindən biri Rafael Kazaryan 1988-ci il noyabrın 4-də İrəvanda keçirilən mitinqdə demişdi: "Dəstələrin köməyi ilə emiqrasiyanı təmin etmək lazımdır. Bizə bütün onilliklər ərzində ilk dəfə Ermənistanı təmizləmək imkanı verilmişdir. Mən bunu bu on aylıq mübarizəmizin ən böyük nailiyyəti hesab edirəm" [146].

Ermənistan KP MK, Ali Sovet və Nazirlər Sovetinin orqanı olan "Kommunist" (rusca) qəzeti 13 dekabr 1988-ci il tarixli sayında dərc edilən "Fəlakət anı, məsuliyyət anı" məqaləsində həmin günlərdə törədilən qırğınlardan bəhs edərək yazırdı: "Noyabrın 26-da "Qarabağ" hərəkatı fəallarının təhrikçi çıxışlarından qızışmış 500 nəfər Kirovakan (*keçmiş Böyük Qarakilsə, indiki Vanadzor)* sakini Şaumyan (*əvvəlki adı Vartanalı olmuşdur*) kəndinə doğru hərəkət etdi. Vuruşma iki gün davam etdi, silahlı atışma oldu. Ölənlər var. Kuybışev kəndində də qırğınlar törədildi, orada da tələfat var. Hərəkatın fəallarının köməyi ilə yaradılmış "özünümüdafiə dəstələri" yollarda qoyduqları postlarda azğınlıqlar törədirdilər.

---

145 Час беды и час ответственности. Газ. «Коммунист», Ереван, 13 декабрь, 1988, № 290.

146 Армения двадцать месяцев борьбы (Сборник выступлений). Ереван, 1989, с. 15.

Azərbaycanlı kəndlərinə ərzaq köməyi göstərən ermənilər döyülürdülər."

Ermənilər Kirovakan şəhərinə bitişik Vartanlı kəndində ən vəhşi üsullarla azərbaycanlıları kütləvi surətdə qətlə yetirmiş, evləri qarət etmiş və yandırmışdılar. Kəndə basqın zamanı ermənilər 14 nəfəri vəhşicəsinə qətlə yetirmişdilər. Kəndin sağ qalan əhalisi qarlı-çovğunlu günlərdə gündüzlər dağlarla, meşələrlə gizlənmiş. Yalnız gecələr yol gedərək 13-14 gün ərzində gəlib Azərbaycana çatmışdılar. Təəssüf ki, dünya ictimaiyyəti ermənilərin 1988-ci ildə də Vartanlı kəndində azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərdən xəbər tutmamışdır.

Vanadzor (keçmiş Kirovakan) şəhərində yaşayan jurnalist Mane Papyanın 29 aprel 2015-ci il tarixində www.epress.am saytında "События в Гугарке. Как громили азербайджанцев в Армении" başlıqlı yazısı yerləşdirilib. Mane Papyan faciəli hadisələrin baş verdiyi Vartanlı kəndinə gedərək hadisənin canlı şahidləri ilə söhbət edib. Həmin məqalədə Vartanalı qırğınlarının baş verdiyi zaman Kirovakan şəhər prokuroru olmuş Qriqori Şahverdyanın jurnalistə verdiyi məlumatlardan aydın olur ki, Sumqayıt hadisələri ərəfəsində Ermənistanda milli münasibətlər gərginliyinin pik həddinə çatıbmış. Şahverdyanın dediyinə görə, 1988-ci ilin mart-noyabr aylarında Quqark rayonunda 634 azərbaycanlının işdən qovulmaları barəsində onun əlində rəsmi sənəd vardır. Qriqori Şahverdiyanın sözlərinə görə, həmin günlərdə Kirovakan şəhərində 7 azərbaycanlının qətlə yetirilməsi faktı istintaq materiallarında öz əksini tapıb [147].

1988-ci il noyabrın 28-də Spitak rayonunun erməni rəhbərləri azərbaycanlılar yaşayan Saral və Qusarlı kəndlərinə gəlib bildirmişdilər ki, onların təhlükəsizliyinə təminat vermirlər, ona görə də əgər iki saat ərzində kəndi tərk etməsələr, silahlı dəstələr kəndə hücum edəcəklər. Onlar özləri ilə 34 avtobus və 40

---

[147] События в Гугарке. Как громили азербайджанцев в Армении. Epress.am (29.04 2015).

yükünü özüboşaldan maşın gətirmişdilər. Onların göstərişi ilə bir dəstə erməni sahiblərinin gözü qarşısında ev əşyalarını həyətə çıxarıb, od vururlar. Əhalini zorla avtobuslara mindirərək kəndlərdən çıxarırlar. Həmin avtobusları Spitak rayonun ərazisindən kənarda - Quqark rayonunun Həmzəçimən (*Mrqahovit*) kəndi yaxınlığında silahlı dəstələr gözləyirdilər. Pusquda durmuş quldurların avtobusları atəşə tutması nəticəsində 3 nəfər - Balacayev Şahin Səyyad oğlu, Balacayev Teymur Məsim oğlu və Balacayeva Sürəyya Hüseyn qızı həlak olmuş, 7 nəfər ağır yaralanmışdı.

Ermənistanda azərbaycanlılara qarşı dəhşətli cinayətlər törədilən rayonlardan biri də Cəlaloğlu (*Stepanavan*) rayonudur. Kuybışev kəndinin sakinləri Təmraz Yusif oğlu İsgəndərov, Gilas Rüstəm qızı Xəlilova, Şərif Cabbar oğlu Xəlilov vəhşicəsinə döyülmüş və soyuq silahla qətlə yetirilmişlər. Gərgər kənd sakini, Puşkino kolxozunun sağıcısı Bəsti İsrafil qızı Mustafayeva isə Ermənistanda baş vermiş dəhşətli zəlzələdən sonra, yəni bütün dünyanın Ermənistanın halına ağladığı bir vaxtda, 30 dekabr 1988-ci ildə diri-diri yandırılmış və meyiti zibillikdə gizlədilmişdi. Xeyli müddətdən sonra onun meyiti hərbçilərin köməyi ilə tapılmışdı.

Müvafiq sənədlər və şahid ifadələri əsasında 1990-cı ildə Azərbaycan Qaçqınlar Cəmiyyətində tərtib edilmiş siyahıya əsasən, 1988-1990-cı illər ərzində Ermənistanda 216 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş və ya millətlərarası münaqişə zəminində baş vermiş hadisələr nəticəsində həlak olmuşdur. Həmin siyahıya əsasən, 52 nəfər aldığı xəsarət nəticəsində ölmüş, 34 nəfər işgəncə ilə öldürülmüş, 20 nəfər odlu silahla qətlə yetirilmiş, 15 nəfər yandırılmış, 8 nəfər maşınla vurulmuş, 9 nəfər yollarda qəzaya uğradılmış, 7 nəfər həkim qəsdi nəticəsində, 9 nəfər dəhşətli hisslərdən keçirdiyi infarkt nəticəsində ölmüş, 2 nəfər intihar etmiş, bir nəfər asılmış, 2 nəfər maşın partladılması nəticəsində, bir nəfəri elektrik cərəyanı ilə, bir nəfəri suda boğub öldürmüşdülər, 6 nəfər itkin

düşmüş, 20 nəfər xəstəxanadan yoxa çıxmış, 48 nəfər isə dağlarda borana düşüb həlak olmuşlar[148].

1990-cı ilin avqustun 9-da Azərbaycan Respublikasının Ali Soveti Qaçqınlar Cəmiyyətində tərtib edilən siyahını və digər faktları məktubla SSRİ Prokurorluğuna göndərmiş və Ermənistanda milli münaqişələr zəminində qətlə yetirilmiş azərbaycanlılar haqqında məlumat verməyi xahiş etmişdi. SSRİ Baş Prokurorunun müavini V.İ.Kvartsovun 4 oktyabr 1990-cı il tarixli cavab məktubunda deyilirdi: "Sizin məktubunuzla əlaqədar olaraq bildirirəm ki, 1988-1989-cu illərdə Ermənistan SSR-də milli zəmində baş verən cinayət faktları üzrə 675 cinayət işi qaldırılmışdır, onlardan 283-ü istintaq aidiyyəti üzrə Azərbaycana göndərilmişdir. Eyni zamanda Azərbaycan SSR-dən Ermənistana təhqiqat üçün 138 cinayət işi daxil olmuşdur. 1989-cu il dekabrın 31-nə olan məlumata görə Ermənistanın hüquq-mühafizə orqanlarının icraatında olan bu qəbildən 530 cinayət işindən 200 iş üzrə cinayət açılmamış və istintaq dayandırılmışdır...

Ermənistan Prokuroruna tapşırılmışdır ki, bu işlər üzrə aparılan istintaqın tamlığını və obyektivliyini yoxlasın, onun başa çatdırılması üçün tədbirlər görsün. Günahkarların müəyyənləşdirilməməsi üzündən istintaqın xitam verilmiş işləri araşdırmaq və istintaqı təzələmək məsələsinin mümkünlüyünü öyrənmək tapşırığı da verilmişdir. Ermənistan məhkəmələrinə milli nifaq zəminində baş vermiş 91 müttəhim barəsində cəmisi 53 cinayət işi göndərilmişdir. 48 iş üzrə 82 nəfər mühakimə olunmuş, onlardan 30 nəfər müxtəlif müddətdə azadlıqdan məhrum edilmişdir.

SSRİ Prokurorluğu cinayətlərin açılmasına nəzarət edir və zəruri kömək göstərir"[149].

---

148 Arzumanlı Vaqif, Mustafa Nazim. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, 1998, s. 145.

149 Həsənli Həsən. Faciələrin xronikası yaradılmalıdır. "Vətən səsi" qəzeti, 1 avqust 1991.

Əslində, SSRİ Prokurorluğu bununla da öz işini bitmiş hesab etmişdi.

Moskvanın ermənilərə arxa durması nəticəsində 1988-1989-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 172 təmiz və 89 ermənilərlə qarışıq yaşayış məskənləri boşaldıldı. Er-mənistanın Meğri rayonunun Zəngilan rayonu ilə həmsərhəd bölgəsində qalmış axırıncı azərbaycanlı kəndi – Nüvədi də 1991-ci il avqustun 8-də boşaldıldı. Ümumiyyətlə, həyata keçirilən sonuncu etnik təmizləmə nəticəsində Ermənistanın 22 kənd rayonundan, 6 şəhərindən təqribən 250 min azərbaycanlı (49.928 ailə) tarixi-etnik torpaqlarından vəhşicəsinə qovuldu [150].

Ümumiyyətlə, son 200 ildə indiki Ermənistan ərazisində iki mindən artıq azərbaycanlı yaşayış məntəqəsi müxtəlif yollarla (deportasiyalarla, silah gücünə qovmaqla, soyqırımı törətməklə, kəndləri yandırıb xaraba qoymaqla və s.) siyahıdan silinmiş, tarixi Azərbaycan torpaqlarında monoetnik Ermənistan dövləti yaradılmışdır.

Ulu Öndər Heydər Əliyev Qərbi Azərbaycanda avtoxton azərbaycanlı əhaliyə qarşı erməni millətçilərinin, erməni şovinizminin həyata keçirdiyi etnik təmizləmə siyasətinin nəticəsi haqqında demişdir: "İndi Ermənistan adlanan ərazidən islamın bütün izləri təəssüflər olsun ki, silinibdir. Yəni o ərazidə qədim zamanlardan müsəlmanlar, azərbaycanlılar yaşamışlar... İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da

---

[150] Ələkbərli Əziz. Qərbi azərbaycanlıların 1988-ci il soyqırımı: sənədlərin dili ilə. Bakı, 2008, s. 7.

Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir” [151].

“Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanı xalqımıza qarşı törədilmiş bütün soyqırımı faciələrini yad etmək məqsədilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir. Həmin fərmanla Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etdiyi qeyd edilmişdir.

---

[151] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab. Bakı, 2006, s. 376.

# TOPONİMLƏRƏ QARŞI CİNAYƏT

1827-ci ildə İrəvan və Naxçıvan xanlıqlarının Rusiya tərəfindən işğalından sonra yaradılan yeni inzibati-ərazi vahidində yəni - "Erməni vilayəti"nin ərazisinə daxil edilən 1111 kənddən yalnız 62 kənddə ermənilər yaşayırdı. Onlar da 1828-ci ilədək buraya köçürülmüş ermənilər idi. Göstərilən 62 kəndin ancaq 14-nün adı erməni mənşəli idi [152].

1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra türkmənşəli toponimlərin erməniçələşdirilməsi prosesi davam etdirilmişdir. İlk illərdə yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi Torpaq Komitəsinə həvalə edilmişdi. 1935-ci ilədək Ermənistanda 200-ə yaxın yaşayış məntəqəsinin (oykonimlərin) adları dəyişdirilmişdir. 1935-ci ildən etibarən azərbaycanlı yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi Ermənistan SSR Ali Sovet Rəyasət heyətinin qərarları ilə həyata keçirilmişdir [153].

Sovet hakimiyyəti dövründə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları əsasında 1935, 1938, 1939, 1940, 1946, 1947, 1948, 1949, 1950, 1957, 1962, 1968, 1969, 1977, 1978, 1980-ci illərdə addəyişmə əməliyyatları həyata keçirilmişdir.

Azərbaycanlıların 1948-1953-cü illərdə Ermə-nistandan deportasiyası nəticəsində bir çox yaşayış məntəqələri ləğv edilmiş, 60-dan artıq yaşayış məntəqəsinin adı "erməni-cələşdirilmişdir. Təkcə 1978-ci ildə 23 rayonda 60 türkmənşəli toponim dəyişdirilmişdir [154].

1920-1988-ci illərdə indiki Ermənistan ərazisində 517 türkmənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir.

---

[152] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009, s. 461.

[153] Армянская ССР. Административно-территориальное деление на 1-ое августа 1988 года. Ереван, 1988.

[154] Vandalizm: tarixi adlara qarşı soyqırımı. Bakı, 2014, s. 13.

1918-1987-ci illərdə indiki Ermənistan ərazisində 254 azərbaycanlı yaşayış məntəqəsi müxtəlif yollarla (əhalisi soyqırımına məruz qoyulmaqla, deportasiya edilməklə və s.) yaşayış məntəqələri siyahısından silinmişdir [155].

1987-1989-cu illərdə Ermənistan ərazisində azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirildikdən sonra Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin 1991-ci il 9 aprel tarixli fərmanı ilə 90 yaşayış məntəqəsinin, 8 avqust 1991-ci il fərmanı ilə 16 yaşayış məntəqəsinin, Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə isə əvvəllər azərbaycanlılara məxsus olmuş, 31 yaşayış məntəqəsinin adları dəyişdirilərək erməniçələşdirilmişdir.

Ümumiyyətlə, 2024-cü ilədək 717 türkmənşəli inzibati-ərazi vahidinin adları dəyişdirilmişdir

Lakin Ermənistan ərazisində hidronimlərin və oronimlərin adlarının dəyişdirilməsi prosesi sovet hakimiyyəti illərində mütəmadi olaraq davam etdirilmişdir. Məsələn, Göycə gölünü “Sevan”, Zəngi çayını “Hrazdan”, Arpaçayı “Axuryan”, Alagöz dağını “Araqats”, İşıxlı dağını “İşxanasar”, Ağbaba dağını “Qukasyan”, Dərəçiçək yaylağını “Tsaxkadzor” adlandırmışdılar və s.

7 noyabr 1995-ci ildə Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında yeni qanuna əsasən həmin vaxtadək mövcud olan rayonlar üzrə bölgü ləğv edilmiş, əvəzində 11 vilayət (marz) yaradılmışdır. **Şirak** vilayətinə keçmiş Amasiya (Ağbaba), Qukasyan (Qızılqoç), Axuryan (Düzkənd), Ani (Ağin) və Artik rayonları, **Lori** vilayətinə keçmiş Kalinino, Stepanavan (Cəlaloğlu), Tumanyan (Allahverdi), Spitak (Hamamlı) və Quqark rayonları, **Tavuş** vilayətinə keçmiş Noyemberyan, İcevan (Karvansara) və Tauş (Şəmşəddin) rayonları, **Araqadzon** vilayətinə keçmiş Talın,

---

[155] Rəhimoğlu Həbib. Silinməz adlar, sağalmaz yaralar... Bakı, 1997, s. 125-130.

Aparan, Araqats (Ələyəz), Aştarak (Əştərək) rayonları, **Kotayk** vilayətinə keçmiş Hrazdan (Axta), Kotayk (Abovyan – Ellər), Nairi rayonları, **Geğarkunuk** vilayətinə keçmiş Krasnoselsk (Çəmbərək), Vardenis (Basarkeçər), Martuni (Aşağı Qaranlıq), Kamo (Kəvər) və Sevan rayonları, **Armavir** vilayətinə keçmiş Bağramyan, Hoktemberyan (Sərdarabad) və Eçmiədzin rayonları, **Ararat** vilayətinə keçmiş Masis (Zəngibasar), Artaşat (Qəmərli) və Ararat (Vedi) rayonları, **Vayotsdzor** vilayətinə keçmiş Vayk (Əzizbəyov) və Yeğeqnadzor (Keşişkənd) rayonları, **Sünik** vilayətinə keçmiş Meğri, Sisyan, Qafan və Gorus rayonları daxil edilmişdir. **İrəvan** şəhərinə də ayrıca vilayət statusu verilmişdir.

Azərabaycanlılara məxsus toponimlərin ermənicələşdirilməsi ermənilərin həmin ərazilərin tarixinin saxtalaşdırılmasına və onların Qərbi Azərbaycanın "avtoxton" əhalisi olmalarını göstərməyə xidmət edir.

## TARİXİ AZƏRBAYCAN ŞƏHƏRİ İRƏVAN

Hər bir azərbaycanlı üçün qədim Bakı, Gəncə, Bərdə, Şəki, Dərbənd, Naxçıvan, Təbriz, Ərdəbil şəhərləri nə qədər əzizdirsə, İrəvan şəhəri də bir o qədər əziz və doğmadır. Müxtəlif dövrlərdə İrəvan şəhərinin yerləşdiyi ərazi Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlcuqilər, Eldənizlər, İlxanilər, Teymurilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar, çar Rusiyası dövlətlərinin tərkibinə daxil olmuşdur. Yalnız 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra İrəvan şəhəri Ermənistanın paytaxtına çevrilmişdir.

İrəvan şəhəri Ağrı vadisinin şimal-şərq hissəsində, dəniz səviyyəsindən təqribən 900-1000 metr yüksəklikdə yerləşir.

Yalnız Azərbaycan türklərinin yaşadığı bu şəhərin adı orta əsr yazılı mənbələrində İrəvan, Rəvan, İrivan, Erivan kimi qeyd edilmişdir. XIX əsrin əvvəllərində rus qoşunları tərəfindən işğalından sonra şəhərin adı Erivan (Эривань) kimi yazılmışdır. Bu şəhər 1936-cı ildə Yerevan adlandırılmışdır.

Erməni tarixçiləri şəhərin adının Urartu çarı I Argiştinin dövründə (e. ə. 782-ci ildə) salınmış Erebuni (İrpuni) qalasının adı ilə bağlamağa çalışırlar. Erebuni qalası yalnız hərbi-istehkam məqsədilə inşa edilmiş və onun ətrafında heç vaxt şəhər infrastrukturu formalaşmamışdı. Urartuluların ermənilərə heç bir aidiyyəti olmadığı kimi, qədim Erebuni qalasının da indiki İrəvan şəhəri ilə nə məkan, nə də zaman baxımından əlaqəsi olmuşdur. İndi ermənilərin “Arinberd” (“Qanlıqala”) adlandırdıqları bu təpə İrəvan şəhərinin cənub-şərq istiqamətində yerləşir. 1879-cu ildə rus arxeoloqu A. İvanovski İrəvan ətrafındakı Çölməkçi kəndində üzərində mixi yazılar olan və Urartu çarı I Argiştinin hakimiyyəti dövrünə aid mətni əks etdirən bazalt daş aşkar etmişdir. Sonradan həmin ərazidə üzərində mixi yazıları olan daha bir neçə daş aşkar edilmişdi.

Qədim İrəvan yaşayış məntəqəsi ilə 1950-ci ildə arxeoloji qazıntılar zamanı üzə çıxan Erebunu qalası arasında xeyli məsafə olmuşdur. Yalnız XX əsrin ikinci yarısından Erebuni qalasının yerləşdiyi Qanlı təpə şəhərətrafı əraziyə daxil edilmişdir. Urartu dövrünə aid tapılan mixi yazılardan aydın olmuşdur ki, e.ə. VIII əsrin birinci rübündə Ağrı vadisi (Araz çayının sol sahili və Arpaçayın aşağı axarı) urartulular tərəfindən işğal edilənədək həmin ərazi Aza xalqının ölkəsi adlanmışdır[156].

İrəvanın Urartu çarı I Argişti tərəfindən əsası qoyulan Erebuni (İrpuni) qalası ilə eyniləşdirilməsi ermənilər tərəfindən tarixin saxtalaşdırılmasının bariz nümunəsidir. Ermənilər dünyaya car çəkdilər ki, guya İrəvan şəhəri qədim Romadan 30 yaş "böyük" imiş.

İlk mənbələr təsdiq edir ki, indi Ermənistan (Hayastan) adlandırılan əraziyə ermənilər (haylar) ilk dəfə xristianlığın dövlət dini səviyyəsinə yüksəlməsindən sonra missionerlər kimi gəlmişlər. Haylar ərəb xilafəti dövründə islam dinini qəbul edən aborigen türkmənşəli boyların tərk etdikləri dini məbədlərə sahib çıxmış, həmin məbədləri kilsəyə çevirmiş, elə oradaca saxta tarix əsərləri quraşdırılmışdır.

Ərəb xilafətinin qoşunları ilk dəfə 642-ci ildə Cənubi Azərbaycan və Naxçıvan üzərindən indiki Ermənistan ərazisinə daxil olmuşdur. Xilafət dövründə Cənubi Qafqazdakı əmirliklərin idarəçiliyi bir qayda olaraq türklərə həvalə edilirdi. Erməni tarixçisi A.Ter-Qevondyan yazır: "Əgər Ərəb xilafəti dövründə Yerevan (İrəvan) şəhər kimi mövcud olmuş olsa idi, ticarət yolu da oradan keçərdi. Lakin Ərəb xilafəti dövründən bəhs edən erməni müəllifləri qeyd edirlər ki, həmin dövrdə

[156] Арутюнян Н.В. Биайнили (Урарту). Ереван, 1970, с. 423.

karvan yolu İrandan Naxçıvan-Dvin (Dəbil) üzərindən kiçik Asiyaya yönəlirdi” [157].

Qeyd edildiyi kimi, xristian əhalisi qismində ermənilərin İrəvan ətrafında məskunlaşması 1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahan şahın razılığı ilə erməni katolikosluğunun iqamətgahının Kilikiyadan Valar-şabad kəndindəki Üçmüəzzin (Üçkilsə) kilsəsinə köçürülməsindən sonra başlamışdır.

Şəhər kimi orta əsrlərdə formalaşan bu qala-şəhər, eyni zamanda Azərbaycanın zəngin mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan qalası Zəngi çayının sol sahilindəki sıldırımlı təpənin üzərində salınmışdı. Çox məşhur olan İrəvan qalası və bağları şəhərə gələn bütün səyyahların diqqət mərkəzində olmuş, onlar haqqında geniş məlumatlar verilmişdir.

Türk səyyahı və coğrafiyaşünası Övliya Çələbi İrəvanı yaşayış məntəqəsi kimi, XV əsrin əvvəllərinə aid edir. Onun yazdığına görə, hicri təqvimi ilə 810-cu ildə (1407-1408) Əmir Teymurun tacirlərindən Xacə xan Ləhicani adlı tacir çox münbit Rəvan torpağına qədəm qoymuş, öz ailə üzvləri ilə burada sakin olmuş və düyü əkini hesabına gündən-günə varlanaraq bu böyük kəndin əsasını qoymuşdur. Övliya Çələbi daha sonra əlavə edir ki, Səfəvilər dövlətinin başçısı Şah İsmayıl hicri 915-ci ildə (1509-1510) qala salınması barədə öz vəziri Rəvanqulu xana göstəriş vermiş, o da öz növbəsində 7 ilə qalanı tikdirərək adını “Rəvan” qoymuşdur [158].

Qaraqoyunluların hakimiyyəti dövründə İrəvanın daxil olduğu ərazi Səədli tayfasının başçıları tərəfindən idarə edilirdi və Çuxur Səəd əmirliyi adlanırdı. Əgər həmin dövrdə Çuxur Səəd əmirliyinin iqamətgahı İrəvanda yerləşmiş olsaydı, Səədli tayfasının başçılarının qəbiristanlığı da orada olmalı idi. Lakin 1411-ci ildə vəfat edən Çuxur Səəd əmiri Əmir Səədin

[157] Тер-Гевондян А.Н. Армения и арабский хилафат. Ереван, 1977, с. 63.

[158] Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr. Hazırlayan Seyidağa Onullahi). Bakı, 1997, s. 50.

məqbərəsi onun oğlu Pir Hüseyn tərəfindən İrəvan şəhərindən 7 km cənubdakı Cəfərabad (1946-cı ildən Arqavand adlandırmışlar) kənində 1413-cü ildə ucaldılmışdır. Əmir Səəd məqbərəsi hazırda mövcuddur və onu ermənilər "türkmən abidəsi" kimi təqdim etməyə çalışırlar.

Fakt odur ki, Şah İsmayıl 1501-ci ildə İrəvan şəhərini fəth etdikdən sonra sərkərdəsi Rəvanqulu xana Zəngi çayının sahilində strateji əhəmiyyətli yerdə qala tikdirməyi həvalə etmişdir. Rəvanqulu xan da qalanı 7 ilə tikdirərək başa çatdırmışdır.

Şəhər kimi orta əsrlərdə formalaşan, yalnız Azərbaycan türklərinin yaşadığı bu qala-şəhər, eyni zamanda Azərbaycanın zəngin mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri bir mərkəz kimi, İrəvan xanlığı dövründə sosial-iqtisadi cəhətdən sürətlə inkişaf etmişdir.

Səfəvilər dövründə Çuxur-Səəd bəylərbəyiliyini əsasən rumlu və ustaclı qızılbaş əmirləri idarə etmişlər. Osmanlı və Səfəvi imperiyaları arasında gedən müharibələr nəticəsində İrəvan şəhəri 14 dəfə əldən ələ keçmişdir. Hər dəfə də müəyyən dağıntılara məruz qalmış, sonradan yenidən bərpa edilmişdir.

İrəvan qalasında və bayır şəhərdə nadir memarlıq inciləri hesab edilən çox sayda məscidlər, karvansaralar, hamamlar, istirahət parkları inşa edilmişdi. Şəhərə Qırxbulaq yaylasından içməli su çəkilmiş, yeni suvarma kanalları sayəsində İrəvan bağlar diyarına çevrilmişdi.

1679-cu il iyunun 4-də İrəvanda baş verən zəlzələ şəhərin bütün tikililərini darmadağın etsə də, Naxçıvan, Gəncə, Qarabağ, Təbriz və Maku bəylərbəyiliklərinin köməyi ilə tezliklə bərpa edilmişdi.

Bir çox səyyah və tarixçilərin təsvir etdikləri İrəvan qalası köhnə qalanın yerində, Osmanlı işğalı dövründə Fərhad paşa tərəfindən 1582-1583-cü illərdə inşa edilmişdir. Uzunluğu 850 m, eni 790 m olan qala təqribən kvadrat formasında olub, 7 ha ərazini əhatə edirdi. İkiqat qala divarlarının hündürlüyü 10,5-12

m idi. Qalanın birqat divarı Zəngi çayının divarlarını yuduğu qayalıq üstündən keçirdi. Qalanın üç qapısı var idi: cənubda Təbriz qapısı, şimalda Şirvan qapısı (yaxud Meydan qapısı) və Körpü qapısı. 1679-cu ildə Meydan qapısı ilə Köhnə şəhər arasında Zəngi çayının üzərində Qırmızı körpü adlanan körpü salınmışdı.

Avropadan və Rusiyadan gələn səyyah və təd-qi-qatçılardan Jan Tavernye, Jan Şardən, Ceyms Morier, İvan Şopen, Dübua da Monpere, qrafinya Praskovya Uvarova, Henri Linç, akademik Nikolay Marr və başqaları müxtəlif vaxtlarda İrəvanda olmuş, Xan sarayını, onun Güzgülü salonunu, Yay köşkünü, qaladakı və şəhərdəki məscidləri, karvansaraları, hovuz və hamamları öz əsərlərində təsvir etmişlər.

İrəvan şəhəri 4 massivdən ibarət olmuşdur: Qala, Şəhri (yaxud Köhnə şəhər), Təpəbaşı (hazırda Kond adlanır) və Dəmirbulaq (hazırda Karanki tağ adlanır) massivləri. Qala ilə digər yaşayış massivləri arasında Bazar meydanı və bağlar mövcud idi. Şəhri məhəlləsi Qırxbulaq çayının sağ sahili ilə İrəvan qalasına kimi uzanırdı. Şəhərin mərkəzi bazarı və bütün meydanları, bir çox karvansaraları və hamamları bu hissədə yer-ləşirdi. Təpəbaşı məhəlləsi Zəngi çayı ilə Şəhri məhəlləsinin arasındakı təpəlikdə yerləşirdi. Təpəbaşı məhəlləsini Şəhri məhəlləsindən İrəvanın adlı-sanlı adamlarının çoxsaylı bağları ayırırdı. Hüseynqulu xana məxsus məşhur Xan bağı və Yay köşkü Zəngi çayının sağ sahilində yerləşirdi. Dəmirbulaq məhəlləsi Şəhri məhəlləsindən cənub-şərqdə, İrəvan qalasının şərqində yerləşirdi.

Şərqin nadir memarlıq incilərindən hesab edilən Xan sarayı, yaxud Sərdar sarayı İrəvan sərdarı Əmirqunə xan Qacar (1605-1625) tərəfindən ucaldılmış, 1760-1770-ci illərdə İrəvan xanı Hüseynəli xan (1762-1783) tərəfindən təkmilləşdirilmişdi. 1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan (1784-1805) sarayın Şüşəbənd adı ilə də tanınan Güzgülu salonu və Yay imarətini inşa etdirmişdi.

İrəvan şəhəri və onun ətrafındakı hidronimlərin (çay, göl, bulaq və s.), oronimlərin (dağ, dərə, aşırım, düzənlik və s.), oykonimlərin (yaşayış məntəqələri, küçələr, məhəllələr və s.) mütləq əksəriyyətinin Azərbaycan türkcəsində olması bir daha onu göstərir ki, bu ərazi azərbaycanlıların qədim yaşayış məskənlərindən olmuşdur. İrəvan şəhəri ərazisində aparılan qazıntılar zamanı aşkara çıxan maddi-mədəniyyət nümunələri içərisində indiyədək ermənilərə məxsus hər hansı nü-munəyə rast gəlinməmişdir.

Quru subtropik iqlim zonasında yerləşən İrəvan şəhəri, olduqca münbit və bərəkətli torpaqlarla əhatə olunmuşdur. Məşhur İrəvan bağları və bostanları İrəvan xanlarının müxtəlif dövrlərdə Zəngi və Gedər çaylarından çəkdirdikləri kanallarla suvarılmışdır. Zəngi çayından şəhərdəki və ətrafdakı bağları suvarmaq üçün 4 kanal – Mamrə, Abuhəyat, Dəlmə və Təzəkənd kanalları çəkilmişdi. Şəhərin cənubundakı bağlar isə (Qırx-bulaq) çayından çəkilən kanal və arxlarla suvarılırdı. İrəvan torpaqlarından ildə 2-3 dəfə məhsul götürülürdü. XX əsrin əvvəllərinədək İrəvan şəhəri 4 mənbədən – Zəngi çayı, Söyüdlük adlanan ərazidəki çoxsaylı bulaqlar, Gedər çayının şəhər bağlarından keçən hissəsində tikilən su anbarı və müxtəlif yerlərdə qazılan kəhrizlər vasitəsilə içməli su ilə təmin edilirdi. XX əsrin əvvəlində İrəvandan təqribən 19 km uzaqlıqda Gedər çayının mənbəyindən (Qırxbulaqdan) şəhərə su kəməri çəkilmişdi. Bu kəmərin çəkilməsində şəhərin imkanlı azər-baycanlılarından Abbasqulu xan İrəvanskinin müstəsna xidməti olmuşdu.

Fransız səyyahı Jan Şardən "Parisdən İsfahana səyahət" əsərində 1673-cü ildə İrəvanda gördüklərini geniş şəkildə təsvir etmişdir. İrəvan qalasını, Xan sarayını təsvir edən Şardən yazır ki, təxminən 800 evdən ibarət olan qala kiçik bir şəhərdən böyükdür, orada ancaq təmizqanlı səfəvilər yaşayırlar. Səyyah

qalanın müdafiəsi üçün iki min əsgər ayrıldığını yazır[159]. Təmizqanlı səfəvilər dedikdə, müəllif İrəvanın şiə məzhəbli türk qızılbaş əhalisini nəzərdə tuturdu.

Osmanlı dövləti ilə Qacarlar dövləti arasında strateji mövqedə yerləşən İrəvan qalasını ələ keçirmək Rusiya üçün də böyük əhəmiyyət kəsb edirdi. Lakin rus qoşunlarının 1804-cü və 1808-ci illərdə İrəvan qalasını ələ keçirmək cəhdləri puç olmuşdu. 20 ildən artıq müddətdə rus qoşunlarının fasilələrlə hücumuna igidliklə tab gətirən İrəvan qalası, nəhayət 1827-ci il oktyabrın 1-də ermənilərin qala divarlarının zəif yer-lərini rus komandanlığına nişan verməsi nəticəsində süqut etdi.

Türkmənçay (1828) və Ədirnə (1829) sülh müqavilələrinin imzalanmasından sonra İrəvan azərbaycanlılarının qara günləri başlanmıdır. İrəvan və Naxçıvan xanlıqlarının işğalından sonra yaradılan yeni inzibati-ərazidə - “Erməni vilayəti”ndə 1829-1832-ci illərdə kameral siyahıyaalma keçirən İvan Şopenin İrəvan şəhərinin əhalisi haqqında verdiyi statistik məlumatlarda şəhərdə 2751 ailənin (11463 nəfər), o cümlədən 1807 müsəlman ailəsinin (7331 nəfər), 567 yerli erməni ailəsinin (2369 nəfər), İrandan köçürülən 366 erməni ailəsinin (1715 nəfər) və Türkiyədən köçürülən 11 erməni ailəsinin (48) nəfər, habelə 46 boşa (xristian qaraçıları) ailəsinin (195 nəfər) yaşadığı göstərmişdir[160]. Yalnız XIX əsrin sonlarında Türkiyəsə baş qaldıran erməni üsyanlarının yatırılmasından sonra ermənilərin İrəvan quberniyasına axışıb gəlmələrindən və 1905-1906-cı illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirilməsindən sonra İrəvan şəhərində ermənilər say üstünlüyünə nail olmuşdular.

İrəvan qalasının işğalından dərhal sonra, ilk olaraq Osmanlı sərkərdəsi Rəcəb paşa tərəfindən 1725-ci ildə inşa

---

159 Şardən Jan. Səyahətnamə (Fransız dilindən tərcümə edən V.Aslanov). Bakı, 1994, s. 21.

160 Шопен И.И. Исторический памятник..., с. 543-546.

etdirilmiş məscidin günbəzindəki ayparanı çıxararaq onun yerinə xaç asmış, minarəsində isə kilsə zəngi quraşdıraraq pravoslav kilsəsinə çevirmişdilər. Qaladakı Sərdar məscidini rus qoşunlarının arsenalına çevirmiş, xanın hərəmxanasını isə hospital etmişdilər. Yeni yaradılan "Erməni vilayəti"nin administrasiyası Xan sarayında yerləşirdi. İmperator I Nikolayın Şimali Azərbaycan xanlıqlarının axırıncı istehkamı olan əfsanəvi İrəvan qalasını görmək arzusu 1837-ci ildə reallaşmışdı. I Nikolay şəhərin müxtəlif təbəqələrinin nümayəndələrini Güzgülü zalda qəbul etmişdi.

1864-cü ildə İrəvan qalasından hərbi məqsədlər üçün istifadəyə son qoyulmuşdur. 1868-ci ildən Xan sarayında İrəvan şəhər polis idarəsi yerləşirdi.

1865-ci ildə İrəvan qalasının ərazisinin bir hissəsini Nerses Tahiryan adlı tacir satın alaraq orada şərab zavodu (indiki konyak zavodu) inşa etdirmişdir.

Rusiya İmperator Arxeoloji Komissiyasının qə-rarına əsasən 1911-ci ilin iyul ayında Xan sarayına baxış keçirən Nikolay Marr Güzgülü zalın Zəngi çayı tərəfə baxan hissəsinin şüşəbəndinin darmadağın edildiyini, zalın döşəməsinin açıq-boz rəngli plitələrinin, cilalan-mış mərmərdən düzəldilmiş fəvvarəli hovuzun da vəhşicəsinə sındırıldığını qeyd etmişdir. N Marr ürək ağrısı ilə yazırdı: "Zalın hər iki tərəfindəki yan otaqlar ayaqyoluna çevrilmişdir. Halbuki, həmin otaqlardan birində vaxtilə imperator I Nikolay gecələmiş və öz dəst-xətti ilə adını divara yazmışdır". N.Marrın "Görünür, biz yerli qədim abidələrin sistematik dağıdılması ilə üzləşmişik. Təbii ki, bu dağıdıcı fəaliyyət son nəticədə qədim abidələrin izlərini itirməyə yönəlib"[161] sözləri hələ XX əsrin əvvəllərində erməni vandallarının əsl simasını ortaya qoyurdu. Lakin N.Marrın bütün

[161] Эривань. Сардарский дворец. 1725 г. // *Известия Императорской Археологической Комиссии*. Выпуск 46. С.Петербург, 1912, с. 75-81.

səylərinə baxmayaraq, Xan sarayı qorunan tarixi-memarlıq abidələrinin siyahısından çıxarılmışdır. 1914-cü ildə Xan sarayının Tiflisdəki Hərb Tarixi muzeyinə təhvil verilən inventarları hazırda Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır.

İrəvan şəhərində çoxlu karvansaralar və ticarət meydanları salınmışdı. Daşdan hörülmüş, ortasında kvadratşəkilli meydançaları, su hovuzları olan karvan-saralar İrəvanın gözəl tikililərindən hesab olunurdu. XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında ümumilikdə 851 köşk mövcud olmuşdur. XIX əsrin sonlarına yaxın isə şəhərdə 20 karvansara mövcud olmuşdur. Erməni tədqiqatçısı T.Hakopyanın yazdığına görə, İrəvan şəhərində ən böyük və ən məşhur karvansara Gürcü karvansarası olmuşdur. Hazırda Gürcü karvansarasının yerində "Sevan" hoteli tikilmişdir. Bu karvansara ermənilərə məxsus olsa idi, onun adı Azərbaycan dilində yox, erməni dilində olardı.

İrəvan şəhərində bir neçə zərbxana mövcud olmuşdur. XVIII əsr səyyahlarının verdikləri məlumata görə, İrəvandakı zərbxanalarda gümüş və mis pullar zərb edilirdi. İrəvanda başlıca olaraq gümüş "abbası" və "şahı" nominalları kəsilirdi. Erməni tarixçilərinin iddia etdikləri kimi, İrəvan xanlığının ərazisində haçansa erməni dövləti və yaxud erməni idarəçiliyi mövcud olmuş olsaydı, onda həmin ərazidə dövlətçilik atributlarından biri hesab edilən və üzərinə erməni dilində yazılar həkk edilən pul kəsilər və dövriyyəyə buraxılardı. Arxeoloji qazıntılar zamanı və başqa yollarla Qafqaz regionunda, o cümlədən də indiki Ermənistan ərazisində üzə çıxan qədim sikkələrin məşhur sovet numizmatı Yevgeni Paxomov tərəfindən tədqiqi göstərmişdir ki, həmin sikkələr içərisində ermənilərə aid bircə dənə də olsun nümunəyə rast gəlinməmişdir.

İ.Şopenin verdiyi məlumata görə, şəhərin mərkəzi hissəsində Böyük Meydan adlanan 400x400 m ölçüdə meydan yerləşirdi. Ağır yükləri çəkmək üçün Qantar tərəzisi, yüngül yükləri çəkmək üçün Mizan tərəzisi bu meydanda yerləşirdi. Digər meydanlar Xan bağı, Zal xan, Hüseynəli xan, Fəhlə bazarı meydanı adlanırdı. Pənah xan Makinskinin imarətinin yerləşdiyi ərazi isə son vaxtlaradək Pənah xan meydanı adlanırdı. Bu meydan hazırda Saxarov meydanı adlanır.

İrəvanda Şərq memarlıq üslubunda 10 hamam – Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim (sonuncu İrəvan xanının qardaşı Həsən xanın qızı), Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy, Həsənəli hamamları mövcud idi . Hazırda İrəvanın mərkəzindəki Respublika meydanının yerləşdiyi yerdə vaxtilə mövcud olan Zal xan hamam kompleksində yeraltı çayxana ilə yanaşı, muğamat məclislərin keçirilməsi üçün xüsusi otaq ayrılmışdı.

XIX əsrin sonları, XX əsrin əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə mövcud idi. Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s. [162].

Bağlar diyarı İrəvanda və onun ətrafında 1473 bağ mövcud olmuşdur ki, onlardan 772-si şəhərin içərisində idi. Sərdar bağı, Dəlmə, Abbas dərəsi, Abuhəyat, Keşağlı, Qızılqala, Dərə bağı, Səvzikəri, Xosrovabad, Söyüdlü, Qul dərəsi, Kənkan, Kərpicxana bağlarının ad-sanı İrəvandan çox-çox uzaqlara yayılmışdı. İrəvan bağlarının bəzi məhsulları qurudulmuş

---

[162] Развитие Еревана после присоединения Восточной Армении к России (Сборник документов, 1801-1917 гг.). Ереван, 1978, с. 356-357.

şəkildə Rusiyanın və Avropanın bir çox şəhərlərinə ixrac edilirdi.

Şəhərdə və onun ətrafında 45 dəyirman mövcud idi. Azərbaycanlılara məxsus Hacıbəyim, Məhəmməd xan, Sübhanqulu xan, Qala, Xan, Doqquz dəyirmanlar şəhərin ən böyük dəyirmanları olmuşdur.

İrəvanın Rusiya işğalı ərəfəsində şəhərdə 5 körpü mövcud olmuşdur. Körpülərin 4-ü Qırxbulaq (Gedər) çayının üzərində - yəni çayın şəhərin Dəmirbulaq massivi ilə Şəhər massivi arasında keçən hissəsində, biri isə Zəngi çayı üzərində 4 aşırımlı, Qala ilə Şəhər massivini birləşdirən və tarixi ədəbiyyatda Qırmızı körpü adlanan körpü olmuşdur[163].

Tarixi ədəbiyyatda İrəvan şəhərində 15-ə yaxın məscidin və onun ətrafında iki erməni kilsəsinin adları keçir. Göy məscid (yaxud Hüseynəli xan), Qala məscidi (Sərdar, yaxud Abbas Mirzə), Şah Abbas, Təpəbaşı, Zal xan (yaxud Şəhər), Sərtib xan, Hacı Novruzəli bəy, Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb paşa, Məhəmməd Sərtib xan, Hacı İnam məscidlərinin minarələri uzaqdan İrəvanın müsəlman şəhəri olmasını nişan verirdi. Şəhərin kənarında mövcud olan Poğos-Petros və Katoğke kilsələri vaxtilə xristian missionerlərinin vəsaiti hesabına tikilmişdi və məqsəd ermənilərin şəhərə axınını təmin etməkdən ibarət idi.

1833-cü ildə fransız geoloqu və arxeoloqu, naturaçı Fredrik Dübua de Monpere 1839-cu ildə Parisdə çap etdirdiyi "Qafqaz ətrafına səyahət" əsərinin 3-cü cildində İrəvan qalasını və Göy məscidi ətraflı təsvir etmişdir. Onun Sərdar məscidinin əsas girişi tərəfdən çəkdiyi rəsm və Göy məscidin rəsmi hər iki məscidin möhtəşəmliyini və memarlıq nöqteyi-nəzərindən mükəmməl sənət əsəri olduqlarını əyani nümayiş etdirir. Həmin rəsmlər müəllifin adıçəkilən əsərinə əlavə olaraq 1840-cı ildə çap edilən atlasın üçüncü hissəsində yer almışdır. Qravüraçı

[163] Шопен И. И. Исторический памятник…, с. 723.

Erkül Nikole Dübua de Monperenin çəkdiyi rəsmlərin qravüralarını hazırlamışdır.

Tanınmış rus arxeoloqu qrafinya Praskofya Uvarova 1880-ci ildə İrəvan şəhərində olmuş, əsrlər boyu yaradılan tarixi-memarlıq abidələrinin dağıdılmasını ürək ağrısı ilə təsvir etmişdir. P.Uvarova Xan sarayının yaxınlığında yerləşən Sərdar məscidini Vereşşaginin fırçasından çıxan tabloya bənzətmişdir. P.Uvarova yazır ki, Sərdar məscidinin əsas günbəzi, xarici divarları, sütunları, iç divarları, çoxsaylı digər günbəzləri rəngli kaşılarla və gözəl təsvirlərlə bəzədilmişdir. P.Uvarova Sərdar məscidinin tünd mavi rəngli günbəzinin açıq səma ilə bütöv bir ahəng təşkil etdiyini, onun portalındakı tünd mavi lövhə üzərində ərəb əlifbası ilə ağ rənglə mətn həkk olunduğunu, divar sütunları üzərində ucalan minarələrinin üzərinin kvadrat şəkilli tünd mavi və açıq mavi kaşılarla bəzədildiyini qeyd etmişdir [164].

XIX əsrdə Qərbi Avropa və Rusiya bədii yaradıcılığının mütərəqqi ənənələri Azərbaycan sənətkarlarının yaradıcılığına da öz təsirini göstərmişdir. Yeni meyllər ilk növbədə rəssamların iş üslubunda və təsvir formasında özünü büruzə verirdi. Şimali Azərbaycan təsviri sənətində realist meyllər XIX əsr rəssamlığının görkəmli nümayəndələrindən sayılan Mirzə Qədim İrəvaninin (1825-1875) yaradıcılığında da öz əksini tapmışdır. O, Azərbaycan dəzgah boyakarlığının banisi hesab edilir.

Mirzə Qədim rəssamlığın bir çox sahələrində fəaliyyət göstərən sənətkarlardan olmuşdur. O, portret və ornamental kompozisiyalar sahəsində xüsusilə böyük məharət göstərmişdir. Onun şüşə, dəri, parça üzərində işlənmiş əsərləri Bakıda Azərbaycan Dövlət İncəsənət Muzeyində, Tiflisdə Gürcüstan Dövlət İncəsənət Muzeyində və Sankt-Peterburqda Dövlət Ermitajında nümayiş etdirilir. Mirzə Qədim ilk əsərlərini şüşə

---

[164] Уварова Прасковья. Кавказ. Путевые заметки. Москва, 1887, с. 193.

üzərində çəkməyi sevirmiş. Bunlar da əsas etibarilə gənc qadın portretləri olmuşdur. Mirzə Qədimin hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan qızılgül şaxəsi üzərində oturan bülbül rəsmi xüsusilə diqqəti cəlb edir.

XIX əsrin 50-ci illərində baxımsızlıq üzündən yarasız hala düşən, nəmişlikdən divar rəsmləri korlanan, karniz və tavanın güzgüləri qopub tökülən Xan sarayında qismən də olsa bərpa işləri aparılmışdır. 1867-1874-cü illərdə Xan sarayında dəfələrlə aparılan bərpa işlərini Mirzə Qədim həyata keçirmişdir. O, Güzgülü zaldakı divar rəsmlərinin əksəriyyətini bərpa etmişdir. Rəssamın yağlı boya ilə çəkdiyi "Fətəli şah", "İrəvan sərdarı", "Həsən xan", "Rüstəm Zal" portretləri hazırda Tiflisdə Gürcüstan Dövlət İncəsənət Muzeyində, "Abbas Mirzə" portreti isə Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır. Sənətşünas N.Miklaşevskaya həmin portretləri mahiyyət etibarilə Azərbaycan dəzgah rəssamlığının ilk əsərləri hesab edir və 1914-cü ildə Sərdar sarayı dağıdılan zaman həmin portretlərin divarlardan qoparıldıqdan sonra Tiflisə aparıldığı və Gürcüstanda muzeydə saxlanıldığı barədə məlumat vermişdir [165].

İrəvan şəhərində mövcud olan azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinin, o cümlədən də Xan sarayının və məscidlərin məşhur rus fotoqrafı Dmitri Yermakov tərəfindən XIX əsrin 80-90-cı illərində çəkilmiş fotoları fotoqrafın 1896 və 1901-ci illərdə çap etdirdiyi albomlara daxil edilmişdir. Dmitri Yermakovun İrəvanda çəkdiyi fotolarının böyük bir qismi hazırda Simon Canaşiya adına Gürcüstan Dövlət Muzeyinin Yermakov fondunda və Şalva Amiranaşvili adına Dövlət İncəsənət Muzeyində saxlanılır.

---

[165] Миклашевская Н. О наследии и традициях в Азербайджанском изобразительном искусстве. В книге: Искусство Азербайджана. Том VII, Баку. 1959, с. 51.

Alman incəsənət tarixçisi və arxeoloqu Friedrix Sarre 1897-cı ildə İrəvanda olmuş, Sərdar məscidinin və Göy məscidin müxtəlif rakurslardan foto şəkillərini çəkmiş və sonradan həmin məscidləri müsəlman tarixi abidələri kimi elmi tədqiqat dövriyyəsinə cəlb etmişdir. F.Sarrenin çəkdiyi fotoların bir qismi hazırda Berlindəki Dövlət Muzeyinin islam incəsənəti bölməsində sax-lanılır.

Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli qərarı ilə Azərbaycana qarşı ərazi iddiası sürməmək şərti ilə İrəvan şəhərini paytaxt kimi ermənilərə güzəştə getmişdir.

1918-1920-ci illərdə mövcud olmuş daşnak hakimiyyəti dövründə İrəvan şəhərində azərbaycanlılara qarşı soyqırımı, onlara məxsus maddi-mədəniyyət abidələrinə qarşı isə vandalizm aksiyaları həyata keçirilmişdir.

Sovet hakimiyyəti illərində də azərbaycanlıların maddi-mədəni irsinin məhv edilməsi rəsmi İrəvanın siyasətinin tərkib hissəsi olmuşdur. 1924-cü ildə Aleksandr Tamanyanın layihəsi əsasında həyata keçirilən İrəvan şəhərinin rekonstruksiyası, əslində azərbaycanlıların izini silməyə xidmət edirdi. 1936-cı ildə İrəvan şəhərinin yeni baş planı hazırlanmışdır və onun həyata keçirilməsi nəticəsində qalanın içərisində müasir tipli hündürmərtəbəli binalar inşa edilmişdir. İkinci Dünya müharibəsi dövrünə aid şəkillərdə İrəvan qalasının divarlarının müəyyən hissəsinin hələ də mövcud olduğu görünür. Lakin sonralar qala divarları tamamilə sökülmüş və hazırda ondan əsər-əlamət qalmamışdır.

İrəvan şəhərində mövcud olmuş məscidlər bir-birinin ardınca erməni vandalları tərəfindən dağıdılmış və yaxud təyinatı dəyişdirilmişdir.

1928-ci ildə Zal xan, yaxud Şəhər məscidinin böyük zalı sökülərək onun yerində “Yerevan” hoteli inşa edilmişdir. 1999-cu ildə rekonstruksiya edildikdən sonra həmin hotel hazırda “Golden Tulip Hotel Yerevan” adlanır. Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan 1949-cu ilə aid bir arxiv

sənədində Zal xan məscidinin mədrəsəsindən sərgi zalı kimi istifadə edildiyi göstərilmişdir.

İrəvan şəhərində 1988-ci ilədək yalnız Dəmirbulaq məscidi öz məqsədinə xidmət edirdi. 1990-cı ildə həmin məscid də yer üzündən silinmiş, onun yerində hündürmərtəbəli bina ucaldılmışdır.

1936-cı ildən Göy məscidin binasında İrəvan səhər tarix muzeyi yerləşdirilmişdi. İkinci Dünya müharibəsi başladıqdan sonra Göy məsciddən bir müddət eyni zamanda hərbi sursat anbarı kimi istifadə edilmişdi. Müharibədən sonra Göy məsciddə həmçinin Təbiət muzeyi və 1952-ci ildən etibarən isə məscidin kiçik ibadət zalında astronomiya həvəskarları üçün Planetariya fəaliyyət göstərmişdir. 1991-ci ildə Ermənistan müstəqilliyini əldə etdikdən və müsəlman ölkələri ilə diplomatik münasibətlər qurulduqdan sonra Göy məscidin yenidən məscid kimi fəaliyyət göstərməsi zəruriyyəti meydana çıxmışdı. Əvvəlcə 1991-ci ildə Təbiət muzeyi, 1994-cü ildə isə Tarix muzeyi məscid kompleksindən çıxarıldı. 1995-ci ildə İranla Ermənistan arasında imzalanan müqaviləyə əsasən İran hökuməti Göy məscidin yenidən qurulması xərclərini öz üzərinə götürdü. Rekonstruksiya işləri İranın “Bünyad-e Müstəzəfan və Canbazan” (Müharibə veteranları və şəhidlər” yaxud n "Bonyade Möstezəfan və Canbazane Enqelabe Eslami") xeyriyyə fonduna həvalə edildi. Məsciddə tamamlama işləri 2006-cı ildə başa çatdırılmışdır. Rekonstruksiya işləri məscid kom-pleksinin yalnız cənub-qərb və şimal hissəsində aparılmışdır. Göy məscidin 24 metrlik minarəsi, 28 köşkü (hücrə), kitabxanası, böyük zalı, günbəzi və həyəti rekonstruksiya edilmişdir. Hazırda Ermənistan rəsmiləri Göy məscidi xaricdən gələn qonaqlara “Fars məscidi” kimi təqdim edirlər. Hazırda Göy məscid və onun yerləşdiyi ərazi istifadə hüququ ilə təmənnasız olaraq 99 illiyinə İran İslam Respublikasının Ermənistandakı səfirliyinə mədəniyyət mərkəzi kimi təhvil verilmişdir.

Təpəbaşı yaşayış massivində yerləşən məscidinin minarəsi 1960-cı illərdə uçmuşdur. Divarlarının qalınlığı təqribən 1,5 metr olan məscidin içərisində erməni ailələri yaşayır.

Ermənistan hökuməti 2007-ci ildə ölkə ərazisində dini və milli azlıqlara məxsus olan və Ermənistan hökuməti tərəfindən qorunan məbədlərin və tarixi abidələrin siyahısını Avropa Şurasına təqdim etmişdir. Həmin siyahıya Mesrop Maştos küçəsi-12 ünvanında yerləşən Göy məscidin və Xorhrdarani küçəsi-40 ünvanında yerləşən məscidlərin adları daxil edilmişdir. Qeyd edilən siyahıda Göy məscid İran məscidi kimi təqdim edilmiş, Abbas Mirzə məscidinin isə qəfəsinin (skeletinin) "qorunduğu" qeyd edilmişdir. Lakin 2014-cü ilin noyabr ayında Sərdar məscid-kompleksindən qalan 2-3 metr enində, 3-4 metr hündürlüyündə divarının kiçik bir parçasını da erməni vandalları yox etmişlər.

İrəvan qalasının həmyaşıdları və müasirləri – Bakıda İçərişəhərin qala divarları, onun içərisindəki Şirvanşahlar kompleksi, Şəkidə Xan sarayını əhatə edən qala divarları bu gün də yaşayır və keçmişdən bu günə soraq verirlər. İrəvanda isə orta əsr memarlığından soraq verən bircə dənə də olsun tarixi abidə qalmamışdır. Azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinin məhv edilməsinin nəticəsidir ki, İrəvan şəhərində yaşı 250 ildən yuxarı olan Göy məsciddən savayı bircə dənə də olsun tarixi-memarlıq abidəsi qalmamışdır.

2003-cü ildə İrəvanın mərkəzi Respublika Meydanında aparılan qazıntı zamanı Zal xan hamamının və qədim karvansaranın qalıqları meydana çıxdı. Tələsik üstünü örtdülər ki, bu tikililərin azərbaycanlılara məxsus olduğu aşkarlanmasın. Təpəbaşı məhəlləsindəki azərbaycanlı izini silmək üçün Ermənistan hökuməti hazırda xarici investorları cəlb etməklə yeni proqram həyata keçirir.

Son illərdə Ermənistan rəhbərləri "İrəvan qalası" adı altında yeni layihə həyata keçirmək fikrinə düşüblər. İrəvanda azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrini

tamamilə məhv edən ermənilər indi XVII-XVIII əsrlər memarlığı üslubunda inşa edilməsi nəzərdə tutulan “Sədar sarayı”ndan, ticarət obyektlərindən, bazarlardan karvan-saralardan, Şərq hamamlarından və s. külli miqdarda gəlir əldə etmək istəyirlər. Şəhər ətrafında - keçmişdə Təzəkənd adlanan, indi isə ermənilərin Noraqyuğ adlandırdıqları yaşayış massivində 184 hektar ərazidə inşa edilməsi nəzərdə tutulan layihənin ilkin smeta dəyəri 6-7 milyard ABŞ dolları civarındadır. Moskva şəhərinin keçmiş meri Yuri Lujkovun İrəvana 2010-cu ilin yanvarındakı səfəri zamanı erməni rəsmiləri onu şirnikləndirərək “İrəvan qalası” layihəsinin maliyyələşdirilməsi məsələsini merin və onun biznes ortaqlarının üzərinə qoymaq üçün onun razılığını almışdılar. Lakin Y.Lujkov Moskvanın meri vəzifəsindən azad edildikdən sonra “İrəvan qalası” layihəsinin icrası baş tutmamışdır.

Azərbaycanlılara qarşı törədilən 1905-1906-cı illər kütləvi qırğınları, 1918-1920-ci illər soyqırımı, 1948-1953-cü illər və 1988-1991-ci illər deportasiyaları İrəvan şəhərinin azərbaycanlı simasını ermənilərin xeyrinə tamamilə dəyişdirdi. İrəvan şəhərindən azərbaycanlıların maddi-mədəniyyət izlərini silən, ardınca azərbaycanlı etnik kimliyini yox edərək monoetnik erməni şəhəri yaratmağa nail olan ermənilər indi də tarix kitablarından, dərsliklərdən azərbaycanlıların izini silməyə çalışırlar.

Prezident İlham Əliyevin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında bir qrup ziyalı ilə keçirdiyi görüşdə tarixə müraciət edərək bu gün Ermənistan Respublikası adlanan dövlətin tarixi Azərbaycan torpaqlarında mövcud olduğunu, bunu təsdiqləyən sənədlərin və xəritələrin əlimizin altında olduğunu və dünya ictimaiyyətinin bütün bunları bilməli olduğunu bildirdi. Dövlət başçısı ritorik sual səsləndirdi: “İndi göstərin görək İrəvanın tarixi mərkəzi haradır?” Cavabını da özü verdi: “Bu tarixi mərkəz Azərbaycan xalqının tarixi irsi idi, hansı ki, onlar dağıdıblar. Şəhərsalma adı

altında bütün tarixi binalarımız, o cümlədən İrəvan qalası, Sərdar sarayı dağıdılıb.”[166]

Ermənistanın mövqeyi belədir ki, İrəvan ərazisində mövcud olan və bu günədək gəlib çatan azərbaycanlılara məxsus abidələr tarixi saxtalaşdırmaq yolu ilə qoy “fars”, “türkmən”, “monqol” abidəsi adlandırılsın, bununla da həmin abidələrin əsl sahiblərinin kimlər olduğu ört-basdır edilsin.

İndiki Ermənistan – Qərbi Azərbaycan ərazisində azərbaycanlılara məxsus tarix-memarlıq abidələrinin qəsdən dağıdılması, onların mənsubiyyətinin dəyişdiril-məsi və yaxud özününkiləşdirilməsi beynəlxalq humanitar hüququn, xüsusən də 1949-cu il Cenevrə Konvensiyalarının, UNESCO-nun 1954 və 1970-ci il Konvensiyalarının kobud şəkildə pozulmasıdır.

Erməni vandalları İrəvan şəhərində azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrinin izlərini silməyə çalışsalar da və yaxud didər xalqların adına yazmağa çalışsalar da, tarixin yaddaşından onları silmək mümkün deyildir. Bu şəhər qədim elm, təhsil, mədəniyyət və incəsənət mərkəzlərindən biri kimi, Azərbaycan tarixinin parlaq səhifələrindən birini təşkil edir.

---

[166] Əliyev İlham. İnkişaf - məqsədimizdir: Yüz iyirmi dördüncü kitab. Bakı, 2022, s. 218-219.

## YENİ MƏRHƏLƏ –
## QƏRBİ AZƏRBAYCANA
## QAYIDIŞ UĞRUNDA MÜBARİZƏ

XX əsrdə azərbaycanlılar indiki Ermənistan ərazisində dəfələrlə soyqırımlarına və deportasiyalara məruz qoyularaq tarixi-etnik torpaqlarından didərgin salınsalar da həmişə öz yer-yurdlarına qayıtmaq üçün ciddi mübarizə aparmışlar. 1918-1920-ci illərdə Qərbi Azərbaycanda etnik təmizlənməyə məruz qoyulan azərbaycanlıların hüquqlarının müdafiəsi funksiyasını Bakıda fəaliyyət göstərən İrəvan Quberniyası Həmyerliləri Təşkilatı həyata keçirirdi. Bu təşkilat soydaşlarının hüquqlarının müdafiəsi üçün həmin dövrdə Cənubi Qafqazda fəaliyyət göstərən beynəlxalq təşkilatlara və diplomatik nümayəndəliklərə müraciət edərək onları daşnak Ermənistanı dövləti tərəfindən həyata keçirilən soyqırımına son qoymağa çağırırdı. Həmçinin bu təşkilat çox ağır vəziyyətdə Azərbaycana pənah gətirən qaçqınların maddi vəziyyətinin yün-günlləşdirilməsi üçün yardımlar göstərirdi. Azərbaycanlıların öz torpaqlarına möhkəm bağlılıqlarının nəticəsi idi ki, 1920-ci ildə indiki Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra qaçqın düşən azərbaycanlıların üçdəbiri doğma yurdlarına qayıda bilmişdi.

Azərbaycanlıların Ermənistan SSR-dən 1948-1953-cü illər deportasiyası nəticəsində Azərbaycanda məskunlaşdırılan soydaşlarımızın da təxminən üçdəbiri bütün məhrumiyyətləri göz önünə alaraq öz yer-yurdlarına qayıda bilmişdilər.

1987-1991-ci illərdə Qərbi Azərbaycanda soydaşlarımıza qarşı etnik təmizləmənin başa çatdırılmasından sonra qaçqın kimi Azərbaycana pənah gətirən didərginlərin problemlərinin

həlli və hüquqlarının müdafiəsi istiqamətində bir neçə ictimai təşkilatlar yaranmışdı. Pərakəndə halda fəaliyyət göstərən həmin təşkilatlar qaçqınların problemlərinin həlinə əməli kömək göstərə bilmirdilər. Həmin dövrdə Azərbaycanın mövcud rəhbərliyi də qaçqınların taleyinə biganəlik göstərmiş, onları taleyin hökmü ilə baş-başa buraxmışdı. Belə ağır bir şəraitdə Qərbi Azərbaycandan olan bir qrup ziyalıların təşəbbüsü ilə Qaçqınlar Cəmiyyəti yaradıldı. Azərbaycan Qaçqınlar Cəmiyyəti 1989-cu ilin dekabrında təsis edilsə də, 1992-ci ilin fevralında rəsmi dövlət qeydiyyatına alınıb.

Azərbaycan Qaçqınlar Cəmiyyətində Qərbi Azərbaycandan zorla çıxarılmış qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı göstərilməklə) dəqiq statistikası aparılıb və onların elektron bazası yaradılıb. Ermənistan SSR ərazisində yalnız azərbaycanlıların yaşadığı 170-dən artıq kənddən, azərbaycanlılarla ermənilərin qarışıq yaşadığı 100-ə yaxın yaşayış məntəqəsindən (kənd, qəsəbə və şəhərdən) 49.928 ailədə 300 min nəfərədək azərbaycanlının ermənilər tərəfindən öz doğma yurdlarından zorla qovulduqları təsbit edilib. 200 nəfərdən çox soydaşımızın erməni şovinistləri tərəfindən öldürülməsi (güllələnmiş, qəsdən avtomobil qəzasına salınmış, dağ yollarında donmuş və s.), 400 nəfərdən çox azərbaycanlının isə yaralanması barədə sənədlər toplanılıb. Bir çox azərbaycanlıların evlərinin, əmlaklarının yandırılması və ya talan edilməsi barədə verilən ifadələr sənədləşdirilib.

Bu gün müxtəlif dövrlərdə Qərbi Azərbaycandan qovulan bütün azərbaycanlıları və onların varislərini öz cərgəsində birləşdirən Qərbi Azərbaycan İcması 2014-cü ilin sentyabrında "Azərbaycan Qaçqınlar Cəmiyyəti İctimai Birliyi" adı ilə təkrar dövlət qeydiyyatına alınan təşkilatın hüquqi varisidir. 2022-ci il

avqustun 3-də İctimai Birliyin Ümumi yığıncağında təşkilatın adı dəyişdirilərək “Qərbi Azərbaycan İcması”na çevrilib və İcmanın yeni Nizamnaməsi təsdiq olunub.

Qərbi Azərbaycan İcması indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya – "Qayıdış Konsepsiyası”nı qəbul etmişdir. Konsepsiyaya görə İcma ötən iki əsr ərzində Qərbi azərbaycanlılara qarşı törədilmiş ədalətsizliyi qəbul etmir və bu ədalətsizliyin nəticələrini rədd edir. İcma Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququna əsaslanmaqla, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına qayıtmalarına şərait yaradılmasını və oraya qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqlarının təmin edilməsini özünün əsas hədəfi kimi bəyan etmişdir.

2020-ci ilin payızında Azərbaycan ordusu Ermənistanın təqribən 30 il ərzində işğal altında saxladığı Azərbaycan torpaqlarının azad edilməsi üçün həyata keçirdiyi 44 günlük Vətən Müharibəsi “Qalib erməni xalqı”, “Yenilməz erməni ordusu” mifinə son qoydu. 2020-ci il həm Azərbaycan, həm də erməni xalqının tarixinə dönüş nöqtəsi kimi yazıldı. Azərbaycan tarixinə “Zəfər günü” kimi, Ermənistan tarixinə isə məğlubiyyət günü kimi həkk olundu. 2023-cü il sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunda Ermənistan silahlı qüvvələrinin qalıqlarına və qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı həyata keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa edildi. Yaranan yeni reallıq Qərbi Azərbaycandan zaman-zaman deportasiya edilən azərbaycanlıların öz tarixi vətənlərinə

qayıtmaq arzusunun reallaşması üçün zəmin yaratdı. Beynəlxalq humanitar hüquq da bu istəyin reallaşması üçün imkan yaradır. Azərbaycan Respublikası Baş Prokurorluğunda Ermənistan ərazisində azərbaycanlılara qarşı törədilən cinayətləri təhqiq edən istintaq qrupu yaradılıb. Azərbaycan Respublikası Milli Məclisində Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu fəaliyyət göstərir.

Prezident İlham Əliyev 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var." [167]

Qərbi Azərbaycan İcması tərəfindən həm Ermənistan hökumətinə, həm də beynəlxalq təşkilatlara müraciətlər qəbul edilmişdir. Birləşmiş Millətlər Təşkilatının katibliyi Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yaymışdır.

Prezident İlham Əliyev 2025-ci il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibəsində Ermənistanın faşist rəhbərliyi tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirildiyini, vaxtilə azərbaycanlıların yaşadıqları kəndlərin böyük əksəriyyətinin indi tamamilə boş qaldığını,

[167] Əliyev İlham. İnkişaf - məqsədimizdir. Yüz iyirmi dördüncü kitab. Bakı, 2022, s. 210.

orada heç kimin yaşamadığını, ora qayıtmağın böyük problem olmayacağını, sadəcə olaraq, Ermənistan dövləti tərəfindən qayıtmaq hüququnun tanınmalı olduğunu, qayıdanların orada yaşamaları üçün təhlükəsizlik zəmanətinin verilməli olduğunu söyləmiş, və Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıdacaqlarına ümid etdiyini bildirmişdir.

Prezident İlham Əliyev həmçinin bildirmişdir ki, Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıtması məsələsi artıq həm beynəlxalq leksikona, həm beynəlxalq gündəliyə salınmışdır. Dövlət başçısı qeyd etmişdir ki, Ermənistandan qovulan azərbaycanlıların öz doğma torpaqlarına qayıtmalarını tələb etmək Ermənistana qarşı hər hansı bir ərazi iddiasında olmaq demək deyil və sadəcə olaraq, buna insan hüquqları nöqteyi-nəzərindən yanaşmaq lazımdır və bu məsələ gündəlikdən çıxarılmayacaqdır[168].

Qərbi Azərbaycan İcması son 200 il ərzində etnik təmizləmə, deportasiya və soyqırımlara məruz qalaraq ata-baba yurdlarından ədalətsizcəsinə qovulan soydaşlarımızın, onların varislərinin öz doğma yurdlarına geri dönmələri üçün bütün hüquqi mexanizmləri işə salmışdır.

[168] https://president.az/az/articles/view/67871

## MÜNDƏRİCAT

**Tarixi xülasə..............................................3**

**Ermənilər rusların himayəsində ...............8**

İrandan köçürülən ermənilər.........................11

Türkiyədən köçürülən ermənilər ..................13

**Qərbi Azərbaycanda törədilən soyqırımları, deportasiyalar və repressiyalar...........................17**

1905-1906-cı illər qırğınları ........................17

1918-1920-ci illər soyqırımı.........................24

Qərbi Zəngəzurun və digər ərazilərin Sovet Ermənistanına verilməsi.....................35

1930-cu illər repressiyası .............................46

Qərbi azərbaycanlılar İkinci Dünya müharibəsində......................................................53

1948-1953-cü illər deportasiyası ..................55

1987-1991-ci illər etnik təmizləmə mərhələsi.70

**Toponimlərə qarşı cinayət...........................80**

**Tarixi Azərbaycan şəhəri İrəvan...............83**

**Yeni mərhələ – Qərbi Azərbaycana qayıdış uğrunda mübarizə.........................101**

**Nazim Mustafa**
**(Nazim Yusif oğlu Mustafayev)**

**Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar.**

"Orxan" NPM. Bakı, 2025.
Nəşriyyat direktoru:
Cəfər Bağırov

Kağız formatı: 70/100 1/16
Yığılmağa verilmişdir: 06.01.2025
Çapa imzalanmışdır: 09.01.2025
Şərti çap vərəqi 6.75
115 qr. Təbaşirli kağız
Həcmi: 108 səh.
Tirajı: 1 000

Kitab “Orxan” Nəşriyyat və Poliqrafiya
müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
e-mail: orxan.npm@gmail.com

Ünvan: Bakı şəhəri, Dərnəgül qəsəbəsi,
3105-ci məhəllə
Tel: 562-83-03